RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 182 (9349) 26 AVQUST 2023-cü il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevaya



Hörmətli Mehriban Arif qızı!

Doğum gününüz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Ölkələrimiz arasında müttəfiqlik münasibətlərinin möhkəmləndirilməsinə Sizin şəxsi töhfənizi yüksək qiymətləndiririk. Əminəm ki, konstruktiv çoxplanlı əlaqələrin gələcək inkişafı da Rusiya və Azərbaycanın dost xalqlarının maraqlarına tam cavab verəcək.

Hörmətli Mehriban Arif qızı, Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, xoşbəxtlik, rifah və dövləti fəaliyyətinizdə uğurlar arzu edirəm.

*Hörmətlə,*

***Vladimir PUTİN,***
***Rusiya Federasiyasının Prezidenti***

## Şərqi Zəngəzurda quruculuq işləri Prezidentin tam nəzarətindədir

### Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər və Laçın rayonlarına səfər ediblər

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 25-də Kəlbəcər və Laçın rayonlarına səfər ediblər.

Dövlət başçısı və birinci xanım "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin "Soyuqbulaq" Kiçik Su-Elektrik Stansiyasının açılışında iştirak ediblər, "İstisu" Mineral Sudoldurma Zavodunun tikintisi ilə tanış olublar.

Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya "İstisu" Müalicə-İstirahət Kompleksində görülən işlər barədə məlumat verilib.

Dövlət başçısı "Azərenerji" ASC-nin "Çıraq-1" və "Çıraq-2" Kiçik Su-Elektrik stansiyalarının açılışında iştirak edib.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zar kəndinin təməlqoyma mərasimində iştirak ediblər.

Prezident İlham Əliyev Laçın rayonunda "Azərenerji" ASC-nin "Mişni" və "Alxaslı" Kiçik Su-Elektrik stansiyalarının açılışlarında iştirak edib.

Dövlət başçısı və birinci xanım Laçın Beynəlxalq Hava Limanında tikinti işlərinin gedişi ilə tanış olublar.

Prezident İlham Əliyev Kəlbəcər-Laçın avtomobil yolunun 38-ci kilometrliyindən 76-cı kilometrliyinədək olan hissəsində həyata keçirilən işlərlə tanış olub.

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Laçın şəhərinə yaxın ərazidə inşa ediləcək mehmanxana kompleksinin təməlqoyma mərasimində, Laçın rayonunun sənaye zonasında mebel fabrikinin açılışında iştirak edib, prefabrik modul evlərin istehsalı müəssisəsinin və xırdabuynuzlu heyvanların saxlanılması məntəqəsinin fəaliyyəti ilə tanış olub, "Hoçazfilm" Yaradıcılıq Studiyasının çəkiliş pavilyonunun, Laçın rayon 2 nömrəli tam orta məktəbin əsaslı təmirdən sonra və Həkəri Balıq Təsərrüfatının açılışlarında iştirak ediblər.

→ 2-8

## Uruqvay Şərq Respublikasının Prezidenti zati-aliləri cənab Luis Lakalle Pouya

Hörmətli cənab Prezident!

Uruqvay Şərq Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Uruqvay arasındakı münasibətlər xalqlarımızın mənafelərinə uyğun olaraq həm ikitərəfli, həm də çoxtərəfli əsasda bundan sonra da dostluq və əməkdaşlıq ruhunda inkişaf edəcəkdir.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost xalqınıza əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 avqust 2023-cü il*

# Azərbaycana misilsiz sədaqət simvolu



İnsan həyatının böyük mənası onun həmrəylik, qayğıkeşlik, xeyirxahlıq, başqalarına yardım əli uzatmaq, dayaq olmaq kimi mənəvi dəyərlərində təzahür edir. Toplumun formalaşması və həyat immuniteti, cəmiyyətin əxlaqi saflığı bu dəyərlər üzərində qərar tutaraq inkişaf edir.

Müasir Azərbaycan cəmiyyətində sözügedən ali keyfiyyətləri özündə ən üzvi surətdə birləşdirən insanların sırasında Azərbaycanın birinci xanımı, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva şərəfli yer tutur. Onun şəxsiyyətinə, böyük həvəs, məhəbbət və uğurla həyata keçirdiyi, xalqımızın və dövlətimizin firavan bu günü ilə yanaşı xoşbəxt gələcəyinə hədəflənmiş yüksək tarixi əhəmiyyətli missiyasına Azərbaycan xalqının hüdudsuz sevgisinin kökündə məhz bu səbəblər dayanır.

### Vətənə təmənnasız xidmət nümunəsi

Vətənə, xalqa, dövlətə təmənnasız xidmət insanın həyat və fəaliyyətinin ictimai dəyərini təyin edən başlıca xüsusiyyət kimi qiymətləndirilir. Xalqın həyatında dərin izlər buraxmış, ictimai inkişafa əhəmiyyətli töhfələr vermiş bütün insanları onların dövlət qarşısındakı təmənnasız xidmətləri birləşdirir. Bütünlükdə bəşəriyyətin çoxəsrlik tarixi kimi hər bir xalqın mövcudluğu bu qəbildən olan insanların fədakarlıqları üzərində qərar tutur.

Azərbaycana təmənnasız xidmət nümunələri tariximizin şərəf lövhəsini bəzəyən dahi insanları birləşdirən ən ümumi keyfiyyət sayıla bilər. Bu halda ehtiramla xatırlanmağa layiq saydığımız insanların siyahısına Ulu Öndər Heydər Əliyev başçılıq edir. İndiki nəsillər Vətənə və xalqa təmənnasız xidmətin ən gözəl nümunələrini ondan öyrəniblər və öyrənməkdədirlər. Müstəqil Azərbaycan dövlətinin qurulmasından tutmuş onun hazırkı möhtəşəm qələbələrinədək keçdiyimiz şərəfli yolda ən parlaq ulduz rolunu Heydər Əliyevin unudulmaz milli fədakarlıq nümunələri və onun davamçısı olan Prezident İlham Əliyevin xalqa böyük xidməti oynamışdır və oynamaqdadır. Bunlarsız nə müasir Azərbaycanı, nə onun möhtəşəm, qeyri-adi inkişafını, nə də ölkəmizi gözləyən daha böyük uğurları başa düşmək mümkündür. Şübhə yoxdur ki, Ulu Öndərin Azərbaycana təmənnasız, fədakarcasına xidmət nümunəsinin ən böyük, ən inanılmış davamçısı Prezident İlham Əliyevdir.

→ 10

## Mehriban xanım Əliyevanın milli maraqlara əsaslanan çoxşaxəli fəaliyyəti Heydər Əliyev ideyalarına sadiqlik nümunəsidir

**Tahir Budaqov:**

- Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Yeni Azərbaycan Partiyası Sədrinin birinci müavini, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın fəaliyyəti milli-mənəvi dəyərlərə, dövlətçilik maraqlarına əsaslanır və xalqımız tərəfindən olduqca yüksək dəyərləndirilir.

Xüsusi qeyd etmək lazımdır ki, Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti Heydər Əliyev siyasətinin uğurla davam etdirilməsi, onun əbədiyaşar ideyalarının gerçəkləşdirilməsi baxımından böyük əhəmiyyətə malikdir.

Mehriban xanım Əliyeva bu zamana qədər gördüyü işlərlə Heydər Əliyev ideyalarına, milli və bəşəri dəyərlərə sadiqlik nümunəsi göstərib. O, milli maraqlarla ümumbəşəri dəyərlərin vəhdətini yaradır, ənənələrlə müasir dəyərlərin ahəngini təmin edir, xalqın ali mənafeyinin, dövlətin strateji maraqlarının qorunmasına töhfələr verir. Mehriban xanım Əliyevanın rəhbərliyi ilə görülən işlər təkcə Azərbaycan reallıqlarının dünyaya təqdim olunmasına, milli-mənəvi dəyərlərimizin qorunmasına xidmət etmir, eyni zamanda bəşəriyyətin tərəqqisinə, sivilizasiyalararası dialoqun təmin olunmasına yönəlik mütərəqqi ideyaların təbliğinə və təşviqinə istiqamətlənmişdir.

Mehriban xanım Əliyeva Azərbaycanın tərəqqisində, beynəlxalq müstəvidə nüfuzunun artmasında, strateji hədəflərin reallaşdırılmasında, milli maraqların qorunmasında xüsusi rol oynayıb və bu gün də ali dəyərlərə əsaslanan missiyasını uğurla davam etdirir.

Birinci xanımın təşəbbüsü ilə bir çox sosial məsələlərin həlli istiqamətində zəruri işlər görülüb. Xüsusilə də keçmiş məcburi köçkünlərə, qaçqınlara, şəhid ailələrinə, müharibə veteranlarına, qazilərə, aztəminatlı ailələrə, erməni vandalizmindən, müharibədən əziyyət çəkən digər kateqoriyadan olan insanlara dəstək göstərilməsi və bu kimi digər addımlar Mehriban xanım Əliyevanın Heydər Əliyev ideyalarına əsaslanan fəaliyyətinin bariz nümunəsidir. Bu eyni zamanda ölkəmizdə həyata keçirilən və mərkəzində insan amilinin, vətəndaşın rifahının dayandığını, sosial ədalət prinsipinin əsas götürüldüyü dövlət siyasətinə böyük dəstəkdir.

→ 11

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Kəlbəcər, Laçın rayonlarına səfəri

# Şərqi Zəngəzurda quruculuq işləri

## Kəlbəcərdə "Soyuqbulaq" Kiçik Su-Elektrik Stansiyasının açılışı olub

Avqustun 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər rayonuna səfər ediblər.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı və birinci xanım "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin 5,3 MVA gücündə olan "Soyuqbulaq" Kiçik Su-Elektrik Stansiyasının açılışında iştirak ediblər.

"Azərenerji" ASC-nin prezidenti Baba Rzayev dövlət başçısı İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya stansiyada görülən işlər barədə məlumat verdi.






Bildirildi ki, Kəlbəcər rayonunun ərazisindən keçən bol sulu Tərtər çayı üzərində yerləşən "Soyuqbulaq" Kiçik Su-Elektrik Stansiyası "Azərenerji" tərəfindən tamamilə yenidən qurulub. Ərazini tərk edən düşmən tərəfindən tamamilə dağıdılan bu stansiyada bütün avadanlıq və yararlı hissələr sökülərək daşınıb, daşınması mümkün olmayan hissələr isə məhv edilib. İşğaldan azad edilən ərazilərin "yaşıl enerji" zonasına çevrilməsi ilə bağlı dövlət başçısının tapşırığına uyğun olaraq, əsasən "Azərenerji" tərəfindən su-elektrik stansiyasının baş suqəbuledici qurğusu, 6 kilometr uzunluğunda derivasiya boru xətti, maşın zalı yenidən qurulub. Stansiyada Avropa istehsalı olan yaşıl sertifikatlı, iki müasir ekoturbin, generatorlar, idarəetmə və avtomatika panelləri quraşdırılıb. Stansiyanın enerjisistemə inteqrasiyası üçün uzunluğu 6 kilometr olan 6 kV-luq kabel xətti çəkilib və eyni zamanda optik kabel xətti ilə də əlaqələndirilib. Ərazidə fors-major hallar üçün ehtiyat dizel generatoru da quraşdırılıb.

Dövlət başçısı "Soyuqbulaq" Kiçik Su-Elektrik Stansiyasını işə saldı.

Qeyd edildi ki, "Soyuqbulaq" Kiçik Su-Elektrik Stansiyası enerjisistemə tam inteqrasiya olunmaqla məsafədən idarəetməyə imkan verən mərkəzləşdirilmiş SCADA sisteminə qoşulub. Stansiyada il ərzində 15,5 milyon kilovat-saat elektrik enerjisi istehsal olunacaq.

## "İstisu" Mineral Sudoldurma Zavodunun tikintisi və "İstisu" Müalicə-İstirahət Kompleksində görülən işlərlə tanışlıq





Avqustun 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər rayonunda "İstisu" Mineral Sudoldurma Zavodunun tikintisi və "İstisu" Müalicə-İstirahət Kompleksində görülən işlər ilə tanış olublar.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Prezidentinin İşlər müdiri Ramin Quluzadə dövlət başçısına və birinci xanıma görülən işlər barədə məlumat verdi.



Bildirildi ki, Kəlbəcər "İstisu" Mineral Sudoldurma Zavodu 1981-ci ildə inşa edilib. Zavod 1991-ci ilin sonlarında fəaliyyətini dayandırıb. Yeni tikiləcək "İstisu" Zavodu 7,8 min kvadratmetr ərazini əhatə edəcək. Müəssisədə ikinövbəli əsasda təxminən 100 nəfər işlə təmin olunacaq. Zavodda Almaniya şirkəti tərəfindən təchiz olunan şüşə və plastik qablaşdırma istehsal xətləri fəaliyyət göstərəcək. Şüşə dolum xəttinin nominal gücü saatda 16 min, plastik dolum xəttinin nominal gücü isə saatda 8 min ədəd təşkil edəcək. Aylıq istehsal gücü isə 8 milyon ədədə yaxın olacaq.

"İstisu" Müalicə-İstirahət Kompleksinin layihəsi barədə məlumat verilərkən bildirildi ki, 1927-ci ildə fəaliyyətə başlayan bu sanatoriya keçmiş Azərbaycan SSR-də müttəfiq əhəmiyyətli ikinci böyük kurort hesab edilirdi. Kompleksin ərazisində üç yataq korpusu, bir müalicəvi vanna xidməti binası, bir poliklinika korpusu fəaliyyət göstərirdi. Sovet dönəmində bu kurort-sanatoriya kompleksi ildə 50 min nəfəri qəbul etmək imkanına malik olub. Buraya əsasən həzm sistemi xəstəliklərinin müalicəsi üçün müraciətlər edilirdi.

Bərpa ediləcək "İstisu" Müalicə-İstirahət Kompleksinin ümumi sahəsi 32 min kvadratmetr olacaq. Kompleksdə 145 nömrə, eləcə də 10 kottec yaradılacaq.

Kompleksdəki SPA Mərkəzində isə termal hamam, müalicəvi vanna, həkim otağı, o cümlədən müxtəlif müalicəvi hovuzlar, prosedur otaqları, təzyiqli su terapiyası, masaj, buxar, duz otaqları, istirahət zonaları, gözəllik salonu mövcud olacaq. Burada müxtəlif iaşə obyektləri - restoranlar, uşaq əyləncə mərkəzi, oyun otağı, sportskafe, karaoke otağı, kafeteriya da qonaqlara xidmət göstərəcək.

Qeyd olundu ki, "Aşağı İstisu" mənbəyindən alman mütəxəssislər tərəfindən nümunələr götürülüb, suyun analizi və testi həyata keçirilib. Aparılan analizlər və balneoloji rəylərə əsasən, İstisu təbii mineral suyu fizioloji, metabolik və müalicəvi təsirlərə malikdir. Bu isə mədə-bağırsaq traktının funksional pozğunluqlarının müalicəsi və həzm funksiyasının stimullaşdırılması, yaşlılarda natrium və maye çatışmazlığının, ortostatik tənzimləmə pozğunluqlarının, sidik yollarında infeksiyaların müalicəsi, kalsium oksalat, sistin və sidik turşusu daşlarının profilaktikası və metafilaksisi, uşaqlarda və yeniyetmələrdə diş kariyesinin profilaktikası, eləcə də böyüklər üçün dəstəkləyici təsir baxımından çox faydalıdır.

## Kəlbəcər rayonunda "Çıraq-1" və "Çıraq-2" Kiçik Su-Elektrik stansiyalarının açılışı olub



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 25-də Kəlbəcər rayonunda "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin "Çıraq-1" və "Çıraq-2" Kiçik Su-Elektrik stansiyalarının açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, dövlət başçısına stansiyalarda görülən işlər barədə məlumat verildi.

Bildirildi ki, Kəlbəcər rayonunun qərbində Tərtər çayı üzərində yerləşən 8,33 meqavat gücündə "Çıraq-1" və Qaraarxac çayı üzərində 3,6 meqavat gücündə "Çıraq-2" Kiçik Su-Elektrik stansiyaları "Azərenerji" ASC tərəfindən tamamilə yenidən qurulub.

Qeyd edək ki, 2022-ci ilin iyununda Prezident İlham Əliyevin tikinti işlərinin gedişinə baxış keçirdiyi bu elektrik stansiyaları ən müasir avadanlıqla təchiz olunub. Ərazidə iqlim və relyefin sərt olmağına baxmayaraq, tikinti işləri cədvəldən əvvəl başa çatdırılıb.

Burada çayın 50 faiz təminatı nəzərə alınmaqla ekoloji normanın saxlanılması üçün derivasiya boruları subasardan hündür hissədə quraşdırılıb. Həmçinin sel suları nəzərə alınaraq 1750 metr mütləq yüksəklikdə yerləşən idarəolunan baş suqəbuledici qurğu tikilib, eləcə də 7 kilometr uzunluğunda derivasiya boruları yenidən çəkilib.

"Çıraq-1" və "Çıraq-2" stansiyalarının hər biri üçün maşın zalı tikilib, Avropanın aparıcı şirkətlərinin istehsalı olan müasir ekoturbinlər, generatorlar, idarəetmə, rele mühafizəsi və avtomatika panelləri quraşdırılıb. "Çıraq-1" Kiçik Su-Elektrik Stansiyasının ərazisində yeni 110 kV-luq açıq paylayıcı qurğu inşa edilib. 35 kilometr uzunluğunda 35 kV-luq "İstisu" elektrik verilişi xətti yenidən qurularaq yeni yarımstansiyaya qoşulub, optik kabel xətti çəkilib. Bu yarımstansiya "Çıraq-1", "Çıraq-2" və "Soyuqbulaq" Kiçik Su-Elektrik stansiyalarında istehsal edilən elektrik enerjisinin ölkənin enerjisisteminə ötürülməsi üçün qovşaq funksiyasını daşıyır. Eynilə 3,6 meqavat gücündə "Çıraq-2" Su Elektrik Stansiyasının da baş suqəbuledici qurğu, 3 kilometr uzunluğunda derivasiya boru xətti, maşın zalı yenidən qurulub. Stansiyada bir ədəd Avropa istehsalı olan yaşıl sertifikatlı müasir ekoturbin, generator, idarəetmə və avtomatika panelləri quraşdırılıb. "Çıraq-1" və "Çıraq-2" stansiyaları enerjisistemə tam inteqrasiya edilməklə məsafədən idarəetməyə imkan verən mərkəzləşdirilmiş SCADA sisteminə qoşulub. Hər iki stansiyada ümumilikdə il ərzində 35 milyon kilovat-saata yaxın elektrik enerjisi istehsal olunacaq.

Prezident İlham Əliyev "Çıraq-1" və "Çıraq-2" Kiçik Su-Elektrik stansiyalarını işə saldı.

Qeyd edildi ki, "Çıraq-1", "Çıraq-2" və "Soyuqbulaq" Kiçik Su-Elektrik stansiyalarından əlavə, bu günə kimi Kəlbəcər rayonunda 4,4 meqavat gücündə "Kəlbəcər-1", 6,3 meqavat gücündə "Qamışlı" və 3,4 meqavat gücündə "Meydan" Kiçik Su-Elektrik stansiyaları yenidən qurularaq istismara verilib. Hazırda Kəlbəcər rayonunda beş yerdə ümumi gücü 48,3 meqavat olan kiçik su-elektrik stansiyalarının tikintisinə başlanılıb. Bununla da 2024-cü ilin birinci rübündə Kəlbəcər rayonunda ümumi gücü 75,5 MVt, illik enerji istehsal potensialı 230 milyon kilovat-saat olan 10 kiçik su-elektrik stansiyası mövcud olacaq.



## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Kəlbəcər, Laçın rayonlarına səfəri

# Prezidentin tam nəzarətindədir



## Kəlbəcər rayonunun Zar kəndinin təməli qoyulub







Avqustun 25-də Kəlbəcər rayonunun Zar kəndinin təməli qoyulub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev dövlət başçısına və birinci xanıma kənddə görüləcək işlər barədə məlumat verdi.

Bildirildi ki, Zar kəndində ümumilikdə 855 ailənin məskunlaşması planlaşdırılıb. Yaşayış məntəqəsinin salınması üçün 20 illik perspektiv və həmin müddətdən sonrakı inkişaf nəzərə alınmaqla 243 hektardan çox torpaq sahəsinin ayrılması nəzərdə tutulub. Birinci mərhələdə kəndə 547 ailənin köçürülməsi üçün birmərtəbəli fərdi evlərin inşası planlaşdırılır. Tikiləcək 547 evin 131-i ikiotaqlı, 289-u üçotaqlı, 92-si dördotaqlı, 35-i beşotaqlı olacaq. Burada həmçinin 528 şagird yerlik məktəb, 100 yerlik uşaq bağçası tikiləcək.

Prezident İlham Əliyev Zar kəndinin təməlini qoydu.

Qeyd olundu ki, Zar kəndində əhalinin məşğulluğunun və istirahətinin təmin edilməsi üçün hər cür şərait yaradılacaq, geniş abadlıq və yaşıllaşdırma işləri görüləcək. Burada evlərin və küçələrin işıqlandırılmasında "yaşıl enerji"dən istifadə olunacaq. Dövlət başçısının tapşırıqlarına uyğun olaraq, bütün işlər ən yüksək səviyyədə yerinə yetiriləcək.

Sonra xatirə şəkilləri çəkdirildi.

## Laçın rayonunda "Mişni" və "Alxaslı" Kiçik Su-Elektrik stansiyaları istifadəyə verilib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 25-də Laçın rayonuna səfər ediblər. AZƏRTAC xəbər verir ki, dövlət başçısı Laçın rayonunda "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin "Mişni" və "Alxaslı" Kiçik Su-Elektrik stansiyalarının açılışında iştirak edib.





"Azərenerji" ASC-nin prezidenti Baba Rzayev Prezident İlham Əliyevə görülən işlər barədə məlumat verdi.

Laçın rayonunda Həkəri çayının ən böyük qolu olan Hoçaz çayı üzərində yerləşən və ermənilər tərəfindən tamamilə dağıdılan 14,25 meqavat gücündə "Ağbulaq", 8,25 meqavat gücündə "Mişni" və 6 meqavat gücündə "Alxaslı" Su-Elektrik stansiyaları Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq tam yenidən qurulub. Hazırda "Ağbulaq" Su-Elektrik Stansiyasında artıq son tamamlama işləri aparılır. "Mişni" və "Alxaslı" Kiçik Su-Elektrik stansiyalarında isə işlər başa çatdırılıb.

Qeyd olundu ki, "Mişni" Kiçik Su-Elektrik Stansiyasının yenidən qurulması layihəsi çərçivəsində baş suqəbuledici qurğu, 7,2 kilometr uzunluğunda derivasiya boru xətti və maşın zalı yenidən qurulub. Stansiyada Avropa istehsalı olan yaşıl sertifikatlı iki müasir ekoturbin, generatorlar, idarəetmə və avtomatika panelləri quraşdırılıb. Stansiyanın enerjisistemə inteqrasiyası üçün 25 meqavoltamper gücündə 110/10 kV-luq yarımstansiya tikilib, 18 kilometr uzunluğunda 110 kV-luq elektrik verilişi və optik kabel xətləri çəkilib. Bu yarımstansiya "Mişni" stansiyası ilə yanaşı, "Alxaslı" stansiyasında istehsal edilən elektrik enerjisinin ölkə enerjisisteminə ötürülməsi üçün qovşaq funksiyasını daşıyır. Enerjisistemə tam inteqrasiya edilməklə məsafədən idarəetməyə imkan verən mərkəzləşdirilmiş SCADA sisteminə qoşulmuş "Mişni" Kiçik Su-Elektrik Stansiyasında il ərzində 23 milyon kilovat-saatdan artıq elektrik enerjisi istehsal olunacaq.

Bildirildi ki, "Alxaslı" Kiçik Su-Elektrik Stansiyasının yenidən qurulması layihəsi çərçivəsində baş suqəbuledici qurğu, 4,3 kilometr uzunluğunda derivasiya boru xətti, maşın zalı yenidən qurulub. Stansiyada Avropa istehsalı olan yaşıl sertifikatlı iki müasir ekoturbin, generatorlar, idarəetmə və avtomatika panelləri quraşdırılıb. Stansiyanın enerjisistemə inteqrasiyası üçün "Mişni" Su-Elektrik Stansiyasında tikilmiş 110/10 kV-luq yarımstansiyaya 8 kilometr uzunluğunda 10 kV-luq elektrik verilişi və optik kabel xətləri çəkilib. Enerjisistemə tam inteqrasiya edilməklə məsafədən idarəetməyə imkan verən mərkəzləşdirilmiş SCADA sisteminə qoşulmuş "Alxaslı" Su-Elektrik Stansiyasında il ərzində 17 milyon kilovat-saatdan artıq elektrik enerjisi istehsal olunacaq.

Dövlət başçısı "Mişni" və "Alxaslı" Kiçik Su-Elektrik stansiyalarını işə saldı.

Qeyd edildi ki, "Ağbulaq", "Alxaslı" və "Mişni" stansiyaları ilə yanaşı, bu günədək Laçın rayonunda ümumi gücü 40,5 MVt, illik enerji istehsalı potensialı 120 milyon kilovat-saat olan 5 kiçik su-elektrik stansiyası yenidən qurularaq istismara verilib. Hazırda 4 stansiyanın yenidən qurulması üzrə işlər davam etdirilir. Gələn ilin birinci rübündə artıq Laçın rayonunda ümumi gücü 65,5 MVt, illik elektrik enerjisi istehsal potensialı 194 milyon kilovat-saat olan 9 su-elektrik stansiyası fəaliyyət göstərəcək.

Bildirildi ki, su-elektrik stansiyalarında ekoloji normalar tam qorunur. Bütün layihələr icra edilərkən çay balıqlarının derivasiya borusuna daxil olmasının qarşısının alınması və onların çay ekosistemində saxlanılması məqsədilə xüsusi balıqkeçirici qurğular tikilib. Avropanın yaşıl sertifikatlı avadanlıqlarından istifadə etməklə çay ekosistemi, o cümlədən flora və fauna tam qorunur, çayların məcralarında ekoloji axımdan iki dəfə artıq miqdarda su saxlanılmaqla, aşağı axım zonasının su təminatı, eyni zamanda məcraaltı su ehtiyatının formalaşması təmin edilib. Bununla yanaşı, bu işlər görülərkən meşələrin qırılmasına, qayaların dağıdılmasına yol verilməyib, çay məcralarında hidromorfoloji dəyişikliklər edilməyib. Derivasiya boru xətləri çəkilən zaman beynəlxalq təcrübəyə uyğun xüsusi konstruksiyalardan istifadə edilməklə ətraf mühitə təsirlər minimallaşdırılıb. Su-elektrik stansiyalarının karbon emissiyasının azaldılmasında rolunu təsdiqləmək üçün beynəlxalq sertifikat əldə edilməsi istiqamətində iş aparılır.

Bu layihələrin sosial-iqtisadi əhəmiyyəti barədə məlumat verilərkən qeyd olundu ki, işğaldan azad edilən ərazilərdə 2021-2023-cü illərdə "Azərenerji" ASC-nin icra etdiyi layihələr üzrə 3965 işçinin 2570-i yerli sakinlər olub. Daimi iş yerləri ilə təmin edilmiş 197 nəfərin 170-ni Qarabağ və Şərqi Zəngəzur regionundan olan əhali təşkil edir. "Azərenerji" ASC yerli sakinlərin işlə təminatı üçün tikinti-quraşdırma işlərinə paralel olaraq peşə hazırlığı kursları da təşkil edir. Bu təşəbbüs regionda yeni energetika obyektlərinin tikintisi və istismarında yerli sakinlərin məşğulluğu üçün gələcəkdə də davam etdiriləcək. Bütün elektroenergetika obyektlərində çalışan işçilərin məişət şəraitinin yaxşılaşdırılması üçün mühəndis-yataqxana kompleksləri yaradılıb.

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Kəlbəcər, Laçın rayonlarına səfəri

# Şərqi Zəngəzurda quruculuq işləri

## Laçın Beynəlxalq Hava Limanında aparılan tikinti işləri ilə tanışlıq





Avqustun 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Laçın Beynəlxalq Hava Limanında tikinti işlərinin gedişi ilə tanış olublar.

AZƏRTAC xəbər verir ki, "AzVirt" MMC-nin baş direktoru Kamil Əliyev dövlət başçısına və birinci xanıma hava limanında görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, təməli 2021-ci ildə qoyulan Laçın Beynəlxalq Hava Limanının tikintisinin 2025-ci ildə tamamlanması planlaşdırılır. Hava limanının uçuş-enmə zolağının uzunluğu 3 min metr, eni isə 60 metr olacaq. Hava limanı Qorçu kəndi yaxınlığında dəniz səviyyəsindən 1800 metr hündürlükdə inşa edilir və postsovet məkanında ən yüksək dağlıq ərazidə yerləşən hava limanlarından biri olacaq.

Laçın dağlıq bölgə olduğuna görə ərazinin hamarlanması işləri davam etdirilir. Hazırda uçuş-enmə zolağının, yönəldici yolların, perronun tikiləcəyi ərazilərdə genişmiqyaslı torpaq işləri həyata keçirilir. Aeroportun beynəlxalq standartlara uyğun layihələndirilən terminal binasının sahəsi 5 min kvadratmetrdir və saatda 200 sərnişinə xidmət edə biləcək. Terminal binasında bünövrənin beton işləri tam başa çatdırılıb, metal konstruksiyaların yığılması üzrə işlərin 95 faizi yerinə yetirilib. Terminalın dam örtüyü işlərinə başlanılıb. Hava limanının aeronaviqasiya qülləsi və köməkçi binalarında təməlqoyma işləri görülür.

Qeyd edildi ki, Laçın Beynəlxalq Hava Limanında yaradılacaq şərait ICAO və IATA standartlarına uyğun uçuşların həyata keçirilməsinə imkan verəcək.

Hava limanı Laçın şəhərinə 30, Şuşaya 70, Kəlbəcərə 60 kilometrlik məsafədə yerləşir. Bu hava limanı strateji təyinatı ilə yanaşı, gələcəkdə regionun turizm potensialının inkişafına da imkan verəcək.

Qeyd edək ki, Laçın Beynəlxalq Hava Limanı Prezident İlham Əliyevin işğaldan azad olunan ərazilərdə yol-nəqliyyat strategiyasının vacib elementlərindən birini təşkil edir.

## Kəlbəcər-Laçın avtomobil yolunun 38-ci kilometrliyindən 76-cı kilometrliyinədək olan hissəsində görülən işlərlə tanışlıq







Avqustun 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Kəlbəcər-Laçın avtomobil yolunun 38-ci kilometrliyindən 76-cı kilometrliyinədək olan hissəsində görülən işlərlə tanış olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlət başçısına aparılan işlər barədə məlumat verdi.

Bildirildi ki, inşası sürətlə davam etdirilən 75,8 kilometr uzunluğunda yeni yol mövcud yoldan 32 kilometr qısa olacaq. I və II texniki dərəcəli bu yol ikizolaqlı və dördzolaqlı olmaqla inşa edilir. Yeni yolun üzərində 17 tunelin inşası nəzərdə tutulur. Tunellərin ümumi uzunluğu 13,3 kilometrdir. Bundan başqa, yol üzərində ümumi uzunluğu 4163 metr olan 23 körpü də inşa edilir.

Dövlət başçısına yol üzərində inşa olunacaq T-9 tuneli barədə də məlumat verildi. Qeyd edildi ki, tunelin uzunluğu 224 metrdir. İkizolaqlı tunelin eni 10,6 metrdir.

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Kəlbəcər, Laçın rayonlarına səfəri

# Prezidentin tam nəzarətindədir

## Laçında mehmanxana kompleksinin təməli qoyulub





Avqustun 25-də Laçın şəhərinə yaxın ərazidə inşa ediləcək mehmanxana kompleksinin təməli qoyulub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər.

Azərbaycan Respublikası Prezidentinin İşlər müdiri Ramin Quluzadə dövlət başçısına və birinci xanıma görülən işlər barədə məlumat verib.

Bildirilib ki, Laçının bərpası konsepsiyasında şəhərin turizm potensialı da nəzərə alınaraq ona uyğun infrastruktur yaradılır. Ən müasir səviyyədə inşa olunacaq mehmanxanada rayona səfərə gələnlərin rahatlığı üçün hər cür şərait yaradılacaq. Mehmanxana kompleksi 100 otaqlı hotel binasından və 10 kottecdən, eləcə də kafe və restoranlardan, əyləncə və istirahət mərkəzlərindən ibarət olacaq. Hotel binasında 500 yerlik çoxfunksiyalı tədbir və iclas zalları da qonaqların istifadəsinə veriləcək.

Eyni zamanda mehmanxanada açıq və qapalı hovuz, SPA mərkəzi, boulinq və əyləncə, uşaq əyləncə zonası, qapalı idman zalı, yoqa otağı və açıq havada çoxfunksiyalı meydançalar yaradılacaq. Bir sözlə, yüksək xidmətlərin göstəriləcəyi mehmanxana kompleksi müasir standartlar səviyyəsində inşa olunacaq.

Sonra Prezident İlham Əliyev kompleksin təməlini qoydu.

## Prezident və birinci xanım Laçının sənaye zonasında mebel fabrikinin açılışında iştirak edib, bir sıra müəssisələrdə yaradılan şəraitlə tanış olublar





Avqustun 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Laçın rayonunun sənaye zonasında mebel fabrikinin açılışında iştirak edib, prefabrik modul evlərin istehsalı müəssisəsinin və xırdabuynuzlu heyvanların saxlanılması məntəqəsinin fəaliyyəti ilə tanış olublar.

AZƏRTAC xəbər verir ki, "Bakı Abadlıq Xidməti" MMC-nin baş direktoru Bünyad Qasımov dövlət başçısına və birinci xanıma görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, bərpa və quruculuq işləri istehsal müəssisələrinin yaradılması ilə paralel şəkildə davam etdirilir. Bu işlərdən biri də Laçın rayonunun sənaye zonasında yaradılan mebel fabrikidir. Müəssisədə yataq və qonaq otaqları dəstlərinin, qapıların və digər mebel məhsullarının istehsalı nəzərdə tutulub. Fabrikin illik istehsal gücü 3 min kubmetrdir. Burada Avropa ölkələrinin, Türkiyə və Çinin istehsalı olan avadanlıqlardan, Türkiyə və Rusiyadan alınan xammaldan istifadə olunacaq.

Ardı 6-cı səh.



## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Kəlbəcər, Laçın rayonlarına səfəri

# Şərqi Zəngəzurda quruculuq işləri

## Prezident və birinci xanım Laçının sənaye zonasında mebel fabrikinin açılışında iştirak edib, bir sıra müəssisələrdə yaradılan şəraitlə tanış olublar







*Əvvəli 5-ci səh.*

İstehsal sahələrində ümumilikdə 100 nəfərin işlə təmin olunması nəzərdə tutulub.

Prezident İlham Əliyev mebel fabrikini işə saldı.

Prefabrik modul evlərin istehsalı müəssisəsi ilə tanışlıq zamanı məlumat verildi ki, burada ildə 200 ev hazırlanacaq. Prefabrik evlərə qonaq, mətbəx, yataq otaqları və sanitar qovşaq daxildir. Bu evlərin daş evlərdən üstünlüyü ondan ibarətdir ki, onlar zəlzələyə davamlı və yüksək dayanıqlılıqla yanaşı, ekoloji cəhətdən təmizdir. Həmçinin uzunömürlü və yanğına davamlı olan bu evlərin digər bir üstünlüyü isə qiymətinin daha sərfəli olmasıdır. Bu müəssisədə də 100 nəfər daimi işlə təmin olunub.





Xırdabuynuzlu heyvanların saxlanılması məntəqəsinə baxış zamanı qeyd olundu ki, burada qoyun kəsimi üçün beş, inək kəsimi üçün üç modul tipli avadanlıq quraşdırılıb. Müəssisənin illik istehsal gücü 17 min baş heyvan kəsiminə imkan verir. İstehsal sahəsində kəsim, içalat təmizləmə, soyutma otağı, kiçik hissələrə ayırma, paketləmə konteynerləri yerləşdirilib. Bu müəssisədə 30 nəfər işlə təmin olunacaq.

## Laçın rayonunda "Hoçazfilm" Yaradıcılıq Studiyasının çəkiliş pavilyonunun açılışı olub

Avqustun 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Laçın rayonunda "Hoçazfilm" yaradıcılıq studiyasının çəkiliş pavilyonunun açılışında iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, dövlət başçısına və birinci xanıma pavilyonda yaradılan şərait barədə məlumat verildi.

Bildirildi ki, Qarabağın çoxşaxəli nadir yaradıcılıq məkanı layihəsi olan "Hoçazfilm" studiyası Laçın şəhərində iki inzibati binadan və bir çəkiliş pavilyonundan ibarətdir. Studiyanın adı Laçın rayonunun əsas rəmzlərindən sayılan Hoçaz qayalıqlarının adından götürülüb. Studiya Laçın başda olmaqla, ümumilikdə Qarabağ regionunun işğal və işğaldan sonrakı dövrlərinin salnaməsini yaratmaqda regional audiovizual mərkəz kimi fəaliyyət göstərəcək. Studiya çəkiliş məqsədilə regiona gələn yerli və xarici film istehsalçılarına bölgənin zəngin təbiəti, imkanları ilə bağlı bələdçilik və lokasiya xidmətləri göstərəcək, onları müvafiq avadanlıqla təmin edəcək. Studiya həmçinin yerli və xarici media, dövlət təşkilatları, dövlət və özəl kinostudiyalar ilə əməkdaşlıq əsasında regiondan audiovizual kontent təqdim edəcək.

Diqqətə çatdırıldı ki, çoxşaxəli yaradıcılıq məkanı olan "Hoçazfilm"in perspektiv fəaliyyət istiqamətləri çox genişdir. Bu istiqamətlərə Qarabağ regionunun genişmiqyaslı təbliğatı ilə bağlı layihələrin həyata keçirilməsi, bölgədə keçiriləcək mədəni-kütləvi tədbirlərin işıqlandırılması, Laçında yenidənqurma işlərinin, regionun milli brendlərinin və yerli məhsulların təşviqi, kinoteatr və yaradıcı ittifaqla əməkdaşlıq, gənclər üçün yay məktəbləri, yaradıcılıq atelyeləri, kinematoqrafiya, rəsm kursları və müsabiqələrinin təşkili daxildir. Studiyanın tərkibində "Hoçaz Hotel" və "Hoçaz Kafe" də fəaliyyət göstərəcək.

Məlumat verildi ki, pavilyon texniki təchizat, o cümlədən səs, işıq izolyasiyası baxımından beynəlxalq standartlara uyğundur. Kino sənayesində ən çox tələbat duyulan dekorların hər biri xüsusi olaraq "Hoçazfilm"in sifarişi əsasında hazırlanmış əl işidir. Bütün bunlar kino və digər kommersial çəkilişlər üçün müxtəlif agentliklər və studiyalarla qarşılıqlı faydalı əməkdaşlığın yaradılması baxımından çox əhəmiyyətlidir. Pavilyonda ilkin mərhələdə nadir dekorasiyalar - təyyarə, helikopter, həbsxana, elmi laboratoriya və üçtərəfli yaşıl ekran quraşdırılıb. Kinopavilyonun tələbata uyğun olaraq mütəmadi qaydada yeni dekorlarla zənginləşdirilməsi nəzərdə tutulub.

Həmçinin bildirildi ki, "Hoçazfilm" yaradıcılıq studiyasının ilk layihəsi Azərbaycan Xalq Cümhuriyyətinin ilk hərbi naziri, əslən laçınlı Xosrov bəy Sultanovun həyat və fəaliyyətindən bəhs edən "Qarabağ qubernatoru" bədii-sənədli filmidir. Layihənin məqsədi tarixi paralellər aparmaqla Qarabağ və Zəngəzur ətrafında erməni daşnaklarının və Qafqazda maraqları olan böyük siyasi güclərin həyata keçirdikləri işğalçılıq siyasəti, törətdikləri cinayətlər barədə həqiqətləri dünyaya çatdırmaq, 44 günlük Vətən müharibəsində zəfər qazanmış Azərbaycan xalqının, dövlətçiliyinin əzəmətini, qüdrətini tərənnüm və təbliğ etməkdir.








**Birinci xanım Mehriban Əliyeva:** Kino müharibədən sonra Azərbaycan üçün çox vacibdir.

**Prezident İlham Əliyev:** Xüsusilə indi Qarabağ müharibəsi ilə bağlı, ümumiyyətlə, mövzular çox ola bilər. Müharibənin özü, həm müxtəlif epizodlar, müxtəlif əməliyyatlar.

**Birinci xanım Mehriban Əliyeva:** Əlbəttə.

**Studiyanın əməkdaşı:** Silsilə sənədli filmlərimiz var. Sizin uğurlu siyasətiniz sayəsində 44 günlük müharibə ilə böyük uğur əldə etmişik. Bundan artıq heç nə ola bilməz. İnşallah, yaxşı olacaq.

**Birinci xanım Mehriban Əliyeva:** Amin.

**Prezident İlham Əliyev:** İndi laçınlılar gəlib öz dədə-baba torpağında yaşayırlar. Uğurlar.

**Birinci xanım Mehriban Əliyeva:** Sağ olun.

**Studiyanın əməkdaşı:** Sağ olun.

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Kəlbəcər, Laçın rayonlarına səfəri

# Prezidentin tam nəzarətindədir

## Laçın rayon 2 nömrəli tam orta məktəbi əsaslı təmirdən sonra istifadəyə verilib





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 25-də Laçın rayon 2 nömrəli tam orta məktəbin əsaslı təmirdən sonra açılışında iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı və birinci xanım əvvəlcə Laçından olan sakinlərlə görüşüb qısa söhbət etdilər.

**Kişi sakin:** Anam 46 il burada müəllim işləyib. Biz anam tərəfdən böyük nəsil-kökük.

**Mehriban xanım Əliyeva:** Bura cənnətdir. Nə qəşəng qızdır.

**Balaca qız:** Gedək bizim evimizdə bir çay içək.

**Prezident İlham Əliyev:** Sağ ol, bala, çox sağ ol. Hələ çox gələcəyik. Sağ olun. Sizə cansağlığı və uğurlar.

**Qadın sakin:** Sağ olun.

**Mehriban xanım Əliyeva:** Sağ olun.

Elm və təhsil naziri Emin Əmrullayev məktəbdə yaradılan şərait barədə dövlət başçısına və birinci xanıma məlumat verdi.

Qeyd edildi ki, Laçın şəhər 2 nömrəli tam orta məktəbin binasının layihələndirilməsi və əsaslı təmiri məqsədilə Azərbaycan Prezidenti 2022-ci il sentyabrın 22-də sərəncam imzalayıb. Sərəncama əsasən, ötən ilin dekabrında məktəb binasında bərpa-gücləndirmə və əsaslı təmir işlərinə başlanılıb. Ümumilikdə 510 şagird yerlik məktəbin üçmərtəbəli binasının sahəsi 4550 kvadratmetrdir. Binada 24 yerlik doqquz, 18 yerlik beş və 12 yerlik dörd sinif otağı, 1 informatika, 1 texnologiya kabineti, 3 laboratoriya, 18 yerlik məktəbəhazırlıq otağı və 24 yerlik hərbi hazırlıq kabineti var.

Həmçinin məlumat verildi ki, Azərbaycan Prezidentinin qeyd olunan sərəncamı ilə Laçın rayonunun 176 şagird yerlik Zabux kənd tam orta məktəbi binasının layihələndirilməsi, əsaslı təmiri və bərpasına başlanılıb. Həmin məktəb binasının ümumi sahəsi 1245 kvadratmetrdir. Binada 11 sinif otağı, kimya, fizika laboratoriya otaqları, informatika kabineti, yeməkxana, tibb otağı, akt və gimnastika zalları, hərbi hazırlıq kabineti, kitabxananın yaradılması nəzərdə tutulur.

















## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Kəlbəcər, Laçın rayonlarına səfəri

# Şərqi Zəngəzurda quruculuq işləri Prezidentin tam nəzarətindədir

## Laçın rayonunda Həkəri Balıq Təsərrüfatının açılışı olub

Avqustun 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Laçın rayonunda Həkəri Balıq Təsərrüfatının açılışında iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, dövlət başçısına və birinci xanıma təsərrüfat barədə məlumat verildi.

Bildirildi ki, Qarabağ zonasında ilk nərəyetişdirmə təsərrüfatı olan bu müəssisədə il ərzində 35 ton Kür nərəsi, 1,5 ton çökə və 5 ton forel yetişdiriləcək. Bunun üçün müəssisədə hər birinin uzunluğu 40, eni 3 metr olan açıq tipli 36 beton kanal yaradılıb.

Dövlət başçısına və birinci xanıma nərə balığının yetişdirilməsi və kürünün əldə edilməsi prosesi barədə də məlumat verildi.

Diqqətə çatdırıldı ki, ana balıq kürünün formalaşmasından sonra cinslər üzrə məhsul əldə edilməsi üçün mövsümə uyğun olaraq martdan mayadək nohurlarda, bütün ilboyu isə şirin suyu olan qapalı su təchizatı qurğusunda saxlanılır. Balıqların cinsi təyin edildikdən sonra isə damazlıq sürü müəyyənləşdirilir. Sonrakı mərhələdə balıqların genetik pasportlaşdırılması və çipləşdirilməsi həyata keçirilir. Daha sonra balıq məhsullarının hazırlanması və emalı üçün erkək balıqların ayrılması, dişi balıqlardan kürü istehsalına başlanması prosesi aparılır. Sonda isə körpə balıqların buraxılması, kürü və balıq məhsullarının əldə edilməsi prosesi həyata keçirilir.

Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya məlumat verildi ki, gələcəkdə müəssisənin fəaliyyətinin genişləndirilməsi planlaşdırılır. Belə ki, nərə əti istehsalının ildə 70 tona, kürünün 3 tona, forel ətinin isə 10 tona çatdırılması nəzərdə tutulur.










## Birinci vitse-prezident Mehriban Əliyeva Kəlbəcər və Laçından fotolar paylaşıb







Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram səhifəsində Kəlbəcər və Laçından fotolar paylaşıb.

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "Kəlbəcər və Laçında! Allaha min şükür. 25.08.2023."

# *Sahibə QAFAROVA:* "Belçikalı deputatların yalnız Ermənistana səfər etmələri region ölkələrinə münasibətdə balansı pozur"

**Avqustun 25-də Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Belçika Krallığının xarici işlər, Avropa işləri, xarici ticarət və federal mədəni institutlar naziri Haccə Lhəbibin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə Sahibə Qafarova parlamentlərarası əlaqələri Azərbaycanla Belçika arasında ikitərəfli münasibətlərin əsas komponentlərindən biri adlandırıb.

Hazırda ölkəmizdə və regionda mövcud olan vəziyyət barədə qonağa məlumat verən Milli Məclisin Sədri diqqətə çatdırıb ki, 2020-ci ildə Azərbaycan 44 günlük Vətən müharibəsi nəticəsində öz torpaqlarının Ermənistan tərəfindən 30 il davam edən işğalına son qoyub və ərazi bütövlüyünü bərpa edib. Münaqişə qurbanı olmasına baxmayaraq, məhz Azərbaycan Cənubi Qafqazda uzunmüddətli sülhün və sabitliyin bərqərar edilməsi, Ermənistanla münasibətlərin beynəlxalq hüququn normaları və prinsipləri əsasında normallaşması üçün sülh təşəbbüsü irəli sürüb.

Azərbaycanın öz torpaqlarını işğaldan azad etdikdən sonra həyata keçirdiyi böyükmiqyaslı bərpa və quruculuq işləri barədə məlumat verən Milli Məclisin Sədri deyib ki, hazırda Azərbaycan işğaldan azad olunmuş ərazilərimizdə, o cümlədən Qarabağda və Şərqi Zəngəzurda müasir şəhər və kəndlər tikir. Artıq məcburi köçkünlərimizin öz doğma torpaqlarına qayıtmasını nəzərdə tutan Böyük qayıdış proqramına start verilib. Otuz il ərzində azərbaycanlı məcburi köçkünlərin pozulan hüquqları, onların öz dədə-baba yurdlarından didərgin düşməsinə beynəlxalq ictimaiyyət lazımi diqqəti göstərməyib, hətta bir çox hallarda laqeyd yanaşıb. Bu, ikili standartların bir çox səbəbləri var. Erməni lobbisi və təbliğatı, islamofobiya bu amillər sırasındadır.

Görüşdə Ermənistan tərəfindən Azərbaycan ərazilərinin minalanması haqqında da məlumat verilib. Diqqətə çatdırılıb ki, Ermənistan tərəfindən həyata keçirilmiş kütləvi minalanma işğaldan azad olunmuş ərazilərimizdə yenidənqurma işlərinə ən böyük əngəldir.

Laçın yolu ətrafında Ermənistanın apardığı yalan və uydurma təbliğata diqqət çəkən Milli Məclisin Sədri vurğulayıb ki, Laçın yolu açıq olub və indi də açıqdır. Orada hər hansı blokadadan söhbət belə gedə bilməz. Laçın yolu Azərbaycanın ərazisidir. 2023-cü ilin aprel ayında Azərbaycan Respublikası beynəlxalq hüququn normalarına müvafiq surətdə öz suveren hüququnu həyata keçirərək "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsini qurub. Azərbaycan Xankəndi şəhərinə və ətraf kəndlərə humanitar yüklərin daşınması üçün Ağdam-Xankəndi yolunu təklif edib və bu təklif beynəlxalq səviyyədə də dəstək alıb. Amma təəssüf ki, Ermənistan bu yoldan istifadə etmək istəmir. Qarabağda yaşayan erməni sakinlərin Azərbaycan vətəndaşları olduqlarını bildirən Sahibə Qafarova xatırladıb ki, onların Azərbaycan cəmiyyətinə reinteqrasiyası istiqamətində lazımi addımlar atılıb. Prezident İlham Əliyev də dəfələrlə deyib ki, Qarabağda yaşayan ermənilər bizim vətəndaşlarımızdır və Azərbaycan vətəndaşları hansı hüquqlara malikdirlərsə, ermənilər də o hüquqlara malik olacaqlar. Milli Məclisin Sədri bir daha bəyan edib ki, Azərbaycanın Qarabağ bölgəsində "gərgin humanitar vəziyyət"in yaranması, bölgədə yaşayan erməni milliyyətli sakinlərin guya ərzaq və dərman çatışmazlığı ilə üzləşməsi barədə Ermənistan tərəfindən irəli sürülən absurd iddialar beynəlxalq ictimaiyyəti çaşdırmağa yönələn və Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini hədəf alan manipulyasiyadan başqa bir şey deyil.

Sahibə Qafarova görüşdə həmçinin Belçika parlamentində son 3 ildə Azərbaycanla bağlı qəbul olunmuş 5 birtərəfli və qərəzli qətnaməni kəskin tənqid edərək vurğulayıb ki, bu qətnamələr regionumuzdakı vəziyyəti düzgün əks etdirmir. O, eyni zamanda belçikalı deputatların yalnız Ermənistana səfər etməsinin region ölkələrinə münasibətdə balansı pozduğunu bildirib.

Azərbaycan parlamentində olmaqdan məmnunluğunu bildirən Haccə Lhəbib regiona, o cümlədən ölkəmizə səfərinin məqsədləri və keçirdiyi görüşlər barədə məlumat verib. Qonaq Azərbaycanla Belçika arasında qarşılıqlı səfərlərin önəmini diqqətə çatdıraraq, bu səfəri çərçivəsində bir çox məsələlər haqqında müzakirələr apardığını bildirib. Belçikalı nazir regionda sülhün və təhlükəsizliyin təmin olunmasının, o cümlədən ərazilərin minalardan təmizlənməsinin vacibliyini vurğulayıb. O deyib ki, ölkəsi yalnız sülhü və bu ərazilərin yenidən bərpasını təşviq etmək niyyətindədir. Haccə Lhəbib vurğulayıb ki, 30 il ərzində bu ərazilərdə çoxlu dağıntılar baş verib.

Qonaq həmçinin ölkəsində siyasi institutların fəaliyyəti, multikulturalizm, gender bərabərliyi və digər məsələlər barədə də məlumat verib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

# QMİ sədri Belçikanın xarici işlər nazirini erməni kilsəsinin revanşizm çağırışları barədə məlumatlandırıb





**Avqustun 24-də Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə Azərbaycanda fəaliyyət göstərən dini konfessiya rəhbərləri ilə birlikdə ölkəmizdə səfərdə olan Belçikanın xarici işlər naziri Haccə Lhəbibi ilə görüşüb.**

QMİ-nin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüş zamanı şeyxülislam din xadimlərinin Uca Yaradan qarşısında daşıdıqları məsuliyyətdən çıxış edərək öz fəaliyyətləri ilə dindən siyasi məqsədlər üçün sui-istifadə olunmasına yol verməmək yönündə səy göstərdiklərini qeyd edib. Vurğulayıb ki, dünyada və bölgədə sülh, əmin-amanlıq və tərəqqi naminə, xalqların dinc birgəyaşayışı yolunda siyasi proseslərə dəstək vermək din xadimlərinin üzərinə düşən vəzifədir.

QMİ sədri qeyd edib ki, Azərbaycan müstəqillik qazandıqdan sonra öz ərazi bütövlüyünün bərpası uğrunda mübarizə aparmaq vəzifəsini həyata keçirdi və 30 ilə yaxın davam edən erməni işğalına 44 günlük Vətən müharibəsində son qoydu. Dövlət rəhbərimizin ali iradəsi, qəhrəman ordumuzun şücaəti ilə xalqımız tarixi ədaləti bərpa etdi. A.Paşazadə Azərbaycan torpaqlarının 30 ilə yaxın erməni işğalında olduğu dövrdə törədilmiş vandalizm aktlarından, Ermənistanda yaşayan azərbaycanlıların etnik təmizləməyə məruz qaldığından, bir milyon insanın öz dədə-baba torpaqlarından zorla çıxarılmasından, qaçqın, məcburi köçkün həyatı sürməyə məcbur qalmasından, Xocalı şəhərində törədilmiş soyqırımından, bu günədək itkin düşmüş 4000 azərbaycanlının taleyinin indiyədək naməlum qalmasından danışıb. Eyni zamanda ərazilərimizdə kütləvi insan məzarlıqlarının davamlı aşkarlanmasından, münaqişə dövründə və üçtərəfli Bəyanatdan sonra ermənilər tərəfindən basdırılan minalar səbəbindən yüzlərlə insanın ölməsi və ya əlil olmasından faktlarla bəhs edib. İşğal dövründə Azərbaycan torpaqlarında dini-mənəvi abidələrə qarşı həyata keçirilmiş vandalizm halları barədə, məscidlərin dağıdılması, həqarət olunması, xristian kilsələrinin mənşəyinin saxtalaşdırılaraq qriqoryanlaşdırılması və s. haqqında geniş məlumat verib.

Şeyxülislam bildirib ki, dünya ictimaiyyəti, siyasilər, beynəlxalq təşkilatlar bu reallıqlara, azad olunmuş ərazilərimizə səfərlər zamanı öz gözləri ilə müşahidə etdikləri həqiqətlərə obyektiv yanaşma sergiləməli, bəşəri ədalət mövqeyindən yanaşmalıdırlar. Etnik təmizləmə, soyqırımı kimi bəşəri cinayətlərin dünyanın heç bir nöqtəsində təkrarlanmaması, insan faciələrinin bir daha baş verməməsi üçün İlahi və insani ədalətin bərqərar olması, subyektiv deyil, obyektiv qiymətləndirmə, dünya ictimaiyyətinin qətiyyətli qınağı olduqca vacibdir.

O, 30 il müddətində Azərbaycanın münaqişənin sülh yolu ilə həlli istiqamətində səylərinə dəstək olaraq dini lider kimi əlindən gələni əsirgəmədiyini, bu məqsədlə 1988-ci ildən etibarən müxtəlif vasitəçilərlə fərqli beynəlxalq müstəvilərdə dəfələrlə erməni kilsəsinin rəhbərləri ilə görüşdüyünü, qonşu xalqlar arasında sülhün əldə olunmasına nail olmaq yönündə davamlı səy göstərdiyini deyib. Həmçinin dünya ictimaiyyətinə, beynəlxalq təşkilat və dini mərkəzlərə müraciətləri xatırladıb.

A.Paşazadə təəssüflə bildirib ki, hazırda erməni kilsəsi revanşizm çağırışlarının önündə gedir: "İstər Eçmiədzin, istər də Kilikiya erməni kilsəsinin rəhbərləri erməni xalqını yenidən müharibəyə ruhlandırırlar, həmçinin Ümumdünya Kilsələr Şurası platformasında xristian təəssübkeşliyindən sui-istifadə edərək anti-Azərbaycan xarakterli sənədlər qəbul etdirmək üçün səy göstərirlər".

QMİ sədri kilsənin fəaliyyətinin siyasiləşməsinin Ermənistan-Azərbaycan arasında sülhün imzalanmasına mane olduğunu və Qarabağda yaşayan ermənilərin Azərbaycana reinteqrasiyasını əngəllədiyini xüsusi qeyd edib. Şeyxülislam deyib ki, Qarabağda yaşayan ermənilərin də tolerant Azərbaycanın multikultural cəmiyyətində öz layiqli yerini tutmasına Azərbaycan dövləti zəmanət verir.

Belçikalı nazir Haccə Lhəbibi Azərbaycanda müxtəlif dini mənsubiyyətli insanların belə bir harmoniya şəraitində birgə yaşamalarını müşahidə etməkdən məmnun olduğunu bildirib. Fərqli dini mənsubiyyət daşıyıcılarının belə bir mühitdə bir araya gəlməsində şeyxülislamın dəst-xətinin olduğunu vurğulayan belçikalı nazir Cənubi Qafqazda sülhün əldə olunması üçün bu potensialdan istifadə olunmasının, dini liderlərin fəallıqlarını daha da artırmasının vacib olduğunu qeyd edib.

Qəbulda iştirak edən Azərbaycanda fəaliyyət göstərən dini konfessiyaların rəhbər və nümayəndələri qonağı ölkəmizdə hökm sürən dinlərarası anlaşma və əməkdaşlıq mühiti barədə məlumatlandırıblar, dini icmalarının multikultural harmoniya şəraitində öz ibadətlərini həyata keçirdiklərini və dövlətin diqqət və qayğısı ilə əhatə olunduqlarını nümunələrlə belçikalı nazirin diqqətinə çatdırıblar.

# Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində 2023-cü ilin sentyabr ayında vətəndaşların qəbulu cədvəli

| Qəbulu aparan şəxs | Qəbul günü |
|---|---|
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri**<br>Əliyeva Fərəh Şirməmməd qızı | **1** |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri**<br>Əliyev Məhərrəm Abış oğlu | **4** |
| **Azərbaycan Respublikası Prezidentinin mətbuat katibi**<br>Qasımov Azər Məhəmməd oğlu | **5** |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri**<br>Ələsgərov Fuad Murtuz oğlu | **6, 22** |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət nəzarəti məsələləri şöbəsinin müdiri**<br>Həsənov Kərəm Əvəz oğlu | **7** |
| **Azərbaycan Respublikası Birinci vitse-prezidentinin Katibliyinin rəisi**<br>Həsənov Altay Tofiq oğlu | **8, 15, 22** |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri**<br>Əmirov Natiq Ərziman oğlu | **8** |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri**<br>Hacıyev Hikmət Fərhad oğlu | **11** |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri**<br>Nağdəliyev Zeynal Səfər oğlu | **12** |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri**<br>Mövsümov Şahmar Arif oğlu | **13** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri**<br>Məmmədəliyev Yusuf Ülfət oğlu | **14** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri**<br>İsmayılov Süleyman Abbas oğlu | **15** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri**<br>Məcidov Tələt Tahir oğlu | **18** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin Əfv məsələləri sektoru** | **20** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsi** | **21** |
| **Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi**<br>Kərimov Aydın Zöhrab oğlu | **25** |
| **Azərbaycan Respublikası Prezidentinin Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) xüsusi nümayəndəsi**<br>Hüseynov Emin Zamin oğlu | **26** |
| **Azərbaycan Respublikası Prezidentinin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda xüsusi nümayəndəsi**<br>Məmmədov Məsim Əhməd oğlu | **27** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri**<br>Vəliyev Ədalət Məqsəd oğlu | **28** |
| **Azərbaycan Respublikası Prezidentinin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında xüsusi nümayəndəsi**<br>Hacıyev Vahid Rasim oğlu | **28** |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri**<br>Kərimov Gündüz Hacı oğlu | **29** |
| * * * | |
| **Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası**<br>**Azərbaycan Respublikasının Təhlükəsizlik Şurasının katibi**<br>Usubov Ramil İdris oğlu | **29** |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində qəbul olunurlar.**
**Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Zaur Nudirəliyev,79.**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**
**Qəbul saat 14:00-dan başlayır.**
**Əlaqə üçün: Çağrı Mərkəzi - 1111.**

# *Fuad HÜSEYNOV:* "İlkin mərhələdə Zabuxda 223 fərdi evdən ibarət ən müasir standartlara uyğun yeni bir kənd inşa olunub"

"Bu gün biz Azərbaycan xalqı olaraq daha bir əlamətdar, möhtəşəm gün yaşayırıq. Laçın rayonunun ilk kəndi Zabuxa 20 ailə - 88 nəfərdən ibarət köç karvanını yola salırıq".

AZƏRTAC xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi (QMKİDK) sədrinin müavini Fuad Hüseynov deyib.

O bildirib ki, Prezident İlham Əliyevin 2022-ci il sentyabrın 20-də müvafiq sərəncamla Laçın rayonunun Zabux və Sus kəndlərinin layihələndirilməsi və inşası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə həvalə olunub. Bununla 2022-ci il dövlət büdcəsindən işğaldan azad edilmiş ərazilərin yenidənqurma və bərpa vəsaitindən ilkin olaraq 800 min manat vəsait ayrılıb. Həmin yaşayış məntəqələri, minalardan və digər partlamamış hərbi sursatlardan təmizləndikdən sonra bu ilin fevral ayından etibarən inşa işlərinə başlanılıb və avqust ayından Zabux kəndində tamamilə tikinti işləri yekunlaşdırılıb.

"İlkin mərhələdə Zabuxda 223 fərdi evdən ibarət gözəl, ən müasir standartlara uyğun tərzdə yeni bir kənd inşa olunub. Bütün zəruri olan sosial infrastruktur ilə təchiz edilib, kənddə orta məktəb, uşaq bağçası, tibb məntəqəsi yaradılıb, abadlıq işləri aparılıb, gözəl park salınıb, evlər tam olaraq təmir olunub. Enerji, qaz, su təchizatı, telekommunikasiya xətləri, həmçinin yüksək səviyyədə internet, fiber-optik şəbəkəsi yaradılıb", - deyə Fuad Hüseynov əlavə edib.

# Azərbaycana misilsiz sədaqət simvolu



*Əvvəli 1-ci səh.*

Hamılıqla qəbul edilən bu fikrin davamı olaraq məmnunluqla və mütləq şəkildə o da vurğulanmalıdır ki, dahi Heydər Əliyevin Azərbaycana təmənnasız xidmət nümunələrinin digər böyük layiqli və yaradıcı davamçısını Mehriban xanım Əliyevanın timsalında görür və qiymətləndiririk. Azərbaycanın birinci xanımının fəaliyyətində vətənə xidmət insana qayğı, insana qayğı isə vətənə xidmət formasında özünü büruzə verməkdədir. Böyük mənəvi tərkibə malik olan bu yanaşma vətənə təmənnasız xidmət anlayışının yüksək yaradıcılıqla inkişaf etdirilməsi, ona daha humanist məna verilməsi yolu ilə zənginləşdirilməsi nümunəsi sayılmağa layiqdir.

Mehriban xanım Əliyevanın haqqında söhbət açdığımız probleme yaradıcı yanaşmasının kökündə insana qayğı hissinin xüsusi statusa malik olması dayanır. Qeyd etmək yerinə düşər ki, istənilən fəaliyyətin kökündə əxlaqi-mənəvi başlanğıcının üstün iştirakı ona yeni dəyər verir, mənaca zənginləşdirir və yüksəldir. Azərbaycanın birinci xanımının bütün çoxşaxəli fəaliyyətində humanist tərkibin üstün xarakter kəsb etməsi, insana qayğı ünsürləri ilə üzvi vəhdət təşkil etməsi nəinki qabarıq şəkildə müşahidə olunmaqdadır, eyni zamanda vətənə xidmət anlayışının yeni ölçülərini müəyyənləşdirir. Məhz bunun sayəsində vətənə-dövlətə xidmət anlayışı yüksək ictimai-tarixi statusu ilə yanaşı, eyni zamanda zəruri insani parametr kəsb edir.

Sübut etməyə ehtiyac yoxdur ki, dövlətə təmənnasız xidmət apriori olaraq insana xidmət, onun üçün rahat və təhlükəsiz həyatın təmin edilməsi anlamına gəlir. Güclü dövlət olmadan insanın təhlükəsizliyi, eləcə də ictimai rifah təmin edilə bilməz. Klassik mənada dövlətə təmənnasız xidmət insana qayğını məhz bu formada və ardıcıllıqla ictimai dəyər statusuna yüksəltməyi nəzərdə tutur. Lakin dövlətə xidmət - insana qayğı formulunda ikincisinin daha qabarıq şəkildə təzahür etməsi problemin ictimai statusunu insan amili prizmasından həll etməyi hədəfləndirir. Sözügedən problemə qeyd olunan kontekstdə yanaşılması tam cəsarətlə vətənə təmənnasız xidmət anlayışının Mehriban Əliyeva modeli adlandırıla bilər.

Onu da qeyd etməkdə fayda var ki, insana qayğı elementləri son illərdə ölkəmizdə həyata keçirilən siyasətin ümumi mənasını və istiqamətini təyin edən əsas amillərdən biri olaraq müşahidə edilməkdədir. Dövlət siyasətində sosial yönümün güclənməsi, ictimai rifahın yüksəlməsi naminə ciddi nəticələrlə müşayiət olunan islahatların həyata keçirilməsi, insanların həyatında müsbət meyillərin artan dinamikası və s. dövlətə təmənnasız xidmət anlayışının insana qayğı elementləri ilə daha da zənginləşməsinin gözəl nümunələridir.

Azərbaycanın birinci xanımı, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın dövlətə təmənnasız xidməti və onun yüksək nəticələri demək olar ki, hər sahədə mütəmadi olaraq görünməkdədir. Ölkəmizin davamlı inkişafını təmin edən Prezident İlham Əliyevin uğurlu siyasətinin möhtəşəm nəticələrində onun iştirak payı kifayət qədər böyük tarixi əhəmiyyət daşıyır. Mehriban Əliyeva vətənə təmənnasız xidmət nümunəsi olan Prezident İlham Əliyevin yanında xalqımızın daim məmnuniyyətlə görmək istədiyi və gördüyü ictimai və dövlət xadimidir.

## Xeyirxahlıq simvolu

Müstəqil Azərbaycan dövləti yarandıqdan sonra yeni cəmiyyətin özünəməxsus ənənələrinin formalaşması müasir tariximizin ayrılmaz tərkib hissəsini təşkil edir. Hesab edirəm ki, insanlarımız yeni Azərbaycan cəmiyyətinin bir sıra ənənələrinin birinci xanım Mehriban Əliyevanın adı ilə bağlı olduğunu böyük ehtiram hissi ilə qeyd edir. Bunların arasında xeyirxahlığın, insana qayğı və dərin humanizm ənənəsinin yeni cəmiyyətin həyat tərzi kimi formalaşması ayrıca qeyd olunmağa layiqdir.

Heydər Əliyevin adını daşıyan fondun təsis edilməsi və Mehriban Əliyevanın rəhbərliyi ilə fəaliyyətə başlaması ölkəmizdə humanizm və xeyirxahlıq anlayışlarının yeni səviyyələrə yüksəlməsinə start verdi. Fondun həyata keçirdiyi çoxsaylı xeyriyyə layihələri onu on minlərlə insanın nicat yeri kimi tanıtmışdır.

Mehriban xanım Əliyevanın xeyriyyəçilik fəaliyyətini fərqləndirən xüsusiyyət onun geniş vüsəti, böyük coğrafi əhatə dairəsi, habelə konkret ailə və ya insanları nəzərdə tutan aksiyaları özündə üzvi surətdə birləşdirə bilməsidir. Buna görə də birinci xanımın xeyriyyəçilik fəaliyyəti özünün miqyası və möhtəşəmliyi ilə əsl xeyriyyəçilik hərəkatını xatırladır.

"Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi ölkəmizin tarixində ən əzəmətli xeyriyyəçilik hərəkatı sayıla bilər. Layihənin uğurla həyata keçirilməsi sayəsində təhsil infrastrukturu əhəmiyyətli dərəcədə yeniləşmək, on minlərlə uşaq yeni müasir məktəblərdə təhsil almaq imkanı qazandı. Qeyd etmək yerinə düşər ki, "Yeniləşən Azərbaycana yeni məktəb" hərəkatı bu gün də davam edir, respublikamızın bütün bölgələrinə yayılaraq ölkəmizin təhsil tarixinin silinməz səhifəsini təşkil edir.

Mehriban Əliyevanın təşəbbüslərinə bir qayda olaraq yüksək insani hisslərlə yanaşı, dərin ictimai məna xasdır və bu da həmin təşəbbüslərin ictimai ideal səviyyəsinə yüksəlməsini təmin edir. XXI əsrin əvvəllərindən etibarən Prezident İlham Əliyevin rəhbərliyi altında sürətlə yeniləşən Azərbaycanın təhsil infrastrukturunun ölkənin müasirləşmə strategiyasına uyğunlaşdırılması obyektiv ictimai zərurət xarakteri kəsb edirdi. Birinci xanımın haqqında bəhs edilən təşəbbüsü həmin tarixi zərurətin dərk edilməsinə arxalanır, onun mahiyyətindən irəli gələn siyasətin formalaşmasına əhəmiyyətli dəstək missiyasını yerinə yetirir. Eyni fikirlər Mehriban Əliyevanın təşəbbüskarı və hamisi olduğu digər çoxsaylı layihələrə eyni dərəcədə şamil edilməlidir.

Mehriban xanımın yüksək insani dəyər və ictimai əhəmiyyət kəsb edən humanizmi 44 gün davam edən Vətən müharibəsi və ondan sonrakı dövrdə qazilərimizə şəfa aksiyaları formasında özünü bir daha təsdiq etmişdir. Qarabağın azadlığı uğrunda savaşlarda xəsarət alan igidlərin sağlamlığının bərpa edilməsi ilk növbədə Azərbaycan dövlətinin diqqəti və qayğısı ilə əhatə olunub. Lakin cəmiyyətin də bu həssas problemə biganə qalmaması qazilərimizin sağlamlığının qısa vaxtda və yüksək səviyyədə bərpa olunmasının ictimai mənasını və əhəmiyyətini qat-qat artırır. Bu baxımdan Heydər Əliyev Fondunun Vətən müharibəsi qazilərinə qayğısının, onların sağlamlığının bərpası naminə həyata keçirdiyi aksiyaların genişmiqyaslı missiya ölçüləri kəsb etməsi diqqəti çəkməkdədir.

Mehriban Əliyevanın xeyirxahlığının başlıca ölçüsü konkret vətəndaş, onun problemləri və ehtiyaclarıdır. Bu alicənab insanın sayəsində neçə-neçə vətəndaşımız sağlamlığına qovuşub, şəfa tapıb, üzləşdiyi çətinliklərin məngənəsindən xilas olub. Minlərlə insan Mehriban xanımın timsalında özünün inanılmış, etibarlı və qüdrətli dayağını görür, ona güvənir. Azərbaycanın birinci xanımı ehtiyacı olan hər kəs üçün ümid yeri, pənah ocağıdır. Həmin insanlar Mehriban Əliyevanın timsalında humanizm, qayğıkeşlik və xeyirxahlıq simvolunu görür, ona özlərinin böyük dayağı kimi baxırlar.

Mehriban xanım Əliyevanın şəxsiyyəti və fəaliyyətinin miqyasları Azərbaycanın hüdudlarından kənara çıxdığı kimi, onun humanizmi və insanpərvərliyi də sərhəd tanımır. Dünyanın harasında olmasından asılı olmayaraq çətinliyə düşən insanların ölkəmizin birinci xanımının qayğısı və diqqəti ilə əhatə olunmasına dair saysız-hesabsız nümunələr gətirilə bilər. Azərbaycan dövlətinin ayrı-ayrı ölkələrə dostluq və qardaşlıq yardımları ilə yanaşı, Heydər Əliyev Fondunun və şəxsən Mehriban Əliyevanın təşəbbüsləri əsasında göstərilən humanitar yardımlar xalqımızın humanist və insanpərvər xarakterinin bütün dünyada təbliğinin gözəl və təsirli nümunələridir.

Bu ilin fevral ayında əsrin zəlzələsi fəlakəti ilə üzləşərkən qardaş Türkiyəyə Azərbaycandan yola düşən ilk yardım karvanları xalqımızın qardaşlıq və humanizm duyğularının bariz göstəricisi sayılır. Eləcə də Mehriban xanımın təşəbbüsü ilə zəlzələ bölgəsinə çatdırılan yardımın ölkəmizin qardaşlıq köməyinin mənasını, tutumunu və dəyərini qat-qat yüksəklərə qaldırması diqqətdən yayınmadı.

## Azərbaycan mədəniyyətinin qüdrətli hamisi

Xalqın inkişafının ən mühüm göstəricilərindən biri onun mədəniyyətinin yüksəlişi sayılır. Mədəniyyətin inkişafına göstərilən qayğı nəticə etibarilə milli inkişafın təmin olunması yolunda atılan addım kimi qiymətləndirilir. Müstəqil Azərbaycan dövlətinin qurulmasında və inkişaf etdirilməsində mədəniyyətin, mənəvi dəyərlərin böyük rolunu Ümummilli Lider Heydər Əliyev daim yüksək qiymətləndirirdi. Ulu Öndərin siyasi irsinin layiqli davamçısı Prezident İlham Əliyevin Azərbaycanın inkişafı, dövlətin qüdrətinin artırılması yolunda uğurla həyata keçirdiyi siyasətdə mədəniyyət tərkibinin ayrıca yer tutduğunu görməmək mümkün deyildir.

Qeyd olunanların kontekstində Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın mədəniyyətimizə göstərdiyi misilsiz qayğı, onun sözün həqiqi mənasında hamisi missiyasını öz üzərinə götürməsi əlamətdar hadisə, böyük fədakarlıq nümunəsi kimi qeyd edilməyə bilməz. Diqqəti cəlb edən digər məqam isə birinci xanımın mədəniyyətin inkişafına ardıcıl, kompleks, sistemli yanaşması hesab edilməlidir. Məhz bu konsepsiya sayəsində qədim tarixə və dərin ənənələrə malik olan mədəniyyətimiz müstəqil Azərbaycanın hərtərəfli və dinamik yüksəlişinin əvəzolunmaz amilinə çevrilə bilmişdir.

Prezident İlham Əliyevin düşünülmüş uğurlu siyasətində Azərbaycanın müasirləşməsi həm inkişafın qüdrətli amili, həm də ölkəmizin dünya birliyinə layiqli təqdimatı kontekstində nəzərdən keçirilir. Ölkəmizin inkişaf strategiyasının qeyd olunan ayrılmaz tərkib hissəsinin praktikada həyata keçirilməsinin ən yaddaqalan nümunələri Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyətinin vacib istiqamətini təşkil etməkdədir.

Mehriban xanım Əliyeva, onun rəhbərlik etdiyi Heydər Əliyev Fondu Azərbaycan mədəniyyətinin inkişafına həsr edilmiş onlarca yaddaqalan layihələri ilə mənəvi dəyərlərimizin müasir şəraitdə inkişafına misilsiz töhfə vermişdir və bu gün də verməkdədir. Klassik milli musiqimizin incisi sayılmağa layiq olan muğam sənətinin canlandırılması, layiq olduğu həyata qaytarılması məqsədilə keçirilən muğam müsabiqələri son illərin ən sevilən mədəni layihələri içərisində yer almaqdadır.

Düşünürəm ki, Mehriban xanım Əliyevanın Azərbaycan mədəniyyətinin inkişafına misilsiz qayğısından danışarkən Qarabağın qayıdışı və dirçəlişinin simvoluna çevrilmiş "Xarıbülbül" festivalını xatırlamamaq qeyri-mümkündür. Bu festival Müzəffər Ali Baş Komandan İlham Əliyevin tarixi zəfərinin, Azərbaycanın qələbəsinin, Qarabağın azadlığının və möhtəşəm dirçəlişinin bütün dünya qarşısında ən gözəl təqdimatı adlandırılmağa layiqdir. Festivalın Şuşada keçirilməsi, çoxsaylı xarici qonaqları əhatə etməsi onun siyasi, mədəni və beynəlxalq əhəmiyyətini qat-qat artırır.

Eyni sözlər Şuşada əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan Vaqif Poeziya Günlərinin bərpa edilməsinə şamil oluna bilər. Hər iki möhtəşəm layihə bütün digər xüsusiyyətləri ilə yanaşı, Şuşanın, Qarabağın tarixən Azərbaycana məxsusluğu mesajının ən inandırıcı formada bütün dünyaya çatdırılmasından ibarət olan böyük missiya yükünə malikdir.

Mehriban xanım Əliyevanın Azərbaycan mədəniyyətinin inkişafına verdiyi əvəzsiz töhfənin ayrıca bir istiqaməti tarixi mədəni abidələrimizin bərpa olunaraq həyata qaytarılmasında öz ifadəsini tapmaqdadır. Heydər Əliyev Fondunun birbaşa dəstəyi ilə reallaşdırılan tarixi mədəni abidələrin bərpası layihələri Azərbaycanın zəngin mədəni irsinin qorunması və inkişafının diqqətəlayiq nümunələridir. Bu nümunələr içərisində Şuşada Vaqifin ötən əsrin 70-ci illərində Heydər Əliyevin rəhbərliyi altında ucaldılan abidəsinin bərpa edilməsi nəinki mədəni, habelə dərin siyasi məna kəsb edir.

Azərbaycanın birinci xanımının bilavasitə rəhbərliyi ilə Heydər Əliyev Fondu tərəfindən Qarabağda bərpa edilən dini abidələr, ölkəmizin paytaxtı Bakıdan tutmuş bir sıra regionlarında təmir olunaraq insanların istifadəsinə verilən onlarca məscidlər, məbədlər mənəvi dəyərlərimizin qorunmasının parlaq nümunələri sırasında yer alır. Məhz bu layihələrin sayəsində xalqımız tarixinə, mədəniyyətinə, mənəvi dəyərlərinə daha dərindən qovuşur, mənəvi saflıq, vətənpərvərlik, xalqımıza xas olan digər ali dəyərlər təbliğ olunur.

Milli mənəvi dəyər və sərvətlərimizin qorunması sahəsində Mehriban xanımın müstəsna xidmətlərinin, əslində isə fədakarlıqlarının həqiqi miqyasları və məqsədləri haqqında düşünərkən onun böyük bir tarixi missiyanın ifadəsi olduğunu görməmək və qeyd etməmək doğru olmazdı. Mədəniyyətimizin inkişafına göstərilən qayğının milli hüdudları aşaraq beynəlxalq səviyyəyə çatdırılması, xalqımızın qədim mənəvi dəyərlərinin bütün dünyada təbliği sahəsində müşahidə etdiyimiz layihələr deyilən fikrin həqiqət çəkisini dəfələrlə artırır. Azərbaycana məxsus bir sıra maddi və mənəvi mədəniyyət nümunələrinin UNESCO tərəfindən dünyanın mədəni sərvətləri sırasına daxil edilməsi müstəsna olaraq Mehriban xanımın xidmətləri nəticəsində mümkün olmuşdur. Xarici ölkələrdə Azərbaycan mədəniyyətinin bir sıra parlaq nümayəndələrinin abidələrinin ucaldılması, mədəni irsimizin dünya xalqlarına tanıdılması da Mehriban Əliyevanın həyata keçirdiyi mədəni missiyanın tərkib hissələridir.

Heç şübhə yoxdur ki, Mehriban xanım Əliyevanın bilavasitə təşəbbüsü ilə Azərbaycanda keçirilən çoxsaylı beynəlxalq mədəniyyət festivalları ölkəmizin imicinin formalaşdırılması, Azərbaycanın təbliğatı, habelə onun beynəlxalq nüfuzunun artırılması kimi məqsədlərə xidmət göstərməkdədir. Bütün bunların sayəsində böyük iqtisadi layihələri ilə qlobal iqtisadiyyatın ayrılmaz bir hissəsinə çevrilən Azərbaycan eyni zamanda dünya mədəni həyatının arzuolunan iştirakçısı statusu qazanmağa müvəffəq olmuşdur.

## Xoşməramlı elçi

Gənc müstəqil Azərbaycanın beynəlxalq təbliği onun özünütəsdiqinin və qarşısında dayanan vəzifələrin uğurlu həllinin vacib səbəblərindən biri idi. Zamanında Ulu Öndər Azərbaycanın beynəlxalq əlaqələrinin qurulması naminə kifayət qədər enerji sərf etmiş, ölkəmizi dünya birliyinə layiqincə tanıda bilmişdi. Prezident İlham Əliyevin həmin ənənələri ardıcıl surətdə davam etdirməsinin yüksək nəticələri indi hamıya yaxşı tanışdır. Azərbaycan dövlətinə və xalqına təmənnasız xidmətlərinə görə milyonların dərin rəğbətini qazanmış Birinci vitse-prezident Mehriban Əliyevanın ölkənin beynəlxalq imicinin formalaşması kimi strateji əhəmiyyət daşıyan vəzifələrdən kənarda qalmasını təsəvvür etmək sağlam məntiqin imkanları xaricindədir. Azərbaycan xalqının bu sahədə ondan gözləntisi bütün enerjisi və təcrübəsi ilə ölkəmizin beynəlxalq imicinin formalaşması işinə töhfə verməsi sayıla bilərdi. Təsadüfi deyildir ki, insanlar gümanlarında yanılmadılar. Mehriban Əliyeva beynəlxalq aləmdə Azərbaycanın ən yaxşı təmsilçisi, Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin və onun uğurlu nəticələrinin təbliğatçısı rolunu böyük bacarıqla həyata keçirməyə başladı.

Etiraf edilməlidir ki, istənilən ölkənin beynəlxalq təbliğatının ilkin şərti onun nailiyyətləri, mövcud siyasi hədəfləri, tarixi, mədəniyyəti sayılır. Bu mənada gənc müstəqil dövlət olan Azərbaycanın beynəlxalq təqdimatının yüksək səviyyədə təşkil olunmasına yetərincə əsasların mövcudluğu təkzibolunmaz həqiqət kimi göz önündədir. Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizin dinamik inkişafı, müasirləşməsi, insanların rifahının yaxşılaşması, beynəlxalq əməkdaşlığa və iştirakçılığa hazır olması onun beynəlxalq icmaya təqdimatına əlverişli imkanlar yaradır. Bununla yanaşı, Azərbaycana qarşı çirkli təbliğat tərəfdarlarının mövcudluğu, ölkəmizin reallıqlarının ayrı-ayrı maraqlı və məkrli qüvvələr tərəfindən təhrif edilməsinə dair çoxsaylı cəhdlər gənc dövlətin həqiqətlərinin beynəlxalq birliyin diqqətinə olduğu kimi çatdırılmasının rolunu və məsuliyyətini qat-qat artırır. Bu isə öz növbəsində problemin həllinə daha nüfuzlu, daha təcrübəli və daha miqyaslı xadimlərin cəlb edilməsini şərtləndirir. Başqa sözlə ifadə etsək, Mehriban Əliyevanın Azərbaycanın beynəlxalq təqdimatı kimi xüsusi əhəmiyyət kəsb edən vəzifənin icrasına qoşulması onun uğurunun əvvəlcədən təyin edilməsi nümunəsi sayılmalıdır. Ölkəmiz dünyanın ən uğurlu gənc dövlətlərindən biri hesab edilməsinə görə ilk növbədə titanik səylərinin real nəticələri hamıya bəlli olan Prezident İlham Əliyevə, eləcə də bu gerçəkliyi beynəlxalq icmaya inandırıcı şəkildə çatdırmaqda misilsiz xidmətlər göstərmiş Mehriban Əliyevaya minnətdar olmalıdır.

Mehriban xanım Əliyeva Azərbaycan xalqının dərin hörmət bəslədiyi dəyərli ictimai və dövlət xadimi olmaqla bərabər, həm də beynəlxalq miqyasda yaxından tanınan, yüksək qiymətləndirilən siyasət adamıdır. Onun geniş fəaliyyətinin qlobal miqyasda dərin iz buraxması, bir çox təşəbbüslərinin geniş əks-səda doğurması xalqımızın milli iftixar hissini zənginləşdirən reallıqlar kateqoriyasına aid edilə bilər. Azərbaycanın birinci xanımı və Birinci vitse-prezidenti uzun illər ərzində ölkəmizin beynəlxalq aləmdə böyük və şərəfli elçisi missiyasını yüksək peşəkarlıqla həyata keçirməkdədir.

Mehriban xanım Əliyevanı Azərbaycanın böyük elçisi adlandırarkən mən, əlbəttə, onun bu şərəfli missiyasının hüdudlarını məhdudlaşdırmaq fikrindən uzağam. Mehriban xanım dünyanın ən mötəbər humanitar təşkilatları olan UNESCO və ICESCO-nun xoşməramlı fəxri elçisi kimi həmin qurumların fəaliyyətinin ən parlaq səhifələrinin yazılmasına müstəsna şəxsi töhfə vermişdir. Onun bilavasitə təşəbbüsləri ilə dünyanın bir sıra ölkələrində çoxsaylı mədəni layihələr, xeyriyyəçilik aksiyaları keçirilmiş və keçirilməkdədir. Təmsil olunduğu beynəlxalq təşkilatların Azərbaycanın Birinci vitse-prezidentini ən yüksək mükafatları ilə təltif etməsi ilk növbədə onun əməyinə və xidmətlərinə, eyni zamanda ölkəmizin beynəlxalq əməkdaşlıq töhfələrinə yüksək qiymətin bariz ifadəsidir.

Mehriban xanımın təşəbbüsü ilə Pakistanda inşa edilib pakistanlı uşaqların sərəncamına verilən orta məktəb iki ölkə arasında dostluq tellərinin daha da möhkəmlənməsinə müsbət təsir göstərən amillərdən biri olmuşdur. Təsəvvür etmək çətin deyil ki, həmin məktəbdə təhsil alan yeniyetmələr heç vaxt Mehriban xanımı və ölkəmizi unutmayacaq, Azərbaycanın bu ölkədəki ən sadiq dostları olacaq. Eyni sözləri Mehriban xanımın layihələrinin uğurla həyata keçirildiyi digər ölkələr haqqında da söyləmək mümkündür. Vatikan katakombalarının bərpasına Mehriban xanımın təşəbbüsü sayəsində göstərilən yardımlar dinlərarası və mədəniyyətlərarası dialoqun dərinləşməsinə qoyulan faydalı sərmayə, Azərbaycanın zəngin tolerantlıq ənənələrinin təqdimatının parlaq nümunəsi adlandırılmağa layiqdir.

Bütün sahələrdə olduğu kimi, xoşməramlı elçi missiyası da Mehriban xanım Əliyevanın timsalında böyük ustalıqla, ən başlıcası isə ölkəmiz üçün ən faydalı şəkildə icra olunur. Azərbaycanın tarixi nailiyyətlərində bu missiyanın əhəmiyyətli xüsusi çəkiyə malik olması hamılıqla etiraf olunan reallıq sayılır.

## Azərbaycanı gələcəyə aparan qoşa addımlar

XXI əsrin ikinci onilliyindən başlayaraq Azərbaycan qlobal təşkilatların qiymətləndirmələrində, habelə beynəlxalq müşahidəçilər tərəfindən dünyanın ən uğurlu gənc dövləti statusuna layiq görülmüşdür. Qərəzsiz hər bir insan beynəlxalq ictimai rəydə qəti şəkildə qərarlaşmış bu qiymətləndirmənin həqiqətin doğru və bitkin ifadəsi olduğunun fərqindədir. Sovet imperiyasının süqutundan sonra Ermənistanın Azərbaycana hərbi təcavüzünün, torpaqlarımızın təxminən 20 faizinin işğal edilməsinin, bir milyona yaxın vətəndaşın etnik təmizləmə nəticəsində qaçqın və məcburi köçkün həyatı yaşamağa məhkum edilməsinin, habelə həmin dövrün siyasi təlatümlərinin yaratdığı dərin iqtisadi böhrandan sonra gənc dövlətin qısa zaman içərisində qeyri-adi inkişaf nümunələri nümayiş etdirməsi yalnız möcüzə ilə müqayisə oluna bilər. 2020-ci ildə 30 ilə yaxın davam edən işğalın Azərbaycan Ordusunun qalibiyyətli döyüşləri sayəsində cəmi 44 gün ərzində aradan qaldırılması, təcavüzkar Ermənistanın təslim aktına imza atmağa məcbur edilməsi ölkəmizin imicini yeni şərəfli səhifələrlə daha da zənginləşdirdi. İndi bütün dünya XX əsrin 90-cı illərinin məğlub olmuş, iqtisadi böhran içərisində əzilən Azərbaycanın yerində böyük keçid mərhələsini yaşamış qüdrətli, əzəmətli, müasir, məğrur, gələcəyinə sarsılmaz inam və nikbinliklə baxan Azərbaycan dövlətini görür. Vaxtilə ölkəmizin yuxarıda qeyd edilən iqtisadi statusunu dəqiqliyi ilə dəyərləndirməyə müvəffəq olan reytinq təşkilatları və beynəlxalq ekspertlər indi onun parlaq gələcəyi ilə bağlı proqnozlar hazırlayırlar. Ümid etmək olar ki, təqdim olunan proqnozlar yeni Azərbaycan möcüzələrində özünün hərtərəfli təsdiqini tapa biləcəkdir.

Azərbaycanın uğurlu keçmişini və ondan da parlaq olacağına inandığımız gələcəyini təmin edən səbəblər barəsində çoxsaylı təhlillər aparılıb və bu gün də aparılmaqdadır. Ən əsas amillərin Ulu Öndər Heydər Əliyevin və ölkəmizin müasir uğur və qələbələrinin müəllifi saydığımız Prezident İlham Əliyevin adı ilə əlaqədər olması cəmiyyətimizlə yanaşı, bütün dünyanın birmənalı şəkildə qəbul etdiyi reallıqdır. Eyni zamanda ölkəmizin uğur və şərəf tarixinin yaradılmasına Birinci vitse-prezidentin çoxcəhətli fəaliyyətinin və fədakarlıqlarının misilsiz töhfələr verməsi diqqəti cəlb etməklə yanaşı, xalqımız tərəfindən yüksək qiymətləndirilən digər gerçəklikdir. Mehriban Əliyevanın ölkəmizin əsrarəngiz inkişafına və möhtəşəm qələbələrinin qazanılmasına Prezident İlham Əliyevin ən yaxın silahdaşı və köməkçisi kimi müstəsna töhfələri şərəfli tariximizin parlaq səhifələrindəndir.

Azərbaycan xalqı Prezident İlham Əliyevi və Mehriban Əliyevanı uzun illər çox müxtəlif ictimai situasiyalarda daim bir yerdə görməyə adət edib. Bu birliyin dərin qatlarında mənəvi və siyasi baxışların ayrılmaz vəhdət təşkil etməsi sərrast müşahidəçilərin və məntiqi təhlilin sağlam məhsulu sayıla bilər və sayılmaqdadır. Tam səmimiliklə qeyd edilə bilər ki, Prezident İlham Əliyevin və Mehriban xanımın publik məkanda daim yanaşı olması, vacib dövlət tədbirlərində birlikdə iştirak etməsi sadəcə olaraq mədəni dünyanın qəbul etdiyi davranış modelinə hörmət əlaməti kimi başa düşülə bilməz və düşülməməlidir. Onun daha böyük mənası və ictimai dəyəri dərin birlik, həmrəylik nümunəsi rolunu oynamasında, sarsılmaz etibar və etimadı ifadə etməsindədir. Xalqın düşüncəsində qoşa addımlamaq vahid məqsəd naminə əqidə birliyi, dərin həmrəylik ifadəsi sayılır. Azərbaycan vətəndaşları Prezident İlham Əliyevin və Mehriban Əliyevanın qoşa addımlarını firavan gələcəyin, əmin-amanlığın və növbəti uğurların sınanmış əlaməti olaraq qəbul edir və yüksək qiymətləndirir.

*Mehriban xanım Əliyevanın həyat amalı, tarixi missiyası Ulu Öndər Heydər Əliyevin qurduğu, Prezident İlham Əliyevin uğurla bugünkü yüksəkliklərə ucaltdığı Azərbaycanın xoşbəxt gələcəyi naminə təmənnasız xidmətlər göstərməkdən ibarətdir. Onun dövlətə və Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətə dərindən sədaqəti, humanizmi və insanpərvərliyi, ölkəmizin beynəlxalq təbliğatı sahəsində titanik fəaliyyəti Azərbaycanın uğur formulunun ayrılmaz hissəsidir. Xalqımız onun xidmətlərini minnətdarlıq hissi ilə dəyərləndirir, Azərbaycanın birinci xanımına və Birinci vitse-prezidentinə ən qəlbi hörmət və ehtiramlarını ifadə edir. Mehriban Əliyeva buna layiqdir. Bu, onun zəhməti və fədakarlığı sayəsində qazandığı halal haqqıdır.*

**Əli ƏHMƏDOV,**
***Yeni Azərbaycan Partiyası Sədrinin müavini***

# Mehriban xanım Əliyevanın milli maraqlara əsaslanan çoxşaxəli fəaliyyəti Heydər Əliyev ideyalarına sadiqlik nümunəsidir



## Müsahibimiz Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovdur

*- Tahir müəllim, 2023-cü il Azərbaycan üçün bir çox cəhətdən əlamətdardır. Bütün sahələrdə islahat xarakterli tədbirlər davam etdirilir, ölkəmizin beynəlxalq mövqeyi daha da güclənir, tarixi Zəfərimiz diplomatiya müstəvisində möhkəmləndirilir, Qarabağda və Şərqi Zəngəzurda aparılan nəhəng quruculuq işlərinə paralel olaraq Böyük qayıdış həyata keçirilir və bütövlükdə Azərbaycanın milli gücü artır. Təbii ki, bütün bunlar Heydər Əliyev siyasətinin müasir çağırışlara və milli maraqlara uyğun uğurla davam etdirilməsi sayəsində mümkün olur. "Heydər Əliyev İli" çərçivəsində nəzər yetirdiyimiz bu məsələlərlə əlaqədar nə deyə bilərsiniz?*

- Bu gün qüdrətli Azərbaycan Heydər Əliyev ideyaları əsasında və Prezident İlham Əliyevin rəhbərliyi ilə inamla inkişaf edir. Ulu Öndərin müəyyənləşdirdiyi bütün strateji hədəflər reallığa çevrilir və ardıcıl uğurlar qazanılır. Hazırkı reallıqlar Heydər Əliyev yolunun Azərbaycanın yüksəlişinin əsasını təşkil etdiyini bir daha təsdiqləyir.

Heydər Əliyev Azərbaycan xalqının xilaskarı, müstəqil dövlətimizin qurucusu kimi müasir dövlətçilik tariximizdə özünəməxsus yer tutan böyük şəxsiyyətdir. O, ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə respublikamızın sosial-iqtisadi, elmi-mədəni inkişafına xidmət edən böyük milli-mənəvi və siyasi-ideoloji əhəmiyyətə malik işlər görmüşdür. İlk olaraq Heydər Əliyevin SSRİ dönəmində ölkəmizə rəhbərlik etdiyi 1969-1982-ci illərə nəzər salsaq, qeyd edə bilərik ki, o, respublikanı tənəzzüldən xilas edərək intibah yoluna çıxarmış, olduqca mürəkkəb dövrdə və çətin şəraitdə, Azərbaycanın hələ SSRİ-nin tərkibində olduğu zaman gələcək müstəqilliyinin bünövrəsini yaratmışdır. Ona görə də tarixçilər, siyasətşünaslar və bütövlükdə tədqiqatçılar Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi 1969-1982-ci illəri Azərbaycan SSR tarixində ən parlaq dövr kimi dəyərləndirirlər. Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi də respublikamızın tərəqqisini xüsusi diqqət mərkəzində saxlamışdır. Həmin dövrdə reallaşdırılan layihələr iqtisadi potensialın güclənməsinə, sosial rifahın təmin olunmasına, milli-mənəvi dəyərlərin qorunmasına və ölkəmizə qarşı bir sıra siyasi-ideoloji hücumların dəf edilməsinə xidmət göstərmiş, erməni millətçilərinin məkrli planlarının qarşısı alınmışdır. Ümummilli Liderimiz daha sonra Naxçıvan Muxtar Respublikası Ali Sovetinin Sədri kimi blokada şəraitində olan muxtar respublikanı ağır sosial-iqtisadi vəziyyətdən xilas edərək dirçəlişini təmin etmiş, müstəqillik ideyası əsasında milli tərəqqinin siyasi-ideoloji əsaslarını formalaşdırmışdır. Ulu Öndərin ölkəmizə rəhbərlik etdiyi 1993-2003-cü illər isə Azərbaycanın ən yeni tarixinə sosial-iqtisadi yüksəliş, ictimai-mədəni intibah, siyasi inkişaf və bütövlükdə müstəqil dövlət quruculuğu dövrü kimi həkk olunmuş, böyük Zəfərin təməli qoyulmuşdur.

Haqlı olaraq qeyd etdiniz ki, bu gün Heydər Əliyev ideyaları əsasında həyata keçirilən siyasət nəticəsində Azərbaycanın gücü artır. Bəli, tarixi dəyərlərlə müasir reallıqların vəhdətinə əsaslanan, azərbaycançılıq ideologiyasına və dövlətçilik ideyasına söykənən Heydər Əliyev siyasəti Azərbaycana parlaq nailiyyətlər qazandırır, milli qüdrətimiz artır. Azərbaycan dövləti Heydər Əliyev siyasətini qətiyyətlə davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə tarixi uğurlara imza ataraq strateji məqsədləri gerçəkləşdirir. Azərbaycan Prezidenti ölkənin iqtisadi potensialının, siyasi nüfuzunun artmasını, ikitərəfli və çoxşaxəli münasibətlərinin inkişafını, beynəlxalq mövqeyinin möhkəmlənməsini, xalq-iqtidar birliyinin, milli həmrəyliyin güclənməsini təmin edir. 44 günlük Vətən müharibəsində qazanılan tarixi Zəfər nəinki Azərbaycanın, bütövlükdə regionun qarşısında yeni perspektivlər açmışdır. Bu gün işğaldan azad edilmiş ərazilərdə nəhəng bərpa-quruculuq işləri görülür, Müzəffər Ali Baş Komandan İlham Əliyev ilə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın həmin torpaqlara hər bir səfəri tarixi zəfərimizin əsaslarını möhkəmləndirir, yeni qələbələr üçün zəmin yaradır. Prezident İlham Əliyevin qeyd etdiyi kimi: "Azərbaycanda hərtərəfli inkişaf təmin edilmişdir. Bunun əsas şərti ondan ibarətdir ki, biz Ulu Öndərin yolu ilə gedirik. Onun qoyduğu yol yeganə düzgün yoldur və Azərbaycanın müstəqillik tarixi bunun əyani sübutudur".

*- Yeri gəlmişkən, "Heydər Əliyev İli" çərçivəsində həyata keçirilən tədbirlər də Ulu Öndərin Azərbaycan tarixində müstəsna yerinə və roluna, dövlətçilik tariximizin taleyüklü mərhələlərinə yenidən nəzər salmaq, dahi şəxsiyyətin əbədişayar ideyalarını öyrənmək və bugünkü nailiyyətlərimizin əhəmiyyətini dərindən dərk etmək üçün olduqca önəmlidir...*

- Tamamilə doğrudur, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə 2023-cü ilin ölkəmizdə "Heydər Əliyev İli" elan olunması xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin banisi, Yeni Azərbaycan Partiyasının qurucusu, müdrik dövlət xadimi Heydər Əliyevin müasir dövlətçilik tariximizdə əvəzolunmaz yerinin və rolunun tədqiq olunması baxımından çox əhəmiyyətli olmaqla yanaşı, onun əziz xatirəsinə böyük hörmətin və ümummilli ehtiramın ifadəsidir.

Bilirsiniz ki, "Heydər Əliyev İli" çərçivəsində Azərbaycanda və dünyanın bir sıra ölkələrində müxtəlif tədbirlər həyata keçirilir, Heydər Əliyev irsinə hərtərəfli nəzər salınır, xüsusilə də gənc nəsil Ulu Öndərin əbədiyaşar ideyalarını öyrənməyə təşviq olunur. Qeyd etmək istəyirəm ki, Ümummilli Liderin ideyaları əsasında Azərbaycana tarixi uğurlar qazandıran, onun dövlətçilik irsini yaşadan, xalqın inam və etimadını doğruldan, yeni və müstəqil Azərbaycan quruculuğunu təmin edən Yeni Azərbaycan Partiyası tərəfindən də silsilə tədbirlər - müsabiqələr, aksiyalar, görüşlər, elmi-praktik konfranslar həyata keçirilməkdədir. Bu tədbirlər Heydər Əliyev irsinin öyrənilməsi, Ümummilli Liderin ideyalarının təşviqi ilə yanaşı, Prezident İlham Əliyevin Azərbaycanı tərəqqi və zəfər zirvəsinə yüksəldən siyasətinin təbliği, gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi, milli şüurun gücləndirilməsi və digər istiqamətlərdə böyük önəm daşıyır.

Ümumiyyətlə, Ulu Öndərin ideyalarının təşviqi, zəngin dövlətçilik irsinin öyrənilməsi "Heydər Əliyev İli" ilə məhdudlaşmır, bütün dövrlər üçün aktualdır və Azərbaycanın parlaq perspektivini təmin edən müstəsna amildir. Çünki Ulu Öndərin ideyaları müasir dövlətçiliyimizin sarsılmaz əsaslarını yaradıb və dövlətin siyasi-ideoloji sütunudur.

*- Bu kontekstdə olduqca mühüm məqamlardan biri respublikamızın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə görülən işlərin Heydər Əliyev ideyalarının reallaşmasına müstəsna töhfə olmasıdır. Xüsusilə də Azərbaycanın birinci xanımının rəhbərlik etdiyi Heydər Əliyev Fondunun Ulu Öndərin irsinin təşviqi istiqamətində fəaliyyəti böyük əhəmiyyət daşıyır. Bu barədə nə deyə bilərsiniz?*

- Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Yeni Azərbaycan Partiyası Sədrinin birinci müavini, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın fəaliyyəti milli-mənəvi dəyərlərə, dövlətçilik maraqlarına əsaslanır və xalqımız tərəfindən olduqca yüksək dəyərləndirilir.

Xüsusi olaraq qeyd etmək lazımdır ki, Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti Heydər Əliyev siyasətinin uğurla davam etdirilməsi, onun əbədiyaşar ideyalarının gerçəkləşdirilməsi baxımından böyük əhəmiyyətə malikdir.

Mehriban xanım Əliyeva bu zamana qədər gördüyü işlərlə Heydər Əliyev ideyalarına, milli və bəşəri dəyərlərə sadiqlik nümunəsi göstərib. O, milli maraqlarla ümumbəşəri dəyərlərin vəhdətini yaradır, ənənələrlə müasir dəyərlərin ahəngini təmin edir, xalqın ali mənafeyinin, dövlətin strateji maraqlarının qorunmasına töhfələr verir. Mehriban xanım Əliyevanın rəhbərliyi ilə görülən işlər təkcə Azərbaycan reallıqlarının dünyaya təqdim olunmasına, milli-mənəvi dəyərlərimizin qorunmasına xidmət etmir, eyni zamanda bəşəriyyətin tərəqqisinə, sivilizasiyalararası dialoqun təmin olunmasına yönəlik mütərəqqi ideyaların təbliğinə və təşviqinə istiqamətlənmişdir.

Mehriban xanım Əliyeva Azərbaycanın tərəqqisində, beynəlxalq müstəvidə nüfuzunun artmasında, strateji hədəflərin reallaşdırılmasında, milli maraqların qorunmasında xüsusi rol oynayıb və bu gün də ali dəyərlərə əsaslanan missiyasını uğurla davam etdirir.

Birinci xanımın təşəbbüsü ilə bir çox sosial məsələlərin həlli istiqamətində zəruri işlər görülüb. Xüsusilə də keçmiş məcburi köçkünlərə, qaçqınlara, şəhid ailələrinə, müharibə veteranlarına, qazilərə, aztəminatlı ailələrə, erməni vandalizmindən, müharibədən əziyyət çəkən digər kateqoriyadan olan insanlara dəstək göstərilməsi və bu kimi digər addımlar Mehriban xanım Əliyevanın Heydər Əliyev ideyalarına əsaslanan fəaliyyətinin bariz nümunəsidir. Bu eyni zamanda ölkəmizdə həyata keçirilən və mərkəzində insan amilinin, vətəndaşın rifahının dayandığı, sosial ədalət prinsipinin əsas götürüldüyü dövlət siyasətinə böyük dəstəkdir.

Ümummilli Liderin istər SSRİ dönəmində, istərsə də müstəqillik illərində daim diqqətdə saxladığı məsələlərdən biri erməni yalanlarının ifşası, Azərbaycanın reallıqlarının dünyaya təqdim edilməsi olub. Öz növbəsində Mehriban xanım Əliyeva bu istiqamətdə sistemli işin qurulması və məqsədyönlü fəaliyyətin həyata keçirilməsi üçün ardıcıl addımlar atmışdır. Xüsusilə də onun rəhbərlik etdiyi Heydər Əliyev Fondu bu sahədə önəmli layihələr gerçəkləşdirmişdir. Erməni vandalizminin iç üzünün açılmasında və Xocalı faciəsinin soyqırımı kimi dünyada tanıdılmasında isə fondun xüsusi rolu var.

Yeni mərhələdə Heydər Əliyev Fondu yeni missiya ilə çıxış edir. Xüsusilə də şanlı zəfərimizin ictimai-siyasi, mənəvi-ideoloji və diplomatik müstəvidə möhkəmləndirilməsi ilə əlaqədar zəruri işlər görülür. İşğaldan azad edilmiş ərazilərdə tarixi, dini abidələrimizin bərpası və inşası istiqamətində həyata keçirilən fəaliyyət isə Azərbaycan xalqının qurub-yaratmaq, abad etmək əzmini, bütövlükdə sivil siyasətini və mütərəqqi simasını bütün dünyaya nümayiş etdirir. Eyni zamanda Heydər Əliyev Fondu genişmiqyaslı quruculuq fəaliyyəti ilə xalqımızın ümumbəşəri dəyərlərə, milli, dini və mədəni irsə sonsuz hörmətini ifadə edir. Bu isə Ümummilli Liderimizin tolerantlıq və multikultural dəyərlərə əsaslanan siyasətinin mühüm bir istiqaməti olmaqla yanaşı, Azərbaycanın müsbət beynəlxalq imicinin daha da möhkəmlənməsinə töhfədir.

Bunlarla yanaşı, Heydər Əliyev Fondunun dəstəyi ilə beynəlxalq əhəmiyyətli milli-mədəni tədbirlərin, o cümlədən Qəbələ Beynəlxalq Musiqi Festivalının, Beynəlxalq Muğam Festivalının keçirilməsi, "Xarıbülbül" festivalının, "Vaqif Poeziya Günləri"nin yenidən təşkili xalqımızın zəngin mədəniyyətinin təbliği baxımından müstəsna önəm daşıyır ki, bu da Heydər Əliyev siyasətinə sadiqliyin daha bir nümunəsidir. Çünki Ümummilli Lider Azərbaycan mədəniyyətini, xalqımızın mənəvi dəyərlərini milli sərvətimiz hesab edir, onun qorunub yaşadılmasına və beynəlxalq müstəvidə geniş təbliğ olunmasına böyük önəm verirdi. Ulu Öndər qürurla ifadə edirdi ki, Azərbaycan xalqı zəngin dövlətçilik tarixinə, bəşəri sərvət kimi dəyərləndirilən milli-mənəvi dəyərlərə, unikal mədəni irsə, qabaqcıl təcrübəyə malikdir. Ona görə də xalqımıza məxsus yüksək keyfiyyətlərin dünyada tanıdılması xüsusi bir missiya və milli vəzifədir.

Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyətinin mühüm istiqamətlərindən biri qurucusu Ümummilli Liderimiz Heydər Əliyev olan Yeni Azərbaycan Partiyası çərçivəsində görülən işlərdir. Ulu Öndərin Azərbaycan xalqına ən dəyərli miraslarından olan Yeni Azərbaycan Partiyası milli maraqlara əsaslanan fəaliyyəti ilə ölkəmizə böyük uğurlar qazandırır. Mehriban xanım Əliyevanın partiyanın 2013-cü ildə keçirilmiş V Qurultayında YAP Sədrinin müavini seçilməsi və 2021-ci il mart ayının 5-də baş tutmuş VII Qurultayında partiya Sədrinin birinci müavini təyin olunmasından sonra görülən işlər Yeni Azərbaycan Partiyasının ölkə daxilində və beynəlxalq aləmdə nüfuzunun daha da artmasını, yeni nailiyyətlər qazanmasını təmin etmişdir. Bu gün Prezident, partiyamızın Sədri İlham Əliyevin rəhbərliyi ilə və Birinci vitse-prezident, YAP Sədrinin birinci müavini Mehriban xanım Əliyevanın dəstəyi ilə görülən işlər yeni reallıqlar və çağırışlar fonunda milli hədəflərə çatmağa, eyni zamanda Yeni Azərbaycan Partiyasının qarşısında duran vəzifələri, dövlət mənafelərindən irəli gələn prioritetləri reallaşdırmağa imkan verir.

Göründüyü kimi, Mehriban xanım Əliyeva əzmkar və genişmiqyaslı fəaliyyəti ilə Heydər Əliyev ideyalarının gerçəkləşdirilməsində, Ulu Öndərin zəngin dövlətçilik irsinin yaşadılmasında əvəzsiz rol oynayır.

Xüsusilə qeyd etmək lazımdır ki, dövlət başçısının müvafiq sərəncamları ilə Mehriban Əliyevanın ən yüksək dövlət təltifləri - Heydər Əliyev mükafatı və "Heydər Əliyev" ordeninə layiq görülməsi onun Ulu Öndərin zəngin dövlətçilik irsinə əsaslanan çoxşaxəli fəaliyyətinin real nəticəsidir.

Şübhə yoxdur ki, Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev ideyaları əsasında görülən işlər bundan sonra da müstəqilliyimizin möhkəmləndirilməsinə, milli həmrəyliyin və tarixi Zəfərimizin əsaslarının gücləndirilməsinə və yeni mərhələdə ardıcıl uğurların, o cümlədən yeni qələbələrin qazanılmasına müstəsna töhfə olacaqdır.

***Müsahibəni apardı:***
***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***



# Bizim "Bir İnci" xanım

**Şəxsiyyətin formalaşmasına onun içərisində olduğu mühitin böyük təsiri olduğu kimi, mühitin dəyişməsi, saflaşması, insan və vətəndaş mərkəzli olmasında da şəxsiyyətlərin böyük rolu vardır. Azərbaycan tarixinin bütün dönəmləri fədakarlıq, qəhrəmanlıq və mərdlik simvolu olan, həmçinin milli-mənəvi dəyərlərin, bədii-fəlsəfi təfəkkürün, humanist və demokratik-mədəni ideалların daşıyıcısı və ötürücüsü olan qəhrəmanlar, böyük dövlət xadimləri, görkəmli ziyalılar, ictimai-siyasi fikir adamları ilə zəngin olmuşdur.**

Biz bu gün malik olduğumuz maddi və mənəvi sərvətlərimizlə, elmi və iqtisadi potensialımızla yanaşı, insan kapitalının inkişafına görə də məhz belə şəxsiyyətlərə borcluyuq. Və bütün hallarda onların varlığı hər birimiz üçün qürur mənbəyi olmaqla yanaşı, gələcək nəsillər üçün də xalqımızın birliyi, ölkəmizin bütövlüyü və dinamik inkişafı naminə fəaliyyətin ibrətamiz örnəyi kimi dəyərləndirilməlidir.

Məhz bu bünövrə üzərində formalaşan, bütün bilik və bacarığını xalqımızın milli keçmişi, bu günü və böyük əminliklə qeyd etdiyimiz parlaq gələcəyi arasında tarixi bağların möhkəmlənməsinə, bütün sərvətlərimizə varislik nöqteyi-nəzərindən yanaşaraq, onu gələcək hədəflərimizə doğru çıxdığımız "böyük yol"un möhkəm və sarsılmaz istinadgahına çevrilməsi işinə həsr edən bir müasirimiz də var.

Mübaliğəsiz və qətiyyətlə söyləmək olar ki, bu gün onu hamı tanıyır, istər ölkə daxilində, istərsə də bütün dünyada...

Bu bir həqiqətdir ki, uşaqdan böyüyə hər kəsin ona sevgi və hörmətdən yoğrulmuş böyük və dərin inamı var. O, ilk növbədə sadəliyi ilə hər kəsin qəlbinə yol tapmağı bacarır. Təvazökarlığı və zəhmətsevərliyi ilə geniş təbəqələrin nümayəndələrini öz humanist ideyaları ətrafında birləşdirməyə asanlıqla nail ola bilir.

İnsanların özünə, onu əhatə edən mühitə, orada baş verən proseslərə, cəmiyyət və dövlət həyatına münasibətinin formalaşmasına böyük dərəcədə təsir göstərir.

O, öz həyat devizinin ilk növbədə ləyaqətlə yaşamaq, özünə, öz prinsiplərinə sadiqlik olduğunu bəyan edir. Milli və müasir dəyərləri üzvi şəkildə öz xarakterində birləşdirməklə soykökünə bağlı, həmçinin yeniliyə hər zaman açıq Azərbaycan xalqının multikultural mahiyyətindən doğan yaşam tərzinin təbliğinə yönəlmiş fəaliyyət sərgiləyir.

Mənəvi keyfiyyətlərimiz sırasında xüsusilə seçilən ailə dəyərlərimiz, hələ də möhkəmliyi və hər növ kənar təzyiq və təsirlərə dayanıqlılığı ilə fərqlənən ailə institutumuzun inkişaf etdirilməsi üçün vacib qərarların qəbuluna çalışır.

Həyatımızın bütün sferalarında nəzərdə tutulan proqram və konsepsiyaların sarsılmaz və əsas ideoloji sütunu kimi əksini tapması və qorunması sahəsindəki fəaliyyətləri daim diqqətdə saxlayır.

Genişmiqyaslı və çoxşaxəli tədbirləri nəzərdə tutan təşəbbüsləri ilə özünün və müasir Azərbaycan dövlətinin taleyinə sahiblik hissinin gücləndirilməsinə cavabdehlik daşıyan vətəndaş formalaşdırılması işinə böyük dəstək verir.

"Dərk olunmuş şəxsi məsuliyyətilə öz həyat kitabını yazmağ"ın müasir və ibrətamiz örnəyini yaratmaqla üzərinə götürdüyü xoşməramlı missiyasını şərəflə daşıyır.

Ümummilli Liderimiz Heydər Əliyevin müəyyən etdiyi ideoloji xəttin sonrakı inkişaf dönəmlərində daha da zənginləşməsi, ölkəmizin dövlət və ictimai-siyasi həyatını əhatə etməsinin davamlılığının təmin edilməsi işinə konkret insan talelərinə müsbət təsir göstərən layihələrin reallaşdırılması vasitəsilə də töhfələr verilməsinə nail olur.

Rəhbəri olduğu Heydər Əliyev Fondunun çoxşaxəli fəaliyyətilə müasir Azərbaycan dövləti və xalqının beynəlxalq miqyasda müsbət imicinin və nüfuzunun artırılmasına böyük dərəcədə xidmət edir.

Çox geniş bir coğrafiyada ehtiyacı olanları yardım və qayğı ilə əhatə etməklə ölkələr və xalqlar arasında münasibətləri mərhəmət və şəfqətlə zənginləşdirir, ölkəmizi və onun nailiyyətlərini layiqincə təbliğ edərək onun dostlarının dairəsinin genişlənməsinə çalışır.

Sərhəd tanımayan nəcib təşəbbüsləri ilə bütün dünyada xeyirxahlıq ünvanı kimi çıxış edir.

Azərbaycan dövlətinin və cəmiyyətinin diqqətini ən həssas, dəstəyə-xüsusilə mənəvi - daha çox ehtiyacı olan kəsiminin qaçqın və məcburi köçkünlərin, şəhid və qazi ailələrinin sosial problemlərinin həllinə, onların həyat şəraitinin yaxşılaşdırılmasına yönəldir.

Təhsil, səhiyyə, idman sahəsində ölkə və beynəlxalq səviyyəli tədbirlərin, yarışların, eləcə də bu mövzuda vacib məsələlərin müzakirə olunduğu konfranslara, simpoziumlara evsahibliyi etməklə bu sahədə meydana çıxan problemlərin həllinə kollektiv məsuliyyət formalaşdırılmasına töhfə verir.

Dövlət başçısı cənab İlham Əliyevin qətiyyətli və məqsədyönlü siyasəti nəticəsində əldə edilən böyük Zəfərin nəticələrinin möhkəmləndirilməsi, Qarabağda ədalətin bərpa olunması işini və bu siyasi xətti dəstəkləyən fəaliyyəti təşkil edir. Xüsusilə işğaldan azad olunan ərazilərdə tarixi abidələrimizin, misilsiz memarlıq nümunələrimizin yenidən qurulması və bərpası, şəhər və kəndlərimizin müasir simasının formalaşdırılması, infrastrukturun inkişafı üçün yorulmadan çalışır.

Qarabağın incisi Şuşa şəhərində gedən abadlıq və quruculuq işlərində yaxından iştirak edir, bu müqəddəs məkanın dünyanın mədəniyyət paytaxtlarından biri kimi tanınması üçün əzmlə səy göstərir, mədəniyyət diplomatiyası vasitəsilə ölkənin xarici siyasətində əhəmiyyətli rola malik fəaliyyət sərgiləyir.

Təsadüfi deyildir ki, o, zəngin mənəvi keyfiyyətlərinə, insanpərvərlik, şəfqət və mərhəmət rəmzinə çevrilmiş fəaliyyətinə, yüksək ideallar naminə ən müxtəlif təbəqələrin nümayəndələrini səfərbər etmək bacarığına və yorulmaz əməyinə görə həm ölkəmizdə, həm də beynəlxalq aləmdə yüksək titullara və mükafatlara layiq görülməkdədir.

Bütün bunlara rəğmən, ən böyük mükafatı xalqının sevgisi, inamı və etimadı olan bir şəxsiyyət kimi o, bu gün hər zaman olduğundan daha çox etimadı doğrultmağa çalışır.

Avropa və Asiya ölkələrində, Türk və İslam dünyasında ikitərəfli və çoxtərəfli formatlarda mövcud və mümkün müstəvilərdə öz birləşdirici və sülh quruculuğu sahəsində fəaliyyətini əzmlə genişləndirir.

Şəxsiyyətinin miqyası, qətiyyətli xarizması ilə yanaşı, zərifliyindən doğan "yumşaq güc" vasitəsilə bütün sədləri aşmağın mümkünlüyünü hamıya və hər kəsə sübut edir.

Bütün bağlı qapıları "mərhəmət və sevginin gücü ilə açmağa" qadir olduğunu əyani şəkildə ortaya qoyur.

Onu xalqımıza sevdirən sadəlik, xeyirxahlıq, mərhəmət rəmzi olmaqla bəşəri və humanist dəyərləri daim təbliğ edir.

Bir sözlə, hər kəsin - ilk növbədə "Bizim Mehriban"ı olmaqda davam edir.

Mən isə bu əlamətdar gündə "Bizim Bir İnci Xanım"ı doğum günü münasibətilə ürəkdən təbrik edir, daim Uca Tanrının himayəsində olmasını arzulayıram.

***Bahar MURADOVA,***
***Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü, siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Mənəviyyat zirvəsində

**Hər bir şəxsi həm həyata bağlayan, həm də insanlara sevdirən amillər ilk növbədə onun əməlləri və mənəvi dünyasıdır. Həyatın ən böyük reallıqlarından biri də odur ki, məhz yüksək mənəvi keyfiyyətlərə malik olan, nəcib işləri ilə fərqlənən insanlar hər zaman cəmiyyətdə dərin hörmət və ehtiramla qarşılanıblar.**

Azərbaycanın Birinci-vitse prezidenti, Heydər Əliyev Fondunun prezidenti xanım Mehriban Əliyeva bu baxımdan nəinki ən mükəmməl nümunələr yaradan, həm də insanlığı yüksək mənəvi keyfiyyətlərlə zənginləşdirən şəxsiyyətlərdəndir.

Bioqrafiyasına nəzər salanda görürük ki, siyasi və ictimai xadim kimi Mehriban Əliyevanın fəaliyyəti əhatəli və genişspektrlidir. Əmək fəaliyyətinə həkim kimi başlayan Mehriban Əliyeva 1995-ci ildən Azərbaycan Mədəniyyətinin Dostları Fonduna, 2004-cü ildən Heydər Əliyev Fonduna rəhbərlik edir. Mehriban Əliyeva eyni zamanda 2002-ci ildən Azərbaycan Gimnastika Federasiyasının prezidentidir. 2005-2017-ci illərdə Milli Məclisin deputatı kimi fəaliyyət göstərən Mehriban Əliyeva 2017-ci ilin fevral ayından Azərbaycanın Birinci vitse-prezidenti, 2021-ci ilin mart ayından isə Yeni Azərbaycan Partiyası Sədrinin birinci müavini kimi məsul vəzifələri daşıyır. Ölkəmizin birinci xanımı həm də 2006-cı ildən ICESCO-nun xoşməramlı səfiridir. Bu vəzifələr müxtəlif profilli olsalar da, Mehriban Əliyevanın fəaliyyətinin fonunda onların hamısını birləşdirən ortaq dəyərlər var. Bu dəyərlər dövlətə və vətənə layiqli xidmət göstərmək, cənab Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi kursun daha böyük uğurlar qazanmasına layiqli töhfələr vermək və insanlara təmənnasız yaxşılıq etmək kimi mənəvi amallardan ibarətdir.

Əlbəttə, Mehriban Əliyevanın nəcib əməlləri barədə söz açarkən ilk yada düşən onun xeyirxahlığı, yardıma ehtiyacı olanlara arxa durması, maddi və mənəvi dəstək göstərməsidir. Ehtiyacı olanlara kömək etmək, insanlara sevgi ilə yanaşmaq xalqımızın daxili aləmindən, milli ruhundan irəli gəlir. Mehriban Əliyeva da milli ruhun təmsilçisidir. Eyni zamanda o həm özünün şəcərəsindən, həm də Heydər Əliyev ocağından ilham alan yüksək mənəvi genetikanın daşıyıcısıdır. Elə buna görə də Mehriban Əliyevanın insanlara təmənnasız yaxşılığının nəticələri, Heydər Əliyev Fondunun timsalında yaratdığı mükəmməl xeyriyyəçilik institutunun müxtəlif sosial proqramları minlərlə vətəndaşımızın həyatında öz əksini tapıb, onların həyat yolunda sönməyən çıraq yandırıb. Ehtiyacı olanlara fərdi şəkildə kömək göstərməklə yanaşı, respublikamızda uşaq evlərinin, internat məktəblərinin, xəstəxanaların bərpası və tikintisi, talassemiyalı, daun sindromlu və diabetli xəstəliklərdən əziyyət çəkənlər üçün müxtəlif layihələrini həyata keçirilməsi də Mehriban Əliyevanın xeyriyyəçilik fəaliyyətinin bir istiqamətidir. "Diabetli uşaqlara ən yüksək qayğı" və "Talassemiyasız həyat naminə" layihələr neçə-neçə xəstə uşağa şəfa ilə bərabər ümid, inam bəxş edib.

Heydər Əliyev ideyaları ilə silahlanmış Mehriban Əliyevanın fəaliyyətində diqqəti çəkən əsas cəhətlərdən biri də milli-mənəvi dəyərlərimizin qorunmasına və dünyada təbliğinə dəstək verməklə, Azərbaycan həqiqətlərini dünyaya çatdırmaqla dövlətə və xalqa göstərilən layiqli xidmətdir. İstər Heydər Əliyev Fondunun prezidenti, istər Azərbaycan Mədəniyyətinin Dostları Fondunun rəhbəri, istərsə də Birinci vitse-prezident kimi fəaliyyətinin təhlili göstərir ki, milli mədəniyyətimizin qorunması və bəşəriyyətə təbliği, Azərbaycan həqiqətlərinin, 44 günlük Vətən müharibəsindəki zəfərimizin beynəlxalq ictimaiyyətə çatdırılması Mehriban Əliyevanın xalqa xidmət missiyasının səciyyəvi cəhətləridir. Vətən müharibəsi günlərində Azərbaycan ictimaiyyəti Mehriban Əliyevanın timsalında həm də vətəni sevməyin, vətənpərvərliyin nümunəsini gördü.

Azərbaycan Gimnastika Federasiyasının prezidenti kimi Mehriban xanım Əliyevanın Azərbaycan idmanının inkişafında böyük rolu var. 2012-ci ildə "Avroviziya" Mahnı Müsabiqəsinin, 2015-ci ildə I Avropa Oyunlarının, 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunlarının ölkəmizdə yüksək səviyyədə keçirilməsi bu mühüm tədbirlərin Təşkilat Komitəsinin rəhbəri kimi Mehriban Əliyevanın gərgin zəhmətinin, yüksək təşkilatçılıq qabiliyyətinin, ölkə rəhbərinin böyük əminliklə ona həvalə etdiyi vəzifələri layiqincə yerinə yetirməsinin nəticəsi idi.

Mehriban Əliyevanın xalqa xidmət missiyasında 2005-2017-ci illərdə deputatlıq fəaliyyəti xüsusi yer tutur. Üç çağırış Azərbaycan Milli Məclisinin deputatı seçilən Mehriban xanım Əliyeva millət vəkilliyinin də ən gözəl nümunələrinə müəlliflik edib. Nəinki deputat seçildiyi seçki dairəsinin, digər ərazilərin də sosial problemlərinin həllinə töhfə verən Mehriban Əliyeva cəmiyyətimizin dərin sevgisini qazanıb. Onun Milli Məclisin müzakirəsinə təqdim etdiyi qanun layihələri Azərbaycanın parlamentarizm tarixinə həkk olunub. Parlamentlərarası işçi qruplarının sədri kimi Mehriban Əliyeva Azərbaycanın beynəlxalq əlaqələrinin genişlənməsində öz sözünü deyib.

Bir məsələni də xüsusi qeyd etməliyik ki, təşəbbüskarlığı və yüksək təşkilatçılıq bacarığı ilə çoxsaylı uğurlara imza atan Mehriban Əliyeva Azərbaycan qadınlarının ən parlaq nümayəndəsidir. Çünki onun siyasi-ictimai fəaliyyəti təkcə ölkəmizdə deyil, həm də dünyada Azərbaycan qadınının mükəmməl obrazının formalaşmasında müstəsna rol oynayır. Bu baxımdan Mehriban Əliyeva, sözün əsl mənasında, Azərbaycan qadınının işgüzarlığının və vətəninə, ailəsinə sevgisinin rəmzidir. Mehriban Əliyevanın təşəbbüsü ilə mədəniyyətlər və sivilizasiyalararası dialoq və digər istiqamətlərdə həyata keçirilən tədbirlər ölkəmizin hüdudlarından kənarda rəğbətlə qarşılanır və Azərbaycanın siyasətinin daha böyük uğurlar qazanmasında mühüm rol oynayır.

Bütün bunların fonunda 2017-ci ilin fevral ayında Mehriban Əliyevanın Prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycanın Birinci vitse-prezidenti təyin olunması tamamilə məntiqli və xalqımız tərəfindən razılıqla qarşılanan siyasi qərar kimi tarixə düşdü. Mehriban Əliyeva konstitusiyaya əsasən yeni təsis olunmuş bu vəzifəyə ən layiqli namizəd idi və ötən dövrün mənzərəsi göstərir ki, o, öz fəaliyyəti ilə yeni yaradılmış vitse-prezidentlik institutunun dövlət idarəçilik sistemində öz yerini tutmasını təmin edib .

Mehriban xanımın xeyirxah, humanist obrazı xalqımız tərəfindən yüksək qiymətləndirilir, o cümlədən bu misilsiz fəaliyyət sənət adamlarının yaradıcılıq nümunələrində əksini tapır. Yüz minlərlə insanın bu böyük şəxsiyyətə rəğbətini, ehtiramını mən də hələ 2004-cü ildə sözləri Gülnur Aslana məxsus "Mehriban insan" əsərini bəstələməklə ifadə etmişəm.

Öz əməlləri ilə xalqımızın sevgisini və dərin ehtiramını qazanmış Mehriban Əliyeva üçün avqust ayının 26-sı özəl gündür. Belə bir gündə hörmətli Mehriban xanıma təbriklərimizi çatdırır, siyasi və ictimai fəaliyyətində ona müvəffəqiyyətlər arzu edirik.

***Novruzəli ASLANOV,***
***Milli Məclisin deputatı, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti***

# Milli və bəşəri dəyərlərin böyük qoruyucusu



**Dövlətçilik şüurunun yaşadılması milli-mənəvi dəyərlərin qorunmasından keçir. Təsadüfi deyil ki, böyük dövlət xadimi Heydər Əliyev deyirdi: "Hər xalqın öz adət-ənənəsi var, öz milli-mənəvi və dini dəyərləri var. Biz öz milli-mənəvi dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik".**

Milli-mənəvi dəyərlər, adət-ənənələr milli mədəniyyətin bir növü kimi keçmişlə gələcək arasında körpü salır, varislik yaradır. Mənəvi tərəqqiyə yeni yollar açır. Gənc nəslin milli adət-ənənələr ruhunda tərbiyəsi ilə yanaşı, qloballaşma prosesində mədəniyyət sahəsində meydana çıxan yüksək nailiyyətlər də onları zənginləşdirir və gələcək bəşəri inkişafa hazırlayır. Gənclərdə azərbaycançılıq məfkurəsinin, vətəndaşlıq şüurunun formalaşdırılması milli-mənəvi dəyərlərin, adət-ənənələrin, dini-əxlaqi keyfiyyətlərin onlar tərəfindən mənimsənilməsi ilə bilavasitə bağlıdır. Ulu Öndər deyirdi ki, müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycanın dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq.

Xalqımızın milli-mənəvi dəyərlərinin qorunmasında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın müstəsna xidmətləri danılmazdır. Azərbaycanın ictimai-siyasi, mədəni həyatındakı fəaliyyətini nəzərə alaraq onun birinci vitse-prezident təyin edilməsi xalqımızın həyatında müsbət meyillərin daha da inkişaf etməsinə səbəb oldu.

Prezident İlham Əliyev Mehriban Əliyevanın fəaliyyətinin siyasi-mədəni çalarlarını dəyərləndirməklə bir neçə kateqoriyaya ayırır. Bunlar Mehriban xanım Əliyevanın Milli Məclisdə, beynəlxalq təşkilatlarda, Milli Olimpiya Komitəsində, Yeni Azərbaycan Partiyasında uğurlu fəaliyyəti və rəhbərlik etdiyi Heydər Əliyev Fondunun ölkəmizin ictimai-siyasi həyatındakı misilsiz xidmətləridir.

Cənab Prezidentin təsbit etdiyi kateqoriyalar üzrə Mehriban xanım Əliyevanın gördüyü işlərin ayrı-ayrı çalarlarına diqqət etsək, onun siyasi fəaliyyətinin ən vacib komponentini təşkil edən birinci vitse-prezidentlik fəaliyyətinə işıq salmalı olarıq.

Prezident İlham Əliyev Mehriban Əliyevanı Birinci vitse-prezident təyin edərkən onun fəaliyyətinə müxtəlif aspektlərdən və müxtəlif baxış bucağından qiymət verdikdən sonra deyir: "Bax, bu, çoxşaxəli fəaliyyət və eyni zamanda, uğurlu fəaliyyət mənim bu qərarı qəbul etməyimdə əsas rol oynamışdır. Eyni zamanda qeyd etməliyəm ki, Mehriban Əliyeva çox peşəkar, bilikli, təcrübəli, prinsipial, çox xeyirxah bir insandır. Təsadüfi deyil ki, Azərbaycan xalqı ona böyük rəğbət və sevgi ilə yanaşır. Sadaladığım bütün bu amilləri nəzərə alaraq mən bu qərara gəldim və bu gün Mehribanın həyatında yeni dövr başlayır. Əminəm ki, o, bundan sonra da ölkəmizin inkişafına öz dəyərli töhfəsini verəcəkdir".

Həmin dövrdən 6 ildən artıq vaxt keçir. Bu dövrdə Azərbaycan xalqının tarixində və taleyində çox müstəsna hadisələr baş verib. Təbii ki, bu hadisələr içərisində ən vacibi 2020-ci ildə 44 günlük Vətən müharibəsi və tarixi Zəfərimizdir.

Bu yerdə Birinci vitse-prezidentin Vətən müharibəsinin ilk günlərində xalqa müraciətində ifadə etdiyi və hər birimizin ürəyini riqqətə gətirən sözlərini yada salmaq istəyirəm: "Qoy Uca Tanrı hər bir azərbaycanlıya müqəddəs Qarabağ torpağını öpməyi nəsib etsin!" Bu müqəddəs dua və arzu 44 gün ərzində öz təsdiqini tapdı. Doğma Qarabağımız Ali Baş Komandan İlham Əliyevin sarsılmaz iradəsi, müzəffər ordumuzun qəhrəmanlığı, xalqımızın birliyi və həmrəyliyi sayəsində azadlığına qovuşdu. Bu gün isə azad torpaqlarımızda geniş quruculuq işləri aparılır. Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da bu işlərdə yaxından iştirak edir.

## Sözlə əməlin birliyi

"Ölkəmizin və xalqımızın maraqlarını hər şeydən üstün tutacağam!"

Mehriban Əliyeva Birinci vitse-prezident təyin edilərkən söylədiyi bu fikirlər onun əməli fəaliyyətində öz təsdiqini tapdı. Siyasi xadim üçün bu keyfiyyət çox önəmlidir. Mehriban Əliyeva həmin çıxışında söyləyir: "Gündəlik fəaliyyətimizdə insansevərlik, mərhəmət, qarşılıqlı hörmət, mehribançılıq unudulmamalıdır. Əksinə, məhz bu mənəvi dəyərləri uca tutaraq ən yüksək qələbələr əldə etmək, ən böyük zirvələrə qalxmaq olar. Mən sizi əmin edirəm ki, gələcək fəaliyyətimi məhz bu prinsiplər əsasında qurmağa çalışacağam. Ölkəmizin və xalqımızın maraqlarını hər şeydən üstün tutacağam, Azərbaycana layiqincə xidmət etməyə çalışacağam".

Bu gün Mehriban Əliyeva söylədiyi fikirləri uğurla həyata keçirir. Azərbaycanın inkişafı və xalqımızın rifahı naminə milli məqsədlərə nail olmaqla bağlı üzərinə nəcib missiya, yeni öhdəliklər götürən Mehriban Əliyeva ötən müddət ərzində bu yüksək və məsul vəzifədə gördüyü işlərlə dövlət başçısı İlham Əliyevin və xalqımızın etimadını layiqincə doğrultmaqdadır. Bütün bunlar xalqa sədaqətlə xidmət etməyin bariz nümunəsidir.

Azərbaycanın Birinci vitse-prezidentinin fəaliyyətində əhalinin həssas təbəqələrinin, o cümlədən keçmiş məcburi köçkünlərin, şəhid ailələrinin, qazilərin problemlərinin həlli xüsusi yer tutur. O, birinci vitse-prezident kimi ilk müşavirəsini də qaçqın və məcburi köçkün ailələrinin həyat şəraitinin yaxşılaşdırılmasına həsr etmişdi. Həmin müşavirədən dərhal sonra müvafiq tədbirlər planı hazırlanmış və real işlər başlanmışdı. Qısa müddətdə yüz minlərlə qaçqın və məcburi köçkünün mənzil-məişət şəraiti yaxşılaşdırılmışdı.

## Milli və dini dəyərlərə ehtiram nümunəsi

Azərbaycanın Vətən müharibəsindəki Zəfərindən sonra işğaldan azad olunmuş rayonlarımızın yenidən qurulması və Qarabağın ədəbi-mədəni ənənələrinin bərpası istiqamətində Mehriban Əliyevanın təşəbbüsləri onun Vətən sevgisinin növbəti təcəssümü oldu. Məhz Mehriban xanım Əliyevanın təşəbbüsü ilə "Xarıbülbül" Musiqi Festivalının Şuşada təşkil edilməsi Azərbaycanın multikultural dəyərləri ilə örnək bir ölkə olduğunu bütün dünyaya göstərdi. Molla Pənah Vaqifin dağıdılmış muzey-məqbərə kompleksinə Heydər Əliyev Fondu tərəfindən ikinci həyat verilməsi də fondun rəhbəri Mehriban Əliyevanın mədəni irsimizə həssas münasibətinin göstəricisidir.

Şuşa şəhəri işğal altında olduğu müddətdə ermənilər tərəfindən dağıdılmış Aşağı Gövhər ağa, Yuxarı Gövhər ağa və Saatlı məscidləri ilkin layihəyə uyğun olaraq bərpa edilib. Hər üç məscid ölkə əhəmiyyətli tarixi-mədəniyyət abidələri siyahısındadır.

Mehriban Əliyeva işğaldan azad olunan torpaqlarımızdakı müxtəlif dinlərə məxsus abidələrə də eyni münasibətin sərgilənəcəyini bildirib: "Biz dağıdılmış şəhərləri və kəndləri bərpa edəcəyik. Biz orada məktəblər tikəcəyik. Biz yalnız müsəlmanlara deyil, bütün dinlərə məxsus mədəni irsi bərpa edəcəyik".

Vətən savaşından sonra ən mühüm hadisələrdən biri Ali Baş Komandanın işğaldan azad edilmiş bölgələrə səfərləri oldu. Mehriban Əliyevanın Ali Baş Komandan İlham Əliyevlə birlikdə işğaldan azad olunmuş torpaqlara səfərlər etməsi Azərbaycanın qələbəsini dünyaya bəyan edən tarixi məqamlardır. Bu səfərlərlə Birinci vitse-prezident Azərbaycan qadınlarının qəhrəmanlıq və vətənpərvərlik, millətsevərlik, ana yurda, torpağa bağlılığını öz şəxsində dünyaya nümayiş etdirdi. Düşməndən azad olunmuş ərazilərimizdən çəkilmiş ilk görüntülərin xalqımıza çatdırılması və dağıdılmış məscidlərin ziyarət olunması Mehriban xanımın milli dəyərlərimizə yüksək həssas münasibətinin nümunəsi idi.

Vətən müharibəsindəki Zəfərdən sonra Ağdam məscidinin ziyarət olunması, Prezident İlham Əliyevin Məkkədən gətirdiyi "Qurani-Kərim"i Ağdam məscidinə bağışlaması xalqımıza xas yüksək amalların təntənəsi idi. Milyonlarla insanın ürəyində riqqətə və hörmətə səbəb olmuş bu səfərdə Mehriban Əliyeva xalqımızın ən ülvi arzuları ilə bağlı Tanrı qarşısında dua etdi.

Ağdamla yanaşı, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan səfərlərindən sonra Prezident İlham Əliyevin birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva ilə birlikdə Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərinə səfərləri olduqca əhəmiyyətli idi. Dövlət başçısının 2021-ci ilin yanvarında Şuşaya səfəri isə Qarabağın əsl sahibinin kim olduğuna dair bütün dünyaya ünvanlanmış növbəti mesaj idi.

## Böyük dayaq, kimsəsizlərin hamisi

Mehriban Əliyevanın fəaliyyətində sosial məsələlər prioritetdir və bunların sırasında uşaqlara qayğı xüsusi yer tutur. Məsələn, Mehriban Əliyevanın təşəbbüsü ilə hazırlanan və Heydər Əliyev Fondunun reallaşdırdığı "Uşaq evləri və internat məktəblərinin inkişafı" proqramı çərçivəsində ölkə ərazisində 40-dan çox uşaq müəssisəsi əsaslı şəkildə yenidən qurulub, müasir avadanlıqla təchiz olunub, əlavə yardımçı binalar inşa edilib və onların kommunal şəraiti yaxşılaşdırılıb. Həmçinin bu proqram çərçivəsində uşaq evlərində tərbiyə almış, yaşı 18-dən yuxarı olan qızlar üçün yaşayış binaları inşa olunub.

"Mənim arzum odur ki, Azərbaycanda hər bir uşaq xoşbəxt olsun. Ona görə də biz uşaqlarımızı, balalarımızı məhəbbətlə, hörmətlə, mərhəmətlə, diqqətlə böyütməliyik", - deyən Mehriban Əliyeva ölkənin gələcəyi olan hər bir uşağa öz övladı kimi yanaşır. Birinci vitse-prezidentin təşəbbüsü ilə hər il Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı ərəfəsində uşaq evlərinin, internat məktəblərinin sakinləri və xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün şənliklərin təşkili unudulmaz və xoş ənənəyə çevrilib. Hər dəfə belə uşaqlar ən böyük himayədarları olan Mehriban Əliyevanın ətrafına toplaşırlar. Azərbaycanın Birinci vitse-prezidenti uşaqları bağrına basır, onların sevinc və fərəhini bölüşür, səmimi söhbətlər edir.

Heydər Əliyev Fondunun əksər layihələri, istər təhsil sahəsində, istər səhiyyə sahəsində məhz uşaqlara yönəlib. Mehriban Əliyeva bu layihələrə xüsusi can yandırır, ürəklə yanaşır. Azərbaycanın Birinci vitse-prezidenti çıxışlarında bu fikri dəfələrlə vurğulayıb: "Uşaqlar Azərbaycanın sabahıdır, gəlin, onların problemlərinə biganə qalmayaq".

Beləliklə, cəmiyyətdə nəcibliyin, mərhəmət və xeyirxahlığın ali ünvanına çevrilməklə, ümumxalq mənafeləri baxımından bir sıra strateji layihələri qısa müddətdə uğurla gerçəkləşdirən Heydər Əliyev Fondu 19 illik çoxşaxəli fəaliyyətində uşaqlara qayğı və diqqətə xüsusi önəm verir.

Mehriban Əliyeva bildirir: "Hər bir cəmiyyətdə mərhəmət, insanpərvərlik, qayğı kimi hisslər əsas yer tutmalıdır. O cəmiyyətdə ki həm dövlət qurumları, həm vətəndaş cəmiyyəti məhz bu prinsiplər əsasında həm öz həyatını, həm öz fəaliyyətini qurur, demək olar, o cəmiyyət inkişaf etmiş, uğurlu cəmiyyətdir. Mərhəmət təkcə çətinliyə düşən insanlara yardım əlini uzatmaq deyil. Mərhəmət bəzən çətin və məsuliyyətli qərar qəbul etməyi tələb edir. Bir dəfə səhv etmiş insanların bağışlanmaq hüququ var. Bu gün biz yenidən cəmiyyətdə öz yerlərini tutmaları, layiqli həyat yaşamaları üçün onlara şans verməliyik".

Ulu Öndər Heydər Əliyevin humanizm siyasətinin vacib istiqamətlərindən biri cinayət törətmiş, lakin cinayətini etiraf etmiş və peşman olmuş şəxslərə qarşı humanizm göstərilməsi, əfv edilməsi, bağışlanması olub. Məhz bu siyasətin davamı nəticəsində 1995-2023-cü illər ərzində əvvəlcə Ulu Öndər Heydər Əliyev, sonra isə Prezident İlham Əliyev tərəfindən ümumilikdə 69 əfv sərəncamı imzalanıb. Bu dövr ərzində parlamentdə 12 amnistiya qərarı qəbul olunub. Həmin amnistiya qərarlarından 4-ü Mehriban Əliyevanın təşəbbüsü ilə qəbul edilib. Həyata keçirilmiş amnistiya və əfv aktları ilə on minlərlə insan islah edilərək cəmiyyətə inteqrasiya olunub.

Mehriban xanım qalib ölkənin qalib sərkərdəsi, Ali Baş Komandan, Azərbaycan Prezidenti cənab İlham Əliyevin əqidə-məslək yoldaşı kimi bütün məsələlərdə daim onun yanında olub. Mehriban xanım 44 günlük Vətən müharibəsi günlərində xalqımızın bütün təbəqələri ilə birlikdə qələbəyə sevincini, hər həlak olan şəhidə kədərini bildirdi, qazilərə mərhəmətini əsirgəmirdi. "Sizin Mehriban" imzası ilə sosial şəbəkələrdə xalqı Qələbəyə səslədi. Şuşa azad olunan gün cənab Prezidentlə Ulu Öndər Heydər Əliyevin məzarını, Şəhidlər xiyabanını ziyarət etdi. Sonra isə Şuşada möhtəşəm "Xarıbülbül" Musiqi Festivalına rəhbərlik etdi. İlk dəfə 30 ildən sonra "Qarabağ şikəstəsi"ni Cıdır düzündə dinlədi.

Vətən müharibəsi dönəmində Azərbaycan xalqının möhtəşəm həmrəyliyinin dünyaya nümayiş olunması Mehriban xanım Əliyevanın həssas ana qayğısı ilə döyüşən əsgərlərimizi ziyarət etməsi onlara mənəvi güc verdi. 11 noyabr 2020-ci ildə Müzəffər Ali Baş Komandan İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 1 saylı Kliniki Tibbi Mərkəzdə müalicə olunan hərbçilərlə görüşdülər. Bu görüş zamanı Prezident İlham Əliyev bir daha vurğuladı: "Biz bu müharibəni şəhidlərimizin canı-qanı bahasına, hərbçilərimizin rəşadəti hesabına, dövlətimizin siyasəti hesabına qazanmışıq. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Allah sizə şəfa versin! Allah bütün yaralı əsgər və zabitlərimizə şəfa versin!"

Görüşdə iştirak edən Mehriban Əliyevanın böyük həssaslıqla hərbçilərimizin tək-tək səhhəti ilə maraqlanması, rəhbərlik etdiyi Heydər Əliyev Fondunun gücünü səfərbər edərək onların problemlərinin qısa müddətə həll edilməsi üçün bütün tədbirləri görməsi xüsusi qeyd ediləcək məqamlardandır.

## Özəl günlərində şəhid ailələri ilə birlikdə olur

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 2021-ci il avqustun 26-da Abşeron rayonunda şəhid ailələrinə, müharibə əlillərinə və Vətən müharibəsi qəhrəmanlarına mənzillərin və avtomobillərin təqdim olunması mərasimində iştirak etdilər.

Bu dəfə şəhid ailələrinə, müharibə əlillərinə və Vətən Müharibəsi Qəhrəmanlarına 300 mənzil, həmçinin müharibə əlillərinə 50 avtomobil təqdim olundu. Qeyd edək ki, Müzəffər Ali Baş Komandan İlham Əliyev Vətən müharibəsində şəhidlik zirvəsinə ucalanların ailə üzvlərinə, bu haqq savaşımızda şanlı Zəfər qazanan qüdrətli Azərbaycan Ordusunun hərbçilərinə, qazilərinə daim xüsusi diqqət və qayğı göstərir. Bu qəbildən olan vətəndaşlarımızın sosial müdafiəsinin möhkəmləndirilməsi, o cümlədən mənzil, fərdi ev və avtomobillərlə təmin edilməsi istiqamətində həyata keçirilən kompleks tədbirlər bunun bariz nümunəsidir. Xüsusilə qeyd olunmalıdır ki, hazırda dünyada koronavirusun mövcud olmasına və iqtisadi-maliyyə çətinliklərinə baxmayaraq, Azərbaycanda bu işlər uğurla davam etdirilir. Prezident İlham Əliyevin imzaladığı "Vətən Müharibəsi Qəhrəmanları və onların ailə üzvlərinin sosial-məişət şəraitinin yaxşılaşdırılması haqqında" Sərəncam bu prosesin ardıcıl xarakter aldığını göstərir və həmin kateqoriyadan olan vətəndaşların mənzil problemlərinin həllində müstəsna rol oynayır.

Müharibə əlillərinin sosial şəraitinin daha da yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlərdən biri də onların avtomobillərlə təmin olunmasıdır. İndiyədək 7 mindən çox müharibə əlili avtomobillə təmin olunub və bu proses davam edir.

Diqqətə çatdırıldı ki, 1997-2021-ci illərdə şəhid ailələrinin üzvlərinə 10 min 500 mənzil və fərdi ev təqdim olunub. Prezident İlham Əliyevin 2021-ci ilin yanvarında imzaladığı sərəncamla bu sahədə yeni proqramlar təsdiq edilib. 2021-2025-ci illərdə şəhid ailələrinə 11 min mənzil və fərdi ev veriləcək. Postmüharibə dövründə 5 100, bu il 600, ümumilikdə ötən dövrdə 13 900 mənzil və fərdi ev şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə təqdim olunub. Eyni zamanda müharibədən sonra 9 mindən çox insana sosial ödənişlər verilibdir. Yaralı və sağlamlığını itirmiş hərbçilər ən müasir protezlərlə təmin ediliblər. Onlar üçün belə imkan yaradılıb və son nəsil protezlər alınıb.

## Mədəni irsin mühafizəsi

Mehriban xanım Əliyevanın əsas fəaliyyət istiqamətlərindən biri də məhz mədəni irsin mühafizəsidir. Zəngin mədəni irsi olan Azərbaycan xalqının maddi və qeyri-maddi mədəni irsinin mühafizəsi və gələcək nəslə çatdırılması Mehriban Əliyevanın fəaliyyətinin ən vacib komponentini təşkil edir. 44 günlük Vətən müharibəsindən sonra işğaldan azad edilmiş ərazilərimizdə mədəni irsin bərpası Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun əsas prioritet sahəsinə çevrilmişdir. Lakin təkcə sözügedən ərazilərdə deyil, ölkənin digər regionlarında da bu istiqamətdə həssaslıqla mədəni irsin qorunmasına yönəlik tədbirlər davam etməkdədir. Şəki Xan məscidi kompleksinin Heydər Əliyev Fondu tərəfindən bərpa olunması da bu qəbildən olan hadisələrdəndir. 2 dekabr 2022-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva Heydər Əliyev Fondu tərəfindən Şəki Xan məscidi kompleksində aparılmış bərpa işləri ilə tanış olublar. Məlumat üçün qeyd edək ki, bərpa işləri 2021-ci ilin may ayından etibarən həyata keçirilir. Heydər Əliyev Fondu bərpa işləri ilə yanaşı, qazıntılar zamanı aşkar olunan və Şəki xanının nəslinə aid olduğu ehtimal edilən skelet nümunələri üzrə təhqiqatların aparılmasına da dəstək göstərib.

İşğaldan azad olunmuş ərazilərdəki maddi-mədəniyyət abidələrinin intensiv surətdə bərpa edilməsi Mehriban Əliyevanın daimi diqqət mərkəzində olmuşdur. Təsadüfi deyil ki bu ilin may ayında artıq bu qəbildən olan bir neçə mədəniyyət abidəsi bərpa edilərək Azərbaycan xalqının mədəniyyət xəzinəsinə qaytarılmışdır. Bu ilin may ayında Azərbaycan Milli Xalça Muzeyinin Şuşa filialının fəaliyyətinin 31 ildən sonra bərpa edilməsi Azərbaycan mədəniyyətinə möhtəşəm töhfədir. Şuşa şəhərinin mədəni irsinin mühüm tərkib hissəsini təşkil edən Saatlı məscidinin bərpa edilməsi dini dəyərlərimizə olan hörmətin ifadəsidir. Bu il məhz Ulu Öndərin doğum günündə Prezident İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın və ailə üzvlərinin Şuşada Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işlərindən sonra Saatlı məscidinin açılışında iştirak etmələri də rəmzi xarakter daşıyır. Ölkə əhəmiyyətli memarlıq abidəsi sayılan Şuşa Yaradıcılıq Mərkəzinin Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işlərindən sonra açılışı da məhz Mehriban xanımın mədəni irsimizə olan həssas münasibətinin təzahürü kimi dəyərləndirilməlidir.

## Mehriban xanım hərbi formada

Mehriban xanım Əliyeva Vətən müharibəsi başladığı ilk gündən hərbi forma geyinərək cənab Ali Baş Komandanın yanında oldu. Əlbəttə, bu, rəmzi xarakter daşıyırdı. 44 günlük Vətən müharibəsindən sonra cənab Prezident İlham Əliyevlə Qarabağa dəfələrlə etdiyi səfərlər zamanı biz Mehriban Əliyevanı əksər hallarda hərbi formada gördük. 27 sentyabr 2021-ci ildə Bakı şəhərində təşkil edilən yürüşdə ön cərgədə Müzəffər Ali Baş Komandanla birlikdə hərbi formada şəhidlərimizə ehtiram əlaməti olaraq onların fotolarını başlarının üzərində saxlamaqla "Şəhidlər ölməz, Vətən bölünməz!" şüarı ilə irəliləmələri onlara böyük dəyərin təcəssümü idi.

*Bütün bu fəaliyyətlərin, nəcib keyfiyyətlərin məcmusunu xarakterizə edən əsas cəhət isə, əlbəttə ki, Birinci vitse-prezidentin müstəqil Azərbaycan dövlətinin yaradıcısı, Ümummilli Lider Heydər Əliyevin ideyalarının reallaşmasında cənab Prezident İlham Əliyevin ən yaxın silahdaşı olmasıdır. Azərbaycanın işıqlı gələcəyə aparılmasının bu tandemin birgə səyi ilə gerçəkləşəcəyinə böyük ümidlərlə Mehriban xanıma fəaliyyətində uğurlar arzu edirik!*

**Sadiq QURBANOV,**
***Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri***

# Şərəfli xidmət missiyası



"Həyatda hər bir kəsin yerini və taleyini tarix müəyyən edir. Odur ki, nə böyük, nə də kiçik rollar olmur. Öz həyat kitabını yazmağa ancaq sənin şəxsi, dərk edilmiş məsuliyyətin imkan verir. Bu kitabda hər bir kəs özünü şəxsi həyatının və dünyanın qurub yaradıcısı, yaxud dağıdıcısı kimi təcəssüm etdirir. Kimsənsə, elə də olmalısan - bax, budur bizim həyatımız. Ona görə də özgələrin rollarını və obrazlarını gərək öz üzərinə götürməyəsən. Çünki sən də, dünyada yerin də yeganə və bənzərsizdir".

Bu ibrətamiz kəlamların müəllifi Azərbaycanın davamlı inkişafı, dövlətçiliyimizin, milli dəyərlərimizin qorunması istiqamətində misilsiz xidmətlər göstərən, xalqımızın xoşbəxt və firavan yaşamasını həyat kredosuna çevirən Birinci vitse-prezident Mehriban xanım Əliyevadır. Xoşniyyətli əməlləri ilə adını şanlı tariximizə qızıl hərflərlə yazdırmağa müvəffəq olan Mehriban xanımın ömür kitabına yazılanlar həqiqətən də bənzərsizdir.

Son 20 ildə ölkəmizdə qadın hərəkatının geniş vüsət almasında, xanımlarımızın nəcib və xeyirxah məqsədlər naminə sistemli və ardıcıl fəaliyyətinin genişlənməsində Mehriban xanım Əliyevanın xidmətləri xüsusi vurğulanmalıdır. Azərbaycan qadını üçün səciyyəvi olan humanizm, qayğıkeşlik və insanpərvərlik kimi ali mənəvi keyfiyyətlər məhz onun şəxsiyyətində daha parlaq təcəssümünü tapır.

Bu gün tarixinin ən qüdrətli Azərbaycanında qadınların cəmiyyətdəki yeri və rolu göz önündədir. Azərbaycan qadını nəciblik, xeyirxahlıq mücəssiməsi, bacarıqlı siyasətçi, iş adamı və dövlət məmurudur. Bu fəallığı şərtləndirən isə ölkəmizdə həyata keçirilən gender siyasətinin mahiyyəti və qadınlara cəmiyyətin tamhüquqlu üzvü kimi bütün imkanlardan bərabər istifadə üçün yaradılan zəruri şəraitdir.

## Heydər Əliyev məktəbi - humanizm, müdriklik və vətənpərvərlik nümunəsi

Ümumiyyətlə, Azərbaycanda sosial-iqtisadi və demokratik inkişafın keyfiyyətcə yeni mərhələsində qadın hərəkatının daha da aktivləşməsi, şaxələnməsi Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyasında öz əksini tapıb.

Xalqın təkidli tələbi ilə yenidən Azərbaycanda siyasi hakimiyyətə qayıdan dahi şəxsiyyət insan hüquqları çərçivəsində qadın hərəkatının inkişafına da güclü stimul verib. Qadınların idarəetmə, qərarqəbuletmə və sosial həyatın bütün sahələrində irəli çəkilməsini vacib bilən Ulu Öndərin xüsusi diqqəti sayəsində 1993-cü ildən ölkəmizdə qadınların ictimai-siyasi həyata transformasiyası, onların dövlət idarəçiliyində təmsilçiliyi, bütün sahələrdə kişilərlə bərabər hüquqlara malik olması dövlət idarəçiliyi kursunun prioritet istiqamətlərindən birinə çevrilib. Elə Azərbaycan qadını ilə bağlı ən dəyərli fikirlər də Ümummilli Liderə məxsusdur: "Azərbaycan xalqı həmişə qadına, onun cəmiyyətin həyatında oynadığı rola, tutduğu yüksək mövqeyə böyük hörmətlə yanaşmışdır. Xalqın ən əziz, qiymətli və müqəddəs hesab etdiyi vətən, torpaq, dil anlayışları ana adı ilə bərabər tutulmuşdur. Qadın adına göstərilən dərin ehtiram, sonsuz ana məhəbbəti söz və sənət abidələrimizdə öz parlaq təcəssümünü tapmışdır. Ədəbiyyatımızın və mədəniyyətimizin görkəmli nümayəndələri öz əsərlərində Azərbaycan qadınının mərdliyini, gözəlliyini, mənəvi saflığını vəsf etmişlər".

Bu gün Ümummilli Lider Heydər Əliyev ideyalarını, onun humanizm siyasətini Prezident İlham Əliyevlə birgə birinci xanım Mehriban Əliyeva da olduqca mükəmməl şəkildə davam etdirir. Əlbəttə ki, Mehriban xanım Əliyevanın həm də dövlət xadimi kimi formalaşmasında Heydər Əliyev məktəbinin rolu danılmazdır. Bu barədə ölkəmizin birinci xanımının çox maraqlı fikirləri var: "Mən Heydər Əliyev ailəsinin üzvü olanda birinci kursda oxuyurdum, deməli, 20 ildən artıq bir müddətdə bir çox amillər formalaşmış, daim kütləvilik elementi olan mühitdə davranış tipini şərtləndirmişdir. Mən 20 il Heydər Əliyev kimi bir insanın ailəsində, yanında yaşamışam. Biz çətin illərində də, xoşbəxt anlarında da onun yanında olmuşuq. Sarsılmaz iradəsi ilə bu insan qalib kimi yaşamış və dünyadan qalib kimi getmişdir. Adamların böyük əksəriyyətindən fərqli olaraq, biz onu təkcə siyasi xadim, dövlət rəhbəri rolunda deyil, həm də adi insan, ailə başçısı, övladlarını sevən ata, baba kimi görmüşük. Mən taleyimə minnətdaram ki, belə bir imkanım olmuşdur. Bu insanla ünsiyyət mənim üçün qeyri-adi bir həyat məktəbi olmuşdur. Ümid edirəm ki, ondan nə isə öyrənə bilmişəm".

Bu gün Mehriban xanım Əliyevanın həyat yoluna nəzər saldıqca açıq-aydın görünür ki, onun reallaşdırdığı bütün layihələr, gördüyü əvəzsiz işlər genetik kodundan və düşdüyü ailənin mühitindən gəlir. Bütün bunlara misal kimi onun səhiyyə, təhsil, mədəniyyət, ədəbiyyat sahəsində reallaşdırdığı layihələri, xeyriyyəçilik əməllərini və, nəhayət, dövlətçilik siyasətini göstərə bilərik.

Məhz Mehriban Əliyevanın səyləri nəticəsində bu gün Azərbaycanda qadın hərəkatı keyfiyyətcə yüksək səviyyəyə çatıb. Ölkədə bütün dövlət strukturlarında qadınların idarəçilikdə rolunun artırılması istiqamətində ciddi işlər həyata keçirilib. Bu gün Azərbaycan qadını parlamentdə, mərkəzi və yerli icra hakimiyyəti orqanlarında, bələdiyyələrdə, təhsildə, səhiyyədə, ölkə iqtisadiyyatının inkişafında sahibkar kimi biznes strukturlarında, kənd təsərrüfatı sektorunda, orduda, hüquq-mühafizə orqanlarında təmsil olunur. Rəhbər vəzifələr tutan qadınların da sayı az deyil. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Milli Məclisin Sədri və ombudsman da qadındır.

## Minlərlə insana bəxş edilən sevinc payı

Mehriban xanım Əliyeva 2005-ci ildən 2017-ci ilin fevral ayınadək Azərbaycan Respublikası Milli Məclisinin deputatı kimi fəaliyyət göstərib. Onun deputat kimi gördüyü işlər, reallaşdırdığı layihələr, həqiqətən də, çox-çox yüksək qiymətləndirilməlidir. Çünki Mehriban xanım, həqiqətən də, deputat kimi çox böyük işlər görüb, təmsil etdiyi dairənin sosial-iqtisadi problemlərinin həlli istiqamətində çox mühüm addımlar atıb. Daim seçiciləri ilə təmasda olan Mehriban xanım onların hər bir probleminin həlli istiqamətində mütərəqqi addımlar atıb.

Onun fəaliyyəti təkcə seçicilərinin problemlərinin həlli, onlara diqqət və qayğının göstərilməsi ilə yekunlaşmır. Mehriban xanımın siyasi, xüsusən də beynəlxalq fəaliyyəti Azərbaycana dividendlər qazandırıb. Məhz Mehriban xanım Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında əvəzsiz xidmətlər göstərib. Bunları saymaqla bitirmək mümkünsüzdür.

Milli Məclisdə təmsil olunduğu müddət ərzində Mehriban xanım bir sıra təkliflər irəli sürüb. Onun Heydər Əliyevin humanizm və ədalət ideyalarına əsaslanaraq, 2007-ci, 2009-cu, 2013-cü və 2016-cı illərdə irəli sürdüyü amnistiya aktlarının qəbul edilməsi təşəbbüsü biz həmkarları tərəfindən daim dəstəklənərək çox yüksək qiymətləndirilib. Məhz bu amnistiya aktları əsasında ümumilikdə 40 min məhkum cəzadan azad edilib.

Bağışlamaq qəlbin böyüklüyüdür deyiblər. Məhz Mehriban xanımın bu xoşniyyətli təşəbbüsləri ilə elan edilən amnistiyalar minlərlə insanı azadlığa qovuşdurub, onların qayıtmasını həsrət və intizarla gözləyən ana-bacıların, övladların, ahıl valideynlərin hədsiz sevincinə səbəb olub.

Göründüyü kimi, Ulu Öndər Heydər Əliyevin "Xalqın, Vətənin taleyi hər bir insanın taleyinə çevrilməlidir" kəlamını Mehriban xanım Əliyeva müdrikliklə, həm də müdrikə sədaqət kimi yaşadır. İnsanları xoşbəxt etməyi bacaran Mehriban Əliyeva bu hissi onlara yaşada bildiyi üçün özünü də xoşbəxt sayır. Müsahibələrinin birində bu məqama toxunan birinci xanım deyib: "Mənim adıma hər gün 200-dən çox məktub gəlir. Onların heç biri diqqətsiz qalmır. Mən konkret iş görmək, konkret insanlara kömək etmək istəyirəm. Konkret problemləri həll etmək, yardım edə bildikdə sevinc hissi keçirmək və səndən asılı olmayan səbəblər üzündən nəsə edə bilmədikdə təəssüflənmək, qəzavü-qədər, sağalmaz xəstəlik qarşısında bütün gücsüzlüyünü dərk edərkən əziyyət çəkmək, xilas edilmiş bir uşağın təbəssümünü gördükdə isə bir daha sevinmək istəyirəm. Bu, mənim seçimimdir".

## Regionun ən böyük və nüfuzlu ictimai təşkilatı

2004-cü ildən bu günə qədər Mehriban Əliyeva Ulu Öndərin adını daşıyan Heydər Əliyev Fondunun prezidentidir. Fəaliyyət göstərdiyi 19 ildə fondun gerçəkləşdirdiyi müxtəlif istiqamətli layihələrə sadəcə qısaca diqqət yetirmək insanın ürəyini dağa döndərir.

Təmənnasız yaxşılıq, xeyriyyəçilik, xəstələrə şəfa, kimsəsizlərə hamilik və ümumiyyətlə, səhiyyə, elm-təhsil, mədəniyyət, idman və digər sahələr üzrə həyata keçirilən layihələrin qiyməti yoxdur, desək, yanılmarıq.

Məhz Mehriban xanımın təşəbbüsü ilə inşa edilən müasir tipli modern xəstəxanalarda minlərlə xəstə şəfa tapıb. Fondun təşəbbüsü ilə yenidən qurulan, inşa edilən uşaq evləri və mütəmadi olaraq Mehriban xanımın görüşünə getdiyi kimsəsiz uşaqların sevinci, onlara bəxş edilən ana sevgisi, göstərilən səmimi qayğı bütün ölkə ictimaiyyəti tərəfindən hər zaman yüksək qiymətləndirilib.

Fondun, xüsusilə də Mehriban xanımın fəaliyyətinə ən yüksək dəyəri Prezident İlham Əliyev verib. Dövlət başçısı bildirib ki, Heydər Əliyev Fondu Mehriban xanım Əliyevanın rəhbərliyi ilə nəinki Azərbaycanın, eləcə də regionun ən böyük və nüfuzlu ictimai təşkilatına çevrilmişdir. Heydər Əliyev Fondunun çoxşaxəli fəaliyyəti Azərbaycan xalqı tərəfindən yüksək qiymətləndirilir. Fondun təşəbbüsü ilə bir çox önəmli layihələrə, proqramlara start verilib. Onların arasında "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı xüsusi qeyd edilməlidir. Məhz bu proqramın başlanması nəticəsində son illər ərzində ölkəmizdə minlərlə məktəb əsaslı təmir olunub və ya yenidən tikilib. Digər layihələr ölkəmizin hərtərəfli inkişafına xidmət göstərib. Heydər Əliyev Fondunun xətti və dəstəyi ilə minlərlə insan tibbi müalicə ilə təmin edilib. Bir çox halda bu məsələlər ictimaiyyət üçün açıqlanmır. Fondun fəaliyyəti məhz o məqsədi güdür ki, ehtiyacı olan insanlara yardım etsin və ən az müdafiə olunan vətəndaşlara imkan daxilində öz dəstəyini göstərsin.

Cənab Prezident həmçinin Heydər Əliyev Fondunun mədəniyyətlə, incəsənətlə bağlı layihələrini də yüksək qiymətləndirərək vurğulayıb ki, fond mənəvi, tarixi, mədəni irsimizin qorunması işində əvəzolunmaz rol oynayıb. Milli sərvətimiz olan muğam sənətinin yenidən inkişafı və beynəlxalq arenaya çıxarılması məhz Heydər Əliyev Fondunun və Mehriban Əliyevanın şəxsi təşəbbüsü nəticəsində mümkün olub. Azərbaycanda keçirilən muğam müsabiqələri artıq həyatımızın ayrılmaz hissəsinə çevrilib. Bu, sadəcə olaraq sənət növü deyil, mədəni sərvətimizdir. Gənc nəslin tərbiyə olunmasında milli-mənəvi dəyərlər, ənənələr xüsusi rol oynayır. Bu baxımdan belə təşəbbüslər çox böyük ictimai məna daşıyır. Eyni zamanda dünya miqyasında muğamın məhz Azərbaycan sənəti kimi təqdim olunmasında Heydər Əliyev Fondunun çox böyük rolu olub.

Heydər Əliyev Fondunun layihələri təkcə ölkə miqyası ilə yekunlaşmır. Mehriban xanımın rəhbərliyi ilə fond Azərbaycanı dünyada tanıtmaq üçün müxtəlif təqdimatlar, sərgilər, tədbirlər keçirib. Çoxsaylı tədbirlər nəticəsində dünya ictimaiyyəti ölkəmizi daha yaxından tanımağa, öyrənməyə başlayıb. Məhz belə layihələr sayəsində dünyanın bir çox xalqlarına, dövlətlərinə bəlli olub ki, Azərbaycan müasir, dinamik inkişaf edən ölkədir, xalqı isə öz tarixi köklərinə çox bağlıdır.

## Uğurlu və yüksək təşkilatçılıq bacarığı

Azərbaycan xalqına yaxşı bəllidir ki, Mehriban xanım Əliyeva həm də yüksək təşkilatçılıq bacarığına sahibdir. Bunu ölkəmizdə uğurla keçirilən və Azərbaycanın beynəlxalq nüfuzunun daha da artmasına təkan verən mötəbər idman və mədəniyyət yarış və tədbirləri də təsdiqləyir.

Avropanın "musiqi bayramı" kimi səciyyələndirilən nüfuzlu "Avroviziya" Beynəlxalq Mahnı Müsabiqəsinin 2012-ci ildə Bakıda ən yüksək səviyyədə keçirilməsi ölkəmizin dünyada tanıdılması işində xüsusi rol oynayıb. Eyni zamanda 2015-ci ildə paytaxtımızda baş tutan ilk Avropa Oyunları zamanı Mehriban xanım Əliyevanın rəhbərliyi ilə çalışan "Bakı-2015" I Avropa Oyunları Təşkilat Komitəsinin yüksək əzmkarlığı sayəsində Azərbaycan Avropa Oyunlarının standartlarını müəyyənləşdirib. Sözügedən oyunların möhtəşəm açılış və bağlanış mərasimləri unikal - bənzərsiz nümunə kimi beynəlxalq səviyyədə heyrətlə və rəğbətlə qarşılanıb. Bu, həmçinin Azərbaycan dövlətinin potensialını, gücünü, xalqımızın mənəvi dəyərlərini və ali keyfiyyətlərini bütün dünyaya nümayiş etdirib.

2017-ci ildə paytaxt Bakıda keçirilən IV İslam Həmrəylik Oyunlarının Təşkilat Komitəsi də Mehriban xanım Əliyevanın rəhbərliyi ilə uğurla fəaliyyət göstərib, nəticə etibarilə Azərbaycan IV İslam Həmrəylik Oyunlarına müvəffəqiyyətlə evsahibliyi edib. Bu həm də mədəniyyətlərarası dialoqun inkişafında və təşviqində vacib rol oynayan Azərbaycanın islam həmrəyliyinin gücləndirilməsinə daha bir töhfəsi olub.

Məhz 2015-ci ildə I Avropa Oyunlarının keçirilməsində göstərdiyi xidmətlərə görə Mehriban Əliyevanın Azərbaycan dövlətinin ən ali mükafatı olan "Heydər Əliyev" ordeni ilə təltif edilməsi Azərbaycan Prezidentinin onun hərtərəfli fəaliyyətinə verdiyi ən ali dəyər idi.

## Ali missiya, sadiq silahdaş, böyük dayaq

Məhz bu çoxşaxəli fəaliyyət, Vətəninə və xalqa sonsuz sevgisi, milli-mənəvi dəyərlərə dərin hörməti, ölkənin ictimai-siyasi həyatındakı xidmətləri, insanlara olan tükənməz qayğısı onun ölkəmizin Birinci vitse-prezidenti vəzifəsinə təyin olunmasını şərtləndirən əsas amillər oldu.

Prezident İlham Əliyevin 2017-ci ilin fevral ayında qəbul etdiyi qərar Azərbaycan xalqı tərəfindən çox yüksək qiymətləndirildi. Çünki Mehriban Əliyeva çox peşəkar, bilikli, təcrübəli, prinsipial, çox xeyirxah və xalqın böyük rəğbət bəslədiyi ən layiqli ictimai-siyasi xadim idi.

Beləliklə, 2017-ci ildən Mehriban xanım Əliyevanın həyatında yeni dövr başladı. Prezident İlham Əliyev bu təyinatla bağlı keçirdiyi Təhlükəsizlik Şurasının iclasında əminliklə bəyan etdi ki, bu günə qədər Azərbaycan xalqına, dövlətə sədaqətli xidməti ilə sevilən Mehriban xanım Əliyeva bundan sonra da ölkəmizin inkişafına öz dəyərli töhfəsini verəcək.

Artıq 6 ildir ki, Mehriban xanım Əliyeva Azərbaycanın Birinci vitse-prezidenti kimi uğurlu fəaliyyət göstərir. Əlbəttə, 6 il uzun zaman kəsiyi sayılmasa da, dövrün reallıqları, baş verən hadisələr təsdiq edir ki, 2017-ci ilin fevralından ötən müddəti Mehriban Əliyevanın uğurlu hesabat dövrü kimi nəzərdən keçirmək üçün böyük əsaslar var.

Birinci vitse-prezident təyin olunduqdan bir neçə gün sonra Mehriban xanım Əliyeva "Rossiya 1" telekanalının "Vesti nedeli" proqramına müsahibəsində deyir: "Mən Prezidentin etimadını, ən başlıcası isə, mənə inanan, ümid bəsləyən insanların etimadını doğrultmalıyam". Üzərinə düşən vəzifələri layiqincə yerinə yetirəcəyini bəyan edən Mehriban xanımın ötən 6 ildəki fəaliyyəti bu vədin əməli surətdə özünü doğrultduğunu göstərdi. Daha dəqiq desək, Mehriban xanım Əliyeva öz nümunəvi fəaliyyəti ilə dövlət başçısının, ona inamını ifadə edən, böyük ümidlər bəsləyən insanların etimadını ən yüksək səviyyədə doğrultmağı bacardı.

Mehriban Əliyeva həm də Qafqazın ən böyük siyasi təşkilatı olan Yeni Azərbaycan Partiyasının sədr müavinidir. Bu gün 764 368 nəfər üzvü olan partiyanın Azərbaycanın ictimai-siyasi həyatında əvəzsiz xidmətləri var. Tarix göstərir ki, dövlət idarəçiliyində ciddi rol oynayan, ölkəmizin tərəqqisi naminə sosial layihələrin müəllifi olan, cəmiyyətdə xeyriyyəçi, şəfqət, mərhəmət simvoluna, ümid qapısına çevrilən Mehriban xanım Əliyeva əməli fəaliyyəti ilə üzərinə düşən vəzifənin öhdəsindən layiqincə gəlir.

Ötən dövr ərzində hər kəs şahidlik etdi ki, Mehriban xanım Əliyeva həm də sadiq silahdaşdır. Prezident İlham Əliyevin həyata keçirdiyi tam müstəqil siyasətin, mütərəqqi islahatların ən böyük dəstəkçisidir. Prezident İlham Əliyevin inamla davam etdirdiyi strateji siyasi kursun həyata keçirilməsində, bu siyasətin hər bir vətəndaşın həyatında qabarıq hiss olunmasında Mehriban xanım Əliyevanın da xidmətləri böyükdür. Onun vətənə xidmət fəlsəfəsinin təməlində xalqına sonsuz sevgi, Ulu Öndər Heydər Əliyev ideyalarına sarsılmaz inam və Prezident İlham Əliyevin müstəqil siyasətinə yüksək sədaqət hissləri dayanır. Xeyirxahlığına, yüksək bacarığına, diqqət və qayğısına görə hamının hörmətini, məhəbbətini qazanmış Mehriban xanım Əliyevanın ölkəmizin ictimai-siyasi və mədəni həyatındakı rolu mühüm, xidmətləri danılmazdır.

44 günlük Vətən müharibəsində əldə edilən şanlı zəfərdən sonra Müzəffər Ali Baş Komandan İlham Əliyevin işğaldan azad edilmiş ərazilərə səfərləri zamanı onu müşayiət edən birinci xanım Mehriban Əliyeva özünəməxsus səmimiyyətlə paylaşımlar edir, ictimai diqqəti erməni vandalizminin ağır fəsadlarına yönəldir. İşğaldan azad edilmiş ərazilərdə həyata keçiriləcək layihə və tədbirlər barədə ictimaiyyətə müəyyən mesajlar, məlumatlar verir.

Eyni zamanda Prezidentin həyata keçirdiyi misli görünməmiş yenidənqurma, bərpa tikinti layihələrinə Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu çox böyük dəstək verir. Fondun xətti ilə işğaldan azad edilən torpaqlarımızdakı tarixi-dini və mədəni abidələrin bərpası prosesi həyata keçirilməkdədir. Xüsusən Şuşada, Ağdamda reallaşdırılan bərpa işlərində Heydər Əliyev Fondunun fəaliyyəti misilsizdir və bütün bunlar, ilk növbədə, Mehriban Əliyevanın vətənpərvərliyinin təcəssümüdür.

Avqustun 22-23-də Azərbaycanda səfərdə olan Özbəkistan Prezidenti Şavkat Mirziyoyev və xanımı Ziroatxon Mirziyoyevanın Qarabağa səfərləri zamanı bir daha Heydər Əliyev Fondunun Şuşa şəhərində reallaşdırdığı layihələr həm dost ölkənin rəhbərliyinin, həm də ölkə vətəndaşlarının könlünü oxşadı. Dünya bir daha şahidlik etdi ki, 30 il ərzində erməni barbarlarının Azərbaycan tarixinin izlərini itirmək cəhdi mümkün olmadı. Düşmənin işğal dövründə darmadağın etdiyi abidələrimiz indi tam bərpa edilib. Vəhşi ermənilərin donuz saxladığı məscidlərimizin bərpası və minarələrindən verilən azan səsi düşmənin bağrını yarır, qədim şəhərimizin, ümumiyyətlə, Qarabağ və Şərqi Zəngəzurun azadlığı uğrunda canını fəda etmiş şəhidlərimizin ruhunu şad edir.

Bu gün - 26 avqust təqvim günü ölkəmizin ictimai-siyasi həyatında iki əlamətdar gün kimi qeyd edilir. Həm ölkəmizin Birinci vitse-prezidentinin doğum günü, həm də 30 illik yurd həsrətindən sonra doğma Laçına qayıdan sabiq köçkünlərin azadlığının təntənəsi günü - "Şəhər günü"nün sevinci yaşanır. Prezident İlham Əliyevin sərəncamına əsasən, bundan sonra işğaldan azad edilən torpaqlarımızın azadlıq günü böyük təmtəraqla qeyd ediləcək. İlk olaraq isə həmin günün sevincini laçınlılar yaşayır.

Bu iki əlamətdar günün rəmzi məna daşıdığını söyləsək, yanılmarıq. Həm Prezident İlham Əliyev, həm də Mehirban xanım Əliyeva həyatlarının ən əlamətdar günlərində hər zaman keçmiş məcburi köçkünlərin və ya şəhid ailələrinin yanında olublar. Bu gün də bu ənənə davam edir. Bu, ölkə rəhbərinin və birinci xanımın xalqımıza, xüsusən də həmin kateqoriyadan olan insanlara verdikləri dəyərin, göstərdikləri qayğının bariz təcəssümüdür.

*Artıq keçmiş məcburi köçkünlərimizin öz doğma yurdlarına böyük qayıdışına start verilib. Demək olar, hər həftə böyük köç karvanları üzü Qarabağ və Şərqi Zəngəzura doğru irəliləyirlər. Cənab İlham Əliyevin Böyük Qayıdış Konsepsiyası uğurla icra olunur. Mehriban xanım Əliyeva da bu tarixi missiyada sadiq silahdaş kimi cənab Prezidentimizə böyük dayaqdır.*

**Səttar MÖHBALIYEV,**
***Milli Məclisin deputatı,***
***Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri***







# Ali etimad ünvanı

*Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, ICESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın müsahibələrinin birində söylədiyi "Həyatda hər bir kəsin yerini və taleyini tarix müəyyən edir. Odur ki, nə böyük, nə də kiçik rollar olmur. Öz həyat kitabını yazmağa ancaq sənin şəxsi, dərk edilmiş məsuliyyətin imkan verir. Bu kitabda hər bir kəs özünü şəxsi həyatının və dünyanın qurub-yaradıcısı, yaxud dağıdıcısı kimi təcəssüm etdirir. Kimsənsə, elə də olmalısan - bax, budur bizim həyatımız. Ona görə də özgələrin rollarını və obrazlarını gərək öz üzərinə götürməyəsən. Çünki sən də, dünyada yerin də yeganə və bənzərsizdir" fikirləri ilə yazıya körpü salırıq. Bu fikirlərin davamı olaraq Mehriban xanım Əliyevanın xalqa müraciətlərinin sonunda yazdığı bu ifadəni də böyük qürur hissi ilə qeyd edirik: "Sizin MEHRİBAN."*

Bu ifadənin özündə ehtiva etdiyi səmimiyyət, xeyirxahlıq, xalqa böyük sevgi və sıralanması bitməyən biri-birindən mühüm keyfiyyətlər Mehriban xanım Əliyevanın həyat prinsiplərinin təqdimatıdır. Öncə Heydər Əliyev Fondunun prezidenti kimi çoxşaxəli fəaliyyətinə diqqət yetirdikdə Ümummilli Liderin şah əsəri olan müasir müstəqil Azərbaycan dövlətinin daha da qüdrətlənməsi, həqiqətlərimizin təbliği, ölkəmizin beynəlxalq aləmdə tanınması istiqamətində göstərdiyi səylər, harada yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlıda qürur hissi yaradır. Dahi şəxsiyyət Heydər Əliyevin irsinin təbliği məqsədilə yaradılan Heydər Əliyev Fondu missiyasını yalnız bununla bitmiş hesab etmir. Hər zaman istər ölkə daxilində, istərsə də xaricində həyata keçirdiyi layihələri ilə diqqətdədir. Atılan hər bir addımda Ulu Öndər Heydər Əliyevin hər birimizin həyat amalına çevrilən "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" çağırışı dayanır. Mehriban xanım Əliyevanın Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 86-cı ildönümü və Heydər Əliyev Fondunun fəaliyyətə başlamasının 5 illiyi münasibətilə keçirilən təntənəli mərasimdəki çıxışında söylədiyi "Hüseyn Cavidi uzaq soyuq Sibirdən vətəninə qaytaranda, dahi həmvətənlərinin xatirəsini əbədiləşdirmək üçün biri-birindən əhəmiyyətli tarixi-mədəni layihələri reallaşdıranda, yüzlərlə gənci keçmiş SSRİ-nin aparıcı ali məktəblərinə oxumağa göndərəndə, mənəvi irsimizin qorunması, təbliği ilə bağlı məsələləri daim diqqət mərkəzində saxlayanda o, bizlərə "Bu Vətən sənin, mənim, hamımızındır" kəlmələrinin əsl mahiyyətini anladan həyat dərsi keçirdi" fikirləri bugünkü və gələcək nəsillərə bir çağırış idi. Mehriban xanım Əliyeva Heydər Əliyev Fondunun prezidenti kimi xalqımızın xeyriyyəçilik ənənələrinin daha geniş miqyas alması istiqamətində mühüm addımlar atır. Qəbul etdiyi hər bir qərar, gündəmə gətirdiyi layihə ümumilikdə Azərbaycanın tərəqqisinə xidmət edir, mədəniyyətimizin, təhsilimizin, səhiyyəmizin, idmanımızın inkişafına böyük töhfələr verir, azərbaycançılıq ideologiyasının inkişafını və təbliğini prioritet məsələ kimi öndə saxlayır. Ümumilikdə Heydər Əliyev Fondunun milli-mənəvi dəyərlərin qorunması və Azərbaycan mədəniyyətinin geniş təbliğ olunması, əhalinin rifahının yüksəldilməsi, elm, təhsil, mədəniyyət, səhiyyə və idmanın inkişafı, uşaq və gənclərin sağlam, milli-mənəvi dəyərlərə sadiq, hərtərəfli biliklərə malik vətəndaş kimi yetişdirilməsi, Azərbaycanın beynəlxalq nüfuzunun artırılması istiqamətində reallaşdırdığı layihələr həm ölkə daxilində, həm də hüdudlarından kənarda böyük rəğbətlə qarşılanır.

Cənab İlham Əliyev çıxışlarında bu mühüm məqamı xüsusi qeyd edir: "Heydər Əliyev fondu sübut etdi ki, əgər istək olarsa, əgər iradə olarsa və əgər xoş niyyət olarsa, istənilən sahədə istənilən məsələ həll oluna bilər. Bu fondun çoxşaxəli fəaliyyətini əgər bir sözlə xarakterizə etmək mümkündürsə, mən "Xoş niyyət" deyərdim. Çünki bütün sahələrdə biz bunu görürük."

Belə bir inam da ifadə olunur ki, Heydər Əliyev Fondu Azərbaycanı gələcəyə aparan gözəl bir vasitədir. Modernləşmə, müasirləşmə, dünya birliyinə inteqrasiya, Azərbaycanın milli maraqlarının müdafiə edilməsi, Azərbaycanın olduğu kimi dünyada təqdim edilməsi - bütün bu şərəfli funksiyalar fondun üzərinə düşüb. Fond və fondun rəhbərliyi bütün bu işləri öz təşəbbüsü ilə görürlər. Bundan sonra da Azərbaycanın gələcək inkişafında fondun rolu böyük olacaq.

Təkcə Azərbaycanda deyil, dünyanın bir çox ölkələrində humanitar layihələri, xeyirxah təşəbbüsləri, insanları birliyə, sülhə dəvət edən çağırışları ilə böyük nüfuz qazanan Mehriban xanım Əliyeva ICESCO-nun xoşməramlı səfiri kimi də üzərinə düşən vəzifələri layiqincə yerinə yetirir. Onun istər Azərbaycan, istərsə də dünya mədəni irsinin qorunması, təbliği və inkişafı istiqamətində gördüyü işlər birlik və həmrəylik nümunəsidir. Azərbaycanın şifahi xalq ədəbiyyatının və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz xidmətləri ilə diqqətdə olan Mehriban xanım Əliyevanın rəhbərliyi ilə reallaşan layihələr milli-mənəvi ideallara, humanist, insanpərvər dəyərlərə sadiq gənc nəslin formalaşmasına, sivilizasiyalararası dialoqun genişləndirilməsinə, nüfuzlu beynəlxalq qurumlarla əməkdaşlığın dərinləşdirilməsinə, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasına istiqamətlənib. Muğamımız və aşıq sənəti, tar ifaçılıq sənəti, eləcə də Azərbaycan xalçası, Novruz bayramı, kəlağayı sənəti UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına, bundan başqa, İçərişəhər, Qız qalası və Şirvanşahlar Saray Kompleksi UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilib.

> **"Gündəlik fəaliyyətimizdə insansevərlik, mərhəmət, qarşılıqlı hörmət, mehribançılıq unudulmamalıdır. Əksinə, məhz bu mənəvi dəyərləri uca tutaraq ən yüksək qələbələr əldə etmək, ən böyük zirvələrə qalxmaq olar."**
>
> **Mehriban ƏLİYEVA**

Azərbaycan hər zaman yeniliklərə, təkmilləşməyə xüsusi önəm verən innovasiyalar ölkəsi kimi tanınır və nüfuz qazanır. Ölkəmizdə idarəçilik sisteminin dövrün tələblərinə uyğun təkmilləşdirilməsi davamlı uğurlarımızı şərtləndirən əsas amillər sırasındandır. Bu baxımdan konstitusiyamızda əlavə və dəyişikliklərin edilməsi məqsədilə 3 dəfə ümumxalq səsverməsinin keçirilməsi dövrün tələbinə uyğun olaraq gündəmə gətirilən bir sıra mühüm məsələlərlə yadda qalıb. 2016-cı ildə keçirilən ümumxalq səsverməsində xalqın müzakirəsinə verilən məsələlərdən biri də vitse-prezidentlik institutunun yaradılması oldu. Xalqımız Azərbaycanın davamlı inkişafında, yeni-yeni hədəflərə doğru inamla irəliləməsində mühüm addım olacaq vitse-prezidentlik institutunun yaradılmasını rəğbətlə qarşıladı və vətəndaşlarımız ümumxalq səsverməsində bu məsələnin aktuallığını fəal iştirakları ilə təsdiqlədilər. Dövlət başçısı İlham Əliyevin 21 fevral 2017-ci il tarixli "Mehriban Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin edilməsi haqqında" Sərəncamı xalqımız üçün ikiqat sevinc oldu. Ölkədə vitse-prezidentlik institutunun yaradılması, Mehriban xanım Əliyevanın bu vəzifəyə təyin edilməsi xalqımızda Azərbaycanın möhtəşəm uğurları ilə diqqətdə olacağına əminliyini daha da artırdı. Xalqımız bu inamı ifadə etdi ki, dövlət başçısı İlham Əliyevin və Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın birgə səyləri nəticəsində hədəflərə daha yüksək səviyyədə nail olacaq, Ümummilli Liderin düzgün müəyyənləşdirdiyi siyasət nəticəsində dünyaya Günəş kimi doğan Azərbaycan bütün sahələrdə təcrübəsi, uğurları ilə diqqətdə olacaq. 21 fevral 2017-ci ildə Prezident İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclasında dövlət başçısı Mehriban xanım Əliyevanı Azərbaycanın Birinci vitse-prezidenti kimi təqdim edərkən onun çoxşaxəli fəaliyyətindən geniş bəhs edərək "Bax, bu çoxşaxəli fəaliyyət və eyni zamanda uğurlu fəaliyyət mənim bu qərarı qəbul etməyimdə əsas rol oynamışdır. Eyni zamanda qeyd etməliyəm ki, Mehriban Əliyeva çox peşəkar, bilikli, təcrübəli, prinsipial, çox xeyirxah bir insandır. Təsadüfi deyil ki, Azərbaycan xalqı ona böyük rəğbət və sevgi ilə yanaşır" söylədi və belə bir əminliyi ifadə etdi ki, Mehriban xanım bundan sonra da ölkəmizin inkişafına öz dəyərli töhfəsini verəcəkdir. Mehriban xanım Əliyeva Azərbaycanın Birinci vitse-prezidenti kimi çıxışında gələcək fəaliyyətinin prinsiplərini açıqladı: "Mən sizi əmin edirəm ki, gələcək fəaliyyətimi məhz bu prinsiplər əsasında qurmağa çalışacağam. Ölkəmizin və xalqımızın maraqlarını hər şeydən üstün tutacağam, Azərbaycana layiqincə xidmət etməyə çalışacağam."

O zamandan ötən 6 ildən artıq vaxtda Mehriban xanım Əliyeva Azərbaycanın iqtisadi inkişafı və xalqımızın rifahı naminə milli məqsədlərə nail olmaqla bağlı üzərinə nəcib missiya və yeni öhdəliklər götürərək onların reallığa çevrilməsi istiqamətində atdığı addımları ilə xalqın sevgisini daha da artırdı. Mehriban xanımın fəaliyyətində əhalinin həssas təbəqələrinin problemlərinin həlli xüsusi yer tutur. O, Birinci vitse-prezident kimi ilk müşavirəsini qaçqın və məcburi köçkün ailələrinin həyat şəraitinin yaxşılaşdırılmasına həsr etmişdi. Həmin müşavirədən dərhal sonra müvafiq tədbirlər planı hazırlandı və real işlər başlandı. Qısa müddətdə yüz minlərlə qaçqın və məcburi köçkünün mənzil-məişət şəraiti yaxşılaşdırıldı. Mehriban xanım Əliyeva keçmiş qaçqın və məcburi köçkünlərlə görüşlərində daim bu inamı ifadə edirdi ki, onlar üçün yaradılan şərait müvəqqəti xarakter daşıyır. Tezliklə torpaqlarımız işğaldan azad ediləcək, soydaşlarımızın torpaq həsrətinə son qoyulacaq, onlar doğma yurd-yuvalarına qayıdaraq qurub-yaradacaq, bir sözlə, ölkəmizin həyatında yeni mərhələ başlayacaq.

Artıq böyük qürur hissi ilə həmin mərhələnin başlandığını qeyd edirik. Dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun 44 günlük İkinci Qarabağ müharibəsinin hər gününü çoxəsrlik tariximizə zəfər səhifəsi kimi yazması bir daha xalqımızın yenilməzliyinin, məğrurluğunun, torpağa bağlılığının təqdimatı oldu. Azərbaycan əsgəri torpaq, Vətən sevgisi naminə canından keçərək şəhidlik zirvəsinə ucalmasını yazdığı Zəfər tarixi ilə sübut etdi. Prezident, Ali Baş Komandan İlham Əliyevlə çiyin-çiyinə dayanan Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva torpaqlarımızın azad olunması uğrunda mübarizəyə siyasi-mənəvi dəstəyi, xalqımızı milli həmrəyliyə səsləyən, şanlı ordumuzu qələbəyə ruhlandıran müraciət və çağırışları, müharibədən sonra isə dövlət başçısı ilə birlikdə Qarabağa və Şərqi Zəngəzura çoxsaylı səfərləri ilə xalqın sevgisini daha da artırdı. "Xarıbülbül" Musiqi Festivalı və "Vaqif Poeziya Günləri" ənənəsinin bərpası, bu tədbirlərin yüksək təşkilatçılıq əsasında təşkili Mehriban xanım Əliyevanın xidmətləri sırasında xüsusi yer tutur. Mehriban xanım Əliyevanın 44 günlük İkinci Qarabağ müharibəsinin gedişi dövründə ifadə etdiyi bu arzu, istək hər bir azərbaycanlının ümumi istəyi kimi bəyan edildi: "Qoy Uca Tanrı hər bir azərbaycanlıya müqəddəs Qarabağ torpağını öpməyi nəsib etsin!" Rəşadətli ordumuz dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə bu müqəddəs duanı, arzunu reallığa çevirdi. Bu gün isə azad Qarabağda, Şərqi Zəngəzurda genişmiqyaslı bərpa-quruculuq işləri həyata keçirilir. Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da bu işlərdə yaxından iştirak edir. Bərpa işlərinə başlayarkən ilk olaraq yol infrastrukturu ilə yanaşı, tarixi və dini abidələrimizin bərpası qarşıya mühüm vəzifə kimi qoyuldu. Heydər Əliyev Fondunun milli irsimizin qorunması, tarixi-dini abidələrimizin bərpası istiqamətində atdığı addımlar davamlılığı ilə diqqətdədir.

Heydər Əliyev Fondu şəhid ailələrini, qaziləri daim diqqətdə saxlayır. Mehriban xanım Əliyevanın tapşırığı əsasında Heydər Əliyev Fondu ağır yaralanan qazilərimizi müalicə və reabilitasiya üçün Türkiyəyə göndərib. Bu kateqoriyadan olan insanların problemlərinin həlli istiqamətində davamlı tədbirlər həyata keçirilir. Şəhid ailələri, qazilərimiz onlara göstərilən diqqətdən razılıqlarını ifadə edirlər.

Mehriban xanım Əliyevanın həmrəylik, birlik çağırışları dünyanı bürüyən koronavirus infeksiyası ilə mübarizə tədbirlərinin gücləndirildiyi zamanlarda da diqqətdən kənarda qalmadı. Dəfələrlə xalqa müraciət edən Mehriban xanım belə bir əminliyi ifadə etdi ki, müdrik xalqımızın ən gözəl xüsusiyyətləri - ruh yüksəkliyi və mərdlik, mərhəmət və şəfqət, inam və məhəbbət sayəsində biz birlikdə bu ciddi çağırışın öhdəsindən gələcəyik. Heydər Əliyev Fondu, hər zaman olduğu kimi, pandemiya dövründə də xüsusi qayğıya ehtiyacı olan insanlara, əhalinin həssas təbəqəsinə xüsusi qayğı ilə yanaşdı.

Mehriban xanım Əliyeva dahi şəxsiyyət Heydər Əliyevin adını daşıyan fonda rəhbərlik etməklə yanaşı, onun yaradıcısı olduğu, bu gününə və gələcəyinə böyük inam bəslədiyi Yeni Azərbaycan Partiyasında təmsil olunmaqla siyasi fəaliyyətinin miqyasını daha da genişləndirir. Son illər yalnız tarixi zəfərimizin reallıqları fonunda yaşananlar diqqətdə olduğundan bu mühüm məqamı da xüsusi qeyd etməliyik ki, 2021-ci ilin 5 mart tarixində Yeni Azərbaycan Partiyası şanlı qələbəmizin qarşıya qoyduğu vəzifələrə uyğun olaraq VII qurultayını keçirdi. Bu qurultay partiyanın həyatında yeni bir mərhələnin əsası oldu. Yeni tərkibin formalaşması, yeni Nizamnamənin qəbulu, həmçinin "Biz birlikdə güclüyük!" çağırışını özündə ehtiva edən yeni proqramın təsdiqlənməsi YAP-ın gələcək hədəflərinin hansı uğurlara yol açacağına işıq saldı. Mehriban xanım Əliyevanın YAP Sədrinin birinci müavini seçilməsi partiyanın həyatında mühüm hadisə kimi dəyərləndirildi.

Təbii ki, Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyətini bir yazıda əhatə etmək qeyri-mümkündür. Onun titullarına, mükafatlarına, ordenlərinə, bəşəriyyətin ali ideyalarına xidmət sahəsində yüksək nailiyyətlərinə görə beynəlxalq səviyyəli sorğularda daha çox reytinq toplamasına diqqət yetirdikdə bunların Azərbaycan qadınının ictimai-siyasi işlərdə zəngin təcrübəyə malik olduğunu göstərməklə yanaşı, dünya birliyində fəal mövqe tutmasının nümunəsi olduğunu böyük qürur hissi ilə qeyd edirik. Prezident İlham Əliyev 2015-ci ildə Mehriban xanım Əliyevanı Azərbaycanda mədəniyyətin, təhsilin, səhiyyənin və idmanın inkişafında səmərəli fəaliyyətinə, xalqımızın mədəni irsinin beynəlxalq miqyasda geniş təbliğinə və I Avropa Oyunlarının təşkilində böyük xidmətlərinə görə Vətənimizin ən ali mükafatı - "Heydər Əliyev" ordeni ilə təltif edərkən bildirmişdir ki, Heydər Əliyev Fondunun bütün təşəbbüsləri milli ruha əsaslanır.

Qeyd etdiklərimiz Mehriban xanım Əliyevanın yazının əvvəlində göstərilən fikirlərinin təsdiqidir. Mehriban xanım özünəməxsus həyat kitabını çoxşaxəli fəaliyyəti ilə zənginləşdirir. Dövlət, xalq naminə göstərilən xidmətə verilən dəyər insanların Mehriban xanım Əliyevaya ünvanlanan minnətdarlıq məktublarında xüsusi qeyd edilən "Sizinlə fəxr edirik, Mehriban xanım!" sözlərində özünün aydın ifadəsini tapır. Mehriban xanım Əliyevanın Vətən və xalq naminə fədakarlığı, milli-mənəvi dəyərlərə sadiqliyi, xeyirxahlığı, mərhəməti həm Azərbaycanda, həm də beynəlxalq miqyasda yüksək qiymətləndirilir. Müxtəlif ölkələrin ordenlərinə, mükafatlarına layiq görülməsi beynəlxalq əlaqələrin inkişafına töhfələrinin bariz göstəricisidir. Mehriban xanım Əliyeva üçün ən böyük mükafat xalqın ona olan sevgisi, inamı və etimadıdır. "Gündəlik fəaliyyətimizdə insansevərlik, mərhəmət, qarşılıqlı hörmət, mehribançılıq unudulmamalıdır. Əksinə, məhz bu mənəvi dəyərləri uca tutaraq ən yüksək qələbələr əldə etmək, ən böyük zirvələrə qalxmaq olar" çağırışı ilə Mehriban xanım Əliyevaya milyonların sevgisi şəksizdir.

***Bəxtiyar ƏSGƏROV,***
***Bakı şəhərində Naxçıvan Muxtar Respublikasının Daimi Nümayəndəliyinin rəhbəri***

# Mərhəmət rəmzi

**Ümummilli Lider Heydər Əliyevin Azərbaycan rəhbərliyinə yenidən qayıdışı ilə müasir tariximizdə yeni dövrün, ölkəmizi müstəqil dövlət quruculuğuna doğru aparan böyük yolun başlanğıcı qoyuldu. Heydər Əliyev Azərbaycanda siyasi sabitlik yaratmaqla yanaşı, ölkənin iqtisadi müstəqilliyinin də əsasını qoydu.**



2003-cü ildən Heydər Əliyev siyasi və iqtisadi kursunu uğurla davam etdirən Prezident İlham Əliyev milli inkişaf prioritetlərini düzgün müəyyənləşdirərək ölkənin bütün potensialını intellektual resursların, insan kapitalının gücləndirilməsi yönümündə səfərbər etdi. Onun məqsədyönlü fəaliyyəti sayəsində hüquqi dövlətin inkişafının konstitusion islahat modeli uğurla həyata keçirilərək dövlət hakimiyyətinin xalqa mənsubluğunun Azərbaycan modeli formalaşdı. Hazırda Azərbaycan dövləti çoxəsrlik şanlı tarixinin ən parlaq intibah dövrünü yaşayır. Bu gün dünya ölkələri arasında ləyaqətlə ucalaraq sahibləndiyimiz mövqe hər bir azərbaycanlının qürur mənbəyidir. Bu qürurun əsasında Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın vətən və xalq naminə gərgin və miqyaslı fəaliyyəti, yüksək intellekt və dünyəvilik kimi şəxsi keyfiyyətlərinin möhtəşəm harmoniyası dayanır.

Ümummilli Lider Heydər Əliyev çıxışlarının birində demişdi: "Mənəviyyat olmayan yerdə haqdan, ədalətdən, düzgünlükdən söhbət gedə bilməz". Həqiqətən, istənilən cəmiyyətdə ədalət, insanpərvərlik, dürüstlük kimi mənəvi dəyərlərin özünə möhkəm dayaqlar tapması nəcib və kamil insanların əzmkar fəaliyyəti sayəsində mümkün olur. Bu baxımdan Mehriban xanım bütün mütərəqqi keyfiyyətləri mötəbər mövqeyi və humanist xeyirxahlıq nüfuzu ilə Azərbaycanın birinci xanım lideri, ali statuslu rəhbəridir.

Dövlət başçısının həyata keçirdiyi iqtisadi siyasətin əsas xarakterik xüsusiyyətləri onun sosialyönümlü olması, habelə bütün problemlərin həllində iqtisadi aspektin mövcudluğunun ön plana çəkilməsidir. Dövlət proqramlarının, Prezidentin fərman və sərəncamlarının icrası ölkədə gedən iqtisadi inkişafın sürətləndirilməsini uğurla təmin etmiş, bu prosesdə özəl sektorun payı və rolunu artırmaqla sahibkarlığın inkişafına güclü təkan vermişdir.

İstisnasız olaraq bütün dövrlərdə cəmiyyətin mütərəqqi yolla inkişafı məhz sağlam əqidəli, xalqa, dövlətə təmənnasız xidməti başlıca həyat amalına çevirən nəcib insanların fəaliyyəti ilə bağlıdır. Belə insanlar qısa zamanda cəmiyyətin sayılıb-seçilən şəxsiyyətlərinə çevrilir, üzərlərinə düşən sosial məsuliyyəti düzgün dəyərləndirir, xoş məram və məqsədləri ilə milyonların rəğbətini qazanırlar. Hazırda bu nəcib missiyanı yüksək mənəvi məsuliyyətlə üzərinə götürərək şərəflə, əzmlə həyata keçirən insanlar arasında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva ön sıralarda dayanır. İnamla deyə bilərik ki, Ulu Öndərin ali ideyalarına əsaslanan, dövlət başçısı İlham Əliyevin həyata keçirdiyi çoxşaxəli siyasətə layiqli töhfələrini verən Azərbaycanın Birinci vitse-prezidentinin mənəvi dəyərlər sisteminin qorunmasında, cəmiyyətə sağlam dəyərlərin aşılanmasında müstəsna xidmətləri vardır.

Həyatının başlıca amalı məhz xeyirxahlıq və xoş niyyət olan birinci xanımın adı çoxşaxəli fəaliyyəti, insanlarla ünsiyyəti ilə sanki bir vəhdət təşkil edir. "Gündəlik fəaliyyətimizdə insansevərlik, mərhəmət, qarşılıqlı hörmət, mehribançılıq unudulmamalıdır. Əksinə, məhz bu mənəvi dəyərləri uca tutaraq ən yüksək qələbələr əldə etmək, ən böyük zirvələrə qalxmaq olar. Mən sizi əmin edirəm ki, gələcək fəaliyyətimi məhz bu prinsiplər əsasında qurmağa çalışacağam. Ölkəmizin və xalqımızın maraqlarını hər şeydən üstün tutacağam, Azərbaycana layiqincə xidmət etməyə çalışacağam". Bu sözləri Mehriban Əliyeva Birinci vitse-prezident kimi ilk çıxışında səsləndirib. Bu gün bizlər Mehriban xanımın söylədiyi fikirləri real həyatda uğurla həyata keçirdiyinin şahidiyik.

Bütün dövrlərin belə parlaq simaları üçün səciyyəvi keyfiyyətlərdən biri də onların qlobal miqyasda insanlığın nicatına xidmət edən ictimai təşəbbüslərlə çıxış etmələri olmuşdur. Bu baxımdan deyə bilərik ki, rahatsız dünyamızda nəcib və ali məqsədlər naminə əzmlə çalışan, insan amilini daim uca tutan sülh elçiləri sırasında Mehriban xanım Əliyevanın adı xüsusi çəkilir. Mehriban xanım qayğıkeşliyi, ictimai-siyasi fəaliyyəti, həm də elmi yaradıcılığı ilə Azərbaycan qadınlarına örnəkdir. Qədim və zəngin tariximizin hər bir səhifəsində Azərbaycan qadınının müdrikliyi və qəhrəmanlığının parlaq nümunələri olub. Mehriban xanım öz fəaliyyətində Azərbaycanda qadın hərəkatını canlandıraraq onun tarixində yeni bir mərhələ açmışdır.

Xalqın taleyini öz taleyində yaşayan Mehriban Əliyevanın mənəvi, ictimai və siyasi vəzifəni, məqsədi ülvi bir sevgiylə daşıması, vətəninə, xalqına qəlbinin sonsuz istəyi ilə xidmət etməsi ictimai mühitə gəldiyi vaxtlardan görünməyə başladı. Mehriban xanım gəncliyindən öz çalışqanlığı ilə hər yerdə və hər zaman uğurlara nail olması ilə fərqlənib. O, ziyalı ailəsində doğulub-böyümüş, mükəmməl təlim-tərbiyə almışdır. Gənc yaşından isə Ulu Öndər Heydər Əliyev kimi dövlət xadiminin ailəsində mənimsədiyi siyasi təlim və əhatəli sosial baxış, akademik Zərifə xanım Əliyevadan əxz etdiyi ictimai-mədəni davranış, insani nəciblik və mərhəmət, valideynlərindən aldığı nümunəvi ailə tərbiyəsi Xanım Mehriban Əliyevanın illər boyu formalaşan ictimai-siyasi-mədəni təməli olmuşdur. Mehriban xanımın qadın lider olaraq formalaşması və yüksəlməsi həm daxili istedadı, bacarığı, mükəmməl təhsili, praqmatik zəkasının, həm də taleyinə yazılmış Ulu Öndər Heydər Əliyev kimi böyük strateqin həyat və siyasət məktəbindən yetərli dərs almasının nəticəsidir.

Onun ictimai fəaliyyətə qoşulduğu illər Azərbaycanda xalqın milli oyanış dövrünün ilkin çağlarına təsadüf edir. Ulu Öndərin təşəbbüsü ilə yaranan Yeni Azərbaycan Partiyasının təşəkkül tapdığı 1992-ci ildən Mehriban xanım partiyanın üzvü olaraq müasir və müstəqil dövlətimizin qurulması və inkişaf etməsi prosesinin fəal iştirakçısına çevrildi. O, yaxşı dərk edirdi ki, bütün zamanlarda milləti xalq kimi tanıdan və bütün dünyada qəbul etdirən onun dili, mədəniyyəti, tarixi, milli-mənəvi dəyərləridir. Məhz buna görə də o, özünün çoxşaxəli fəaliyyətini bu amillər, prinsiplər üzərində qurdu.

Bütün ictimai şüuru ilə azərbaycançılıq ideologiyasına bağlı olması, dövlətçiliyin qorunması və qüdrətlənməsi naminə fəaliyyət göstərməsi az bir zamanda ona xalqın böyük rəğbətini, sevgisini qazandırdı. Onun fəaliyyətini qiymətləndirən bir çox xarici ölkələrin tanınmış siyasətçiləri, ictimai xadimləri qeyd edirlər ki, Mehriban Əliyeva Şərq ölkələrində siyasətin yalnız kişilərin işi olması barədə stereotipləri təkzib edir. Mehriban xanımın gənc və müstəqil dövlətimizin möhkəmlənməsi yolunda apardığı ideoloji mübarizəsinə, ümumən gördüyü işlərə nəzər yetirəndə bu xidmətin həcmini təsəvvür etmək, ölkənin və xalqın həyatında yeniliklərlə müşayiət olunan inkişafını görmək, duymaq elə də çətin deyil.

Mehriban xanım 1995-ci ildə Azərbaycan Mədəniyyət Fondunun prezidenti, 2002-ci ildə isə Azərbaycan Gimnastika Federasiyasının prezidenti kimi üzərinə böyük məsuliyyət götürərək yaddan çıxmış sahələri ətalətdən çıxararaq onlara kütləvilik elementləri ilə zəngin olan ictimai məzmun verdi. Azərbaycan mədəniyyətinin beynəlxalq aləmdə tanınması, təbliği üçün ilk olaraq "Azərbaycan-İrs" jurnalını təsis etməklə başladı. Təbii ki, görülən işlərin mahiyyətində nüfuzlu ictimai xadim olan Mehriban xanımın Azərbaycan mədəniyyətinə yeni nəfəs gətirməsi, onun tarixi keçmişindən bəhrələnməklə bugünkü inkişafına təkan vermək amalı dayanırdı.

Mehriban xanımın fəaliyyətinin mahiyyətində mərhəmət hissi dayanır. Onun özünün fikirləri sözlərimizi təsdiq edər: "Həqiqi mərhəmət real işlər görülməsini, real məsələlərin həllini, konkret addımlar atılmasını tələb edir. Biganəlik və laqeydlik ən dəhşətli xüsusiyyətdir. İstər ictimai xadim ol, istərsə də dövlət qulluğunda işləyən adam. İnsanlıq hissini qoruyub saxlamaq lazımdır".

Mehriban xanım 2004-cü il mayın 10-da Heydər Əliyev Fondunun yaradılması ilə Ulu Öndər Heydər Əliyevin vətənimizin və xalqımızın inkişafı naminə gördüyü işləri, işıqlı ideyalarını yüksək səviyyədə davam etdirir. Onun qarşıya qoyduğu məqsəd həyatımızın mühüm sahələrinin inkişafına yönəlmiş çalışmalar, milli-mənəvi dəyərləri özündə ehtiva edən prinsiplər üzərində qurulmuşdur. Bu məqsəd fondun fəaliyyət proqramında daha dəqiq ifadə olunmuşdur: "Milli-mənəvi dəyərlərin qorunması və Azərbaycan mədəniyyətinin geniş təbliğ olunması ilə bağlı işlərin aparılmasına kömək etmək, əhalinin rifahının yüksəldilməsinə yönəldilmiş müxtəlif proqram və tədbirləri, elm, təhsil, mədəniyyət, səhiyyə və idmanın inkişafını təmin edən layihələri dəstəkləmək, uşaq və gənclərin sağlam, milli-mənəvi dəyərlərə sadiq, hərtərəfli biliklərə malik vətəndaş kimi yetişdirilməsi işinə xidmət etmək, Azərbaycanın beynəlxalq nüfuzunun artırılması ilə bağlı tədbirlərin reallaşdırılmasına yardım göstərmək". Görülən işlərin, irimiqyaslı layihələrin həcmini təsəvvürə gətirəndə aydın olur ki, bütün bunlar Birinci vitse-prezident Mehriban xanım Əliyevanın vətən və xalq naminə qarşıya qoyduğu vəzifələrin öhdəsindən ləyaqətlə gəldiyinin bariz nümunəsidir.

Heydər Əliyev Fondu nəinki irimiqyaslı, möhtəşəm layihələri həyata keçirmiş, hətta fəaliyyət göstərdiyi müddətdə Azərbaycanın xaricdə böyük nüfuz qazanmasına, dünyanın öndə olan ölkələrindən birinə çevrilməsinə güclü dəstək olmuşdur. Prezident İlham Əliyev fondun fəaliyyətini yüksək qiymətləndirərək demişdir: "Mehriban Əliyevanın rəhbərliyi ilə fond nəinki Azərbaycanda, eyni zamanda regionda görülən işlərin həcminə görə ən böyük ictimai təşkilata çevrilmişdir".

Həqiqətən, Mehriban Əliyevanın genişmiqyaslı fəaliyyəti ölkənin ictimai-sosial, mədəni həyatını əhatə etməklə bitmir. O, Azərbaycanın milli-mənəvi dəyərlərini, mədəniyyətini, ölkəmizin özünəməxsusluğunu, özəlliklərini dünyada böyük fədakarlıqla, uğurla təbliğ edir, qədim ənənələrimizlə bağlı olan multikultural dəyərləri, tolerantlığı başqa ölkələrdə əməli işləri ilə nümayiş etdirir. Bir daha xatırladaq ki, bütün bunlar aydın təfəkkürə malik olan bir qadının - respublikanın Birinci vitse-prezidenti, ölkənin birinci xanımı Mehriban Əliyevanın fəaliyyəti sayəsində mümkün oldu. İşgüzarlığı, böyük səyi və bacarığı ilə seçilən Mehriban xanım müsahibələrinin birində birinci xanım missiyasının məsuliyyətini şərh edərək demişdir: "Hər şey bu və ya digər insanın öz vəzifələrinə nə dərəcədə ciddi yanaşmasından asılıdır. Aydın şəkildə dərk etmək lazımdır ki, müəyyən anda sən fərdi şəxsdən ictimai şəxsiyyətə çevrilirsən. Sən artıq təkcə özünü və öz ailəni yox, öz ölkəni təmsil edirsən. Bu barədə özünə hesabat verməli, sözlərində, qərarlarında, hərəkətlərində daha təmkinli olmalısan. Bu, çox məsuliyyətli yükdür..."

Amma Mehriban xanımın ictimai fəaliyyəti təkcə Heydər Əliyev Fondu ilə məhdudlaşmır. Onun ölkəmizdə idmanın inkişafına göstərdiyi qayğıkeşlik, böyük dəstək idmançılarımızın beynəlxalq yarışlarda uğurlar əldə etməsinə səbəb olur. Mehriban xanımın Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin İcraiyyə Komitəsinə üzv seçilməsi ölkəmizdə idmanın inkişafına əlavə təkan vermişdir. Azərbaycanda bir-birinin ardınca keçirilən beynəlxalq idman oyunları dünyanın nüfuzlu dövlətlərinin böyük marağına səbəb olmuşdur. Təsadüfi deyil ki, Mehriban xanımın "Bakı-2015" I Avropa Oyunları Təşkilat Komitəsinin sədri kimi fəaliyyəti iştirakçı ölkələr tərəfindən yüksək qiymətləndirilmişdir. Dövlət başçısı isə onu bu fəaliyyətinə görə "Heydər Əliyev" ordeni ilə təltif etmişdir. Ölkəmizdə IV İslam Həmrəyliyi Oyunlarının uğurla keçirilməsində də Təşkilat Komitəsinin sədri kimi onun zəhməti qiymətsizdir.

Ulu Öndər Heydər Əliyev və Prezident İlham Əliyevin dövlətçilik ideyalarından güc alan Mehriban xanım Əliyevanın humanizm və insanpərvərlik ideallarına sadiq qalaraq reallaşdırdığı genişmiqyaslı layihələr onu xalqın sevimlisinə çevirmişdir. Lakin sonralar Mehriban xanımın üzərinə daha bir tarixi missiya düşdü. O, milli dövlətçilik tariximizdə ilk dəfə olaraq Birinci vitse-prezident təyin olundu. Bu vəzifədə Mehriban xanım Əliyevanın ilk keçirdiyi müşavirə müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinin mənzillə təmin edilməsinə həsr edildi. Birinci vitse-prezident bildirdi ki, qaçqın və məcburi köçkün soydaşlarımızın sosial, təhsil, məşğulluq, yaşayış və tibbi təminatı üçün lazım olan tədbirlərin mərhələlərlə həyata keçirilməsi davam edəcəkdir.

Mehriban xanım Əliyevanın xalqımızın maraqlarının müdafiəsinə yönəldilmiş hərtərəfli fəaliyyəti Azərbaycan qadınının cəmiyyətdəki rolu barədə aydın təsəvvür yaradır. O, humanizm və qayğıkeşlik kimi keyfiyyətləri təcəssüm etdirməklə hamı üçün xeyirxahlıq və mərhəmət nümunəsidir.

Mehriban xanım eyni zamanda Prezidentin ən yaxın silahdaşı, qayğıkeş ana, sevimli nənədir. Ailə qayğıları, ictimai və siyasi fəaliyyəti bir arada və yüksək səviyyədə yerinə yetirmək böyük peşəkarlıq və səbir tələb edir. Bununla bağlı Mehriban xanım deyir: "Mən öz vəzifələrimi vaxtında yerinə yetirmək üçün düzgün iş forması, düzgün tarazlıq tapmağa çalışıram. Əlbəttə, mən ilk növbədə həyat yoldaşımın xanımıyam, uşaqlarımın anasıyam, nəvələrim var və həyatımın bu hissəsinə ayırdığım diqqətin ikinci plana keçməsini əsla istəmirəm".

Azərbaycanın birinci xanımının çoxşaxəli fəaliyyətinin nəinki Azərbaycanda, ölkə hüdudlarından kənarda da rəğbətlə qarşılanmasının səbəbləri kifayət qədər sadədir. O, əzmkar fəaliyyəti ilə təkcə milli-mənəvi dəyərlərin, mənəvi və qeyri-maddi irsin dünya miqyasında təbliğini deyil, həm də sivil dünyada sülhü, sabitliyi, sivilizasiyalararası dialoqu, multikulturalizmi, bir sözlə, insanlığın tərəqqisinə yönələn ali ideyaların reallaşdırılmasını, bu sahələrdə səylərin birləşdirilməsini hədəfə almışdır.

Mehriban xanım Əliyeva 2005-ci, 2010-cu və 2015-ci illərdə üçüncü, dördüncü və beşinci çağırış Azərbaycan Respublikasının Milli Məclisinin deputatı seçilmişdir. Milli Məclisin deputatı kimi Mehriban xanım, sözün əsl mənasında, xalqın elçisi olmuşdur. Millət vəkili kimi onun ölkədə iqtisadi islahatların hüquqi bazasının təkmilləşdirilməsi, sahibkarların qanuni mənafelərinin qorunması və işgüzar fəaliyyətinin gücləndirilməsi istiqamətində fəaliyyəti aktual problemlərə olan həssas münasibətin ifadəsi idi. Milli Məclisdə respublikamızın qeyri-neft sektorunun, xüsusilə də regionlarda kiçik və orta sahibkarlığın inkişafı istiqamətində ayrı-ayrı regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının qəbul edilməsi, iri infrastruktur layihələrinin həyata keçirilməsi ilə bağlı qanunlara dəyişiklik edilməsi, əhalinin yoxsulluq səviyyəsinin minimuma endirilməsi, kiçik və orta sahibkarlığın, xüsusən fermer təsərrüfatlarının daha da inkişaf etməsinə şərait yaradan yeni qanunların qəbul edilməsində Mehriban xanımın iştirakı diqqətəlayiq olmuşdur. Elə bu səbəbdən Birinci vitse-prezident Mehriban xanımın ölkə iqtisadiyyatının aktual problemlərinə olan həssas münasibəti Azərbaycan sahibkarları tərəfindən yüksək qiymətləndirilir.

2019-cu ilin noyabr ayında Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi altında Moskvada keçirilmiş 10-cu Azərbaycan-Rusiya Regionlararası Forumunda Azərbaycan Sahibkarlar Konfederasiyasının nümayəndələri də iştirak etmişlər. Forum zamanı kiçik və orta sahibkarlığın inkişafı, kənd təsərrüfatı, turizm sektorları üzrə panellərə konfederasiya prezidentinin rəhbərlik etdiyi nümayəndələr də qatılmışlar.

Bütün dünyanı çənginə almış koronavirus pandemiyasının Azərbaycanda da böyük çətinliklər yaratdığı, sərt karantin tədbirlərinin zərurət olduğu günlərdə Mehriban xanımın insanlarımıza "Sizin Mehriban" imzası ilə bitən müraciətləri yaxşı yadımızdadır. Onun səmimi sözləri, doğma bir insan kimi vətəndaşlara çağırışları pandemiya ilə bağlı maarifləndirmə işlərinin aparılmasında, karantin qaydalarının hər kəs üçün normaya çevrilməsində böyük rol oynadı. Bütün bunların sayəsində Azərbaycan pandemiyadan ən az ziyan çəkən ölkələrdən oldu. Dövlətimizin pandemiyanın ziyanlı təsirlərinə məruz qalmış biznes subyektləri üçün nəzərdə tutduğu dəstək paketlərinin hazırlanmasında, bu paketlər çərçivəsində verilən yardımların öz ünvanına çatmasına nəzarət işinin təşkilində Mehriban xanım Əliyevanın da müstəsna əməyi olmuşdur.

Mehriban xanım Əliyeva milli-mənəvi ideallara, humanist, insanpərvər dəyərlərə sadiq gənc nəslin formalaşdırılması, gender bərabərliyinin təmini, sivilizasiyalararası dialoqun təşviqi, nüfuzlu beynəlxalq qurumlarla əməkdaşlığın dərinləşdirilməsi, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması ilə bağlı ölkəmizin haqlı mövqeyinin beynəlxalq aləmdə dəstəklənməsi istiqamətində də son dərəcə uğurlu nəticələrə imza atmışdır.

Azərbaycanın birinci xanımının həyata keçirdiyi layihələr ölkə hüdudları ilə məhdudlaşmayıb, ümumbəşəri mahiyyəti ilə diqqəti cəlb edir. Xüsusən də Mehriban xanımın Şərqlə Qərb arasında mədəni dialoqa nail olmaq, fərqli sivilizasiyaları bəşəri ideallar naminə bir araya gətirmək, dini tolerantlığı, multikulturalizmi gücləndirmək, gender bərabərliyini təmin etmək istiqamətindəki fədakar fəaliyyəti beynəlxalq miqyasda təqdir edilir.

44 günlük Vətən müharibəsində qazanılan möhtəşəm Qələbə ölkədə formalaşmış siyasətin layiqincə davam etdirilməsinin məntiqi nəticəsidir. Torpaqlarımızın işğaldan azad olunması tariximizə və dövlətçiliyimizə qızıl hərflərlə yazılan böyük zəfərdir. Hələ 2-ci Qarabağ müharibəsi başlamamışdan öncə Birinci vitse-prezident xalqa müraciətində yazmışdır: "Hörmətli həmvətənlər! Son günlər baş verən hadisələr ölkəmizin hər bir vətəndaşını narahat edir. İşğalçının növbəti təxribatına dərhal layiqli cavab verildi. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Tanrıdan yaralı əsgərlərimizin tezliklə sağalmasını diləyirəm. Tanrı hər bir Azərbaycan döyüşçüsünün həyatını və sağlamlığını qorusun. Bu günlərdə bizim hamımızı emosiyalar bürüyür. Azərbaycan Ordusunun döyüş qabiliyyətinə, qəhrəman oğullar yetişdirən analara görə, vətəndaşlarımızın vətənpərvərlik hissinə, ilk çağırışdan Vətənin müdafiəsinə qalxmağa hazır olan gənclərə və on minlərlə könüllüyə görə, ölkəmizdən kənarda öz birmənalı mövqeyini bildirən, dövlətimizi və ordumuzu dəstəkləyən minlərlə azərbaycanlıya görə qürur hissi keçiririk. Birlik və ruh yüksəkliyi nümayiş etdirərək tarixi həqiqətin təntənəsi - Azərbaycanın ərazi bütövlüyünün bərpası üçün hər bir addıma hazır olmaq bizim müqəddəs mübarizəmizdə güclü və təsirli vasitədir. Bu günlər ərzində əsl Vətəndaş mövqeyi nümayiş etdirən hər kəsə minnətdaram. Unutmayaq ki, bu gün biz bir amalımız olan millət, xalqıq. Bizə zəfər lazımdır. Hamımız üçün bir qələbə. Qalib gələn isə gücü birlik, ağıl və iradə ilə möhkəmlənən olur. Mən doğma Azərbaycanımı və öz müdrik, mərd və mərhəmətli xalqımı hədsiz dərəcədə sevirəm! Bizim işimiz haqq işidir və Tanrı bizimlədir! Uca Tanrı Azərbaycanı qorusun!"

Qarabağ müharibəsində həlak olmuş şəhidlərin ailələrinə və qazilərə Mehriban xanımın təşkilatçılığı ilə göstərilən sosial yardımlar bu gün də davam edir. Ümumiyyətlə, şəhid ailələri və qazilərin problemlərinin həlli hər zaman dövlət üçün prioritet məsələdir. Bu sahədə dövlət orqanları ilə yanaşı, Heydər Əliyev Fondu da geniş və səmərəli işlər görür. Fond tərəfindən qazilər ortopedik vasitələrlə təmin edilir, şəhid və qazi övladlarının problemləri həll olunur, onlarla mütəmadi əlaqələr qurulur. Mehriban xanım öz çıxışlarının birində demişdir: "Bu gün biz Azərbaycan Ordusuna, əsgər və zabitlərimizə hədsiz dərəcədə minnətdarıq! Qəhrəmanlığınıza, şücaətinizə, cəsarətinizə və dözümlülüyünüzə görə sizə minnətdarıq! Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsinə görə! Vətənə sədaqətlə xidmət etmək nümunəsinə görə! Siz bizim fəxrimizsiniz! Bu əlamətdar gündə Vətən uğrunda həlak olmuş qəhrəman oğullarımızın nurlu xatirəsini ehtiramla yad edir, onların doğma və yaxınlarına səbir arzulayıram! Bütün əsgər və zabitlərimizi səmimi-qəlbdən təbrik edirəm, Uca Tanrıdan onların hər birinə möhkəm cansağlığı, sevinc, sevgi və səadət, doğma Azərbaycanımıza sülh və əmin-amanlıq bəxş etməsini diləyirəm!"

Bu gün doğma Qarabağ və Şərqi Zəngəzur torpaqlarında geniş quruculuq işləri aparılır, 30 il erməni vandalları tərəfindən dağıdılan yaşayış məntəqələri, sosial infrastruktur, talan olan ərazilər, meşələr, tarixi-mədəni-dini abidələr yenidən tikilir, qurulur. Bu işlərdə də Mehriban xanımın fəaliyyətini hiss etməmək mümkün deyil. Onun tapşırıqları əsasında həyata keçirilən layihələr Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirir.

Mədəniyyətimizin, incəsənətimizin və muğam sənətimizin beşiyi olan Şuşa şəhərində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşkilatçılığı ilə 2021-ci və 2022-ci illərdə keçirilən "Xarıbülbül" və "Muğam" Musiqi festivallarında bütün dünya bir daha dövlətimizin gücünün, xalqımızın müdrikliyinin, Prezidentin əzminin, yenilməz iradəsinin və bütün bunların nəticəsində isə Azərbaycanın, sözün əsl mənasında, ən böyük bəladan qurtulduğunun şahidi oldu.

Prezident və Birinci vitse-prezident mütəmadi olaraq Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən layihələrə şəxsən nəzarət edir, müxtəlif yeni obyektlərin təməlini qoyur, hazır olan infrastruktur obyektlərinin açılışını edir. Bəli, bu gün Prezident İlham Əliyevin rəhbərliyi altında işğaldan azad olunmuş torpaqların sürətli bərpası istiqamətində böyük işlər görülür. İnsanların tezliklə öz yurd-yuvalarına qayıtması üçün infrastruktur layihələrinin həyata keçirilməsi, işğal altında olmuş ərazilərimizdə həyatın yenidən canlanması üçün mühüm tədbirlər həyata keçirilir. Cari ilin iyul ayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə keçirilmiş bu ilin altı ayının yekunlarına həsr olunan müşavirədə dövlət başçısı öz çıxışında demişdir: "Biz Qarabağı, Zəngəzuru yenidən qururuq, yenidən qurmalıyıq. Buna nə qədər vəsait lazımdır. Hamısını öz hesabımıza edirik. Heç bir yerdən heç kim bizə bir manat yardım etməyib, hamısını özümüz edirik. Şəhərləri qururuq, kəndləri qururuq, binalar tikirik və hələ nə qədər edəcəyik".

Prezident işğaldan azad olunmuş rayonlara hər səfəri zamanı öz çıxışlarında iş adamlarına müraciət edərək onları bu ərazilərə sərmayə qoymağa çağırırdı. Son çıxışlarının birində isə qeyd etmişdir ki, "mən çox şadam ki, Azərbaycan sahibkarları böyük həvəslə, ürəklə bu işlərə qoşulurlar".

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası Prezidentin bu çağırışını dəstəkləyir və bildirir ki, iqtisadi siyasətimizin istiqamətlərini nəzərə alaraq azad edilmiş ərazilərdə sahibkarlığın inkişafı Böyük qayıdışın daha tez bir vaxtda həyata keçirilməsinə böyük töhfə verəcəkdir. Yeri gəlmişkən, qeyd edək ki, Azərbaycan Sahibkarlar Konfederasiyası bu istiqamətdə silsilə və ardıcıl tədbirlər həyata keçirir. Bu, istər qanunvericilik aktlarının təkmilləşdirilməsi, istər sahibkarlıq subyektlərinin problemlərinin öyrənilib əlaqədar təşkilatlar tərəfindən onların həllinə nail olunması, istərsə də sahibkarların maarifləndirilməsi işinin daha da dərinləşdirilməsi ilə bağlıdır. Bu gün hər bir sahibkar anlayır ki, Azərbaycanın tərəqqisi və gələcək inkişafı üçün həyata keçirilən genişmiqyaslı tədbirlərdə iştirak etməlidir. Müharibə dövründə ölkə başçısının ətrafında sıx birləşərək "dəmir yumruğ"un bir parçası olmağı bacarmış Azərbaycan sahibkarları Qarabağın yenidən firavanlığına qovuşması, işğaldan azad olunmuş torpaqların dirçəlməsi naminə də səylərini gücləndirməlidir.

Son illər ölkədə qadın sahibkarların da sayı əhəmiyyətli dərəcədə artmışdır. Bu işdə Birinci vitse-prezident kimi Mehriban xanımın rolu danılmazdır. Belə ki, ölkədə qadınların əmək bazarında kişilərlə bərabərhüquqlu iştirakına imkan yaradılması onların idarəetmə, biznes və hakimiyyət strukturlarında daha geniş təmsil olunması ilə nəticələnir. Ümumiyyətlə, Mehriban xanım tərəfindən görülən bütün işlər, atılan addımlar yalnız bir məqsədə - Prezident İlham Əliyevin inkişaf strategiyasının uğurla reallaşmasına, Azərbaycanın beynəlxalq nüfuzunun daha da yüksəlməsinə xidmət edir.

Bütün Azərbaycan xalqı kimi biz sahibkarların da ölkənin birinci xanımına hörməti danılmazdır. Bu hörməti Mehriban xanım Əliyeva hər bir azərbaycanlının istək və maraqlarına yaxın olması ilə qazanmışdır. Xeyirxahlıq onun amalında, şəfqət mənəviyyatında, dövlətçiliyə sədaqət əqidəsindədir. Praqmatiklik, kreativlik, siyasi çeviklik, yüksək erudisiya, alicənablıq, humanizm kimi ali şəxsi keyfiyyətlərə malik olan, milli köklərimizə, bəşəri ideyalara daim sadiq qalan Mehriban xanım Əliyeva vətənimizin və xalqımızın taleyində bundan sonra da müstəsna rol oynayacaq, ölkəmizin inkişafına yeni-yeni töhfələr verəcəkdir. Onun dövlətçiliyimizə və xalqımıza xidmət etmək arzusu bizdə olan bu inamı daha da gücləndirir.

*"Tanrı Azərbaycanı qorusun" söyləyən Xanım Mehriban Əliyeva Ulu Öndər Heydər Əliyevin dövlətçilik siyasətinin uğurla davam etdirilməsində, Prezident İlham Əliyevin "Güclü Azərbaycan" modelinin gerçəkləşdirilməsində müstəsna rolu və mövqeyi olan, modern Azərbaycan qadınının obrazını ölkəmizdə və beynəlxalq aləmdə canlandıran ictimai-siyasi xadimdir.*

**Məmməd MUSAYEV,**
***Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti***

# Sosial ədalətə söykənən humanist missiya



Hər bir xalq tarixinin taleyüklü dönəmlərində xilaskarlıq missiyasını çiyinlərinə götürərək mürəkkəb vəziyyətlərdən çıxış yolunu müdrikliklə göstərən böyük şəxsiyyətlərinin dövlətçilik fəaliyyətinin, siyasi irsinin, idarəetmə fəlsəfəsinin təbliği və gələcək nəsillərə çatdırılması istiqamətində ardıcıl addımlar atır. Ötən əsrin 60-cı illərindən başlayaraq respublikamızın davamlı yüksəlişi naminə həyata keçirdiyi möhtəşəm tədbirlərlə xalqının dərin rəğbətini qazanmış Ümummilli Lider Heydər Əliyevin dövlətçilik irsinin öyrənilməsi, ideyalarının praktik həyatda tətbiqi, gələcək nəsillərə çatdırılması bu mənada Azərbaycan üçün xüsusi aktuallıq kəsb edir.

Azərbaycan Prezidenti İlham Əliyevin 29 sentyabr 2022-ci il tarixli "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında" Sərəncamına əsasən, yubileyi bu il respublika səviyyəsində geniş qeyd edilən Ulu Öndər Heydər Əliyevin siyasi fəaliyyətinin ayrı-ayrı mərhələlərinin nəzərdən keçirilməsi yarım əsrdən çox müddətdə ölkəmiz ətrafında cərəyan edən mürəkkəb hadisələrin mahiyyətinə işıq saçır. Bu səhifələri vərəqlədikcə bir daha əmin olursan ki, Heydər Əliyev milli ideallara bağlı şəxsiyyət kimi dövlətə rəhbərliyinin hər iki mərhələsində vətənə, xalqa, torpağa sonsuz məhəbbət və sədaqət hissi, qurub-yaratmaq amalı ilə yaşayıb, milli ideallara sadiq olub.

Dövlət başçısı İlham Əliyev Ulu Öndərin əsasını qoyduğu strateji siyasi kursu son 20 ildə bütün sahələrdə inamla davam etdirməklə yanaşı, Heydər Əliyev ideyalarının cəmiyyətdə praktik surətdə gerçəkləşməsini də təmin edib. 2004-cü il 10 mart tarixli "Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin xatirəsinin əbədiləşdirilməsi haqqında" fərman əsasında hələ 1970-80-ci illərdə inşasına əzmlə nail olduğu bir sıra möhtəşəm tikililərə Ümummilli Liderin adı verilib, ictimai əsaslarla Heydər Əliyev Fondu yaradılıb.

Fondun son 19 ildəki çoxşaxəli fəaliyyəti vətəndaşların hüquq və azadlıqlarının yüksək səviyyədə təminatına, milli genofondun qorunmasına, fərqli sivilizasiyaların dialoquna, keçmişlə gələcək arasında mənəvi körpünün salınmasına, sülh və tərəqqiyə xidmət edən mütərəqqi, sağlam ideyaların təbliğinə yönəlib. Qurum ilk gündən elm, təhsil, mədəniyyət, səhiyyə, idman, ekoloji sahələrə aid proqram və layihələrin hazırlanıb həyata keçirilməsi, sağlam mənəvi dəyərlərin qorunması ilə bağlı aparılan işlərə kömək məqsədini qarşıya qoyub. Fondun fəaliyyətinə nəzər saldıqda hər zaman mütərəqqi yeniliklərin təşəbbüskarı kimi çıxış edən, milli və mədəni irsin hamisi olan, bəşəriyyətin nicatına, insanlığın yüksəlişinə xidmət edən, humanist dəyərlərin inkişafına çalışan, fərqli mədəniyyətlərin dialoquna töhfələrini verən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın müstəsna xidmətləri xüsusi vurğulanmalıdır.

Azərbaycanın birinci xanımının çoxşaxəli fəaliyyəti milli mənəvi dəyərlərə söykənən, intellektual yüksəlişə xidmət edən ideyaların cəmiyyətdə daha da zənginləşməsinə, mədəniyyət, təhsil, səhiyyə, idman sahələrində son dərəcə gərəkli layihələrin həyata keçirilməsinə və milli həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasına yönəlib. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti vəzifəsində çalışdığı ötən 6 ildə Azərbaycan cəmiyyəti Mehriban xanım Əliyevanın yüksək idarəetmə bacarığına, əzmkarlığına, təşəbbüskarlığına, həyata keçirilən proqram və layihələrə yaradıcı baxışına bir daha şahidlik edib. Mütləq əksəriyyət bu fikirdədir ki, Birinci vitse-prezident dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən, yüksək sosial rifaha və tərəqqiyə xidmət edən islahatlar kursunun uğurla reallaşdırılması və səmərəli nəticələr verməsində fəal təşəbbüskarlıq göstərir. Bu missiya Prezident İlham Əliyevin reallaşdırdığı strateji siyasi kursun səmərəli nəticələrinin hər bir vətəndaşın həyatında qabarıq duyulmasına və milli maraqlarımızın bütün platformalarda etibarlı müdafiəsinə hesablanıb.

Son 6 ilin reallıqları bir daha təsdiqləyir ki, dövlət başçısının 21 fevral 2017-ci il tarixli sərəncamı əsasında Mehriban xanım Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti vəzifəsinə təyin edilməsi cəmiyyətin sosial sifarişinə əsaslanan tarixi əhəmiyyətli qərar olub. 2016-cı il 26 sentyabr tarixdə keçirilmiş ümumxalq referendumunun nəticəsi kimi təsis edilmiş bu vəzifəyə milyonların sevgisini qazanmış bir şəxsiyyətin təyin olunması haqlı olaraq Azərbaycanın dövlət idarəçiliyi sistemində keyfiyyətcə yeni mərhələnin başlanğıcı kimi dəyərləndirilir. Əminliklə deyə bilərik ki, ali dövlət vəzifəsinə çoxşaxəli fəaliyyəti ilə milyonla insanın rəğbətini qazanmış bir şəxsiyyətin təyin olunması dövlət idarəetməsində sistem əhəmiyyətli dəyişikliklərə imkan yaradıb. Bu təyinat ilk növbədə idarəetmə modelinin müasirləşdirilməsi, struktur və kadr islahatlarının sürətləndirilməsi baxımından mühüm nəticələr verib. Eyni zamanda Birinci vitse-prezidentin fəaliyyəti idarəetmənin çevik mexanizmlər əsasında təşkili, xalqla hakimiyyət arasındakı mənəvi-siyasi tellərin real, əməli fəaliyyət müstəvisində möhkəmləndirilməsi baxımından səmərəli olub.

Bu gün respublikamızın dayanıqlı inkişafının başlıca şərti səmərəli dövlət idarəetməsi sistemi formalaşdırmaq, özəl sektorun inkişafına hər cür şərait yaratmaq, qeyri-neft sektorunu gücləndirmək, neft-qaz gəlirlərindən asılılığı azaltmaqdır. İxracyönümlü inkişaf modelinin formalaşdırılması yönümündə ardıcıl islahatlar həyata keçirən dövlət başçısı keyfiyyətcə yeni mərhələ kimi səciyyələndirilə biləcək son illərdə komandası qarşısında həm də yeniləşmə zəruriliyi ilə bağlı aydın hədəflər müəyyənləşdirib. Belə ki, məmurların etik-mənəvi davranışları, müasir baxışı, yeniliklərə hazırlığı, dünyadakı prosesləri adekvat qiymətləndirmək bacarığı, sosial sifariş amilini nəzərə alması təkcə dövlət idarəçiliyinin mahiyyətinə deyil, ümumilikdə cəmiyyətdəki mənəvi ab-havaya, ictimai münasibətlər sisteminə təsirini göstərir. Dövlət və xalq təəssübkeşliyi olmayan dövlət məmurunun şəxsi maraqlara köklənən fəaliyyəti bəzən idarəçilikdə sağlam harmoniyanı pozaraq sosial ədalət prinsipinin, humanist dəyərlərin və milli mənəvi dəyərlərin aşınmasına, ictimai münasibətlərdə, eləcə də situasiyaların idarə olunmasında problemlərin yaranmasına gətirib çıxarır.

Prezident İlham Əliyev bununla bağlı haqlı olaraq deyib: "Məmur xalqın xidmətçisidir, vətəndaşa xidmət, kömək göstərməlidir, yekəxanalıq etməməlidir. Hansısa qanunsuz tələb irəli sürməməlidir. Özünü təvazökar aparmalıdır. Özü və ailə üzvləri nümunə olmalıdır. Rüşvətxorluqla, soyğunçuluqla məşğul olmamalıdır. Mən hər bir dövlət məmurunu ya icra başçısı, ya başqa vəzifəyə təyin edəndə göstəriş verirəm ki, get insanlara qulluq et, xidmət göstər, dövlətə xidmət et, təmiz işlə. Amma əfsuslar olsun ki, bəziləri nəticə çıxarmırlar".

Göründüyü kimi, dövlət məmurları qarşısında vətəndaşların mənafeyi naminə daha səy və bacarıqla işləmək, islahatların düzgün, vaxtında reallaşdırılmasını təmin etmək, xalqın xidmətçisi olmaq kimi ümdə vəzifələr müəyyənləşdirilib. 2018-ci ilin prezident seçkilərindən sonra həyata keçirilən sosial islahatlar paketinin əsas məqsədi ölkə əhalisinin sosial rifahının yaxşılaşdırılması, neftdən asılı olmayan dayanıqlı inkişaf strategiyasının formalaşdırılması ilə yanaşı, ümumilikdə idarəçilik fəlsəfəsinin müasirləşdirilməsi təşkil edir. Belə məsuliyyətli mərhələdə Mehriban xanım Əliyevanın hakimiyyət komandasının cəmiyyətdə nəzərəçarpacaq nailiyyətləri, təmiz imici olan, yüksək intellektə, idarəetmə və menecer təfəkkürünə malik kadrlar hesabına komplektləşdirməsi prosesinə sanballı töhfələr verməsi onun Birinci vitse-prezident vəzifəsində uğurlu fəaliyyətini şərtləndirən mühüm məqamlardır.

Müsahibələrinin birində Mehriban xanım Əliyeva idarəetməyə yeni islahatçı baxışını özünəməxsus şəkildə ifadə edərək rəhbər şəxsdə verilən vədlərə sadiqlik kimi vacib keyfiyyəti xüsusi önə çəkib: "Mənim üçün insanlarla işləmək bacarığı, sənin baxışlarını prinsipcə bölüşən, sənin ardınca getməyə hazır olan həmfikirlər komandası yaratmaq bacarığı daha vacibdir. Çünki onlar anlayırlar ki, sənin işlərin xeyirxahlığa yönəlib. Çox vacibdir ki, bəyan və elan edilənlər, həqiqətən, baş verənlərlə üst-üstə düşsün. Çünki insanlar hər şeyi görür, hər şeyi anlayırlar".

Bu səmimi fikirlərindən göründüyü kimi, Prezident İlham Əliyevin hələ 2003-cü ilin prezident seçkilərində irəli sürdüyü "Əsl siyasət konkret real iş görməkdən ibarətdir" tezisini Azərbaycanın Birinci vitse-prezidenti də fəaliyyətində daim rəhbər tutur. Ali dövlət vəzifəsi Mehriban xanım Əliyevanın vətəndaşlara daha layiqli xidmət göstərmək, xalqın maraq və mənafeyini beynəlxalq arenada lazımınca təmsil etmək imkanlarını daha da genişləndirib. Müasir idarəetmə səriştəsi, yeniliklərə açıq olması, ölkə qarşısındakı hədəfləri aydın təsəvvür etməsi, ümumən, hökumətin fəaliyyətinin səmərəliliyini yüksəldib.

İstənilən cəmiyyətdə ədalət, insanpərvərlik, dürüstlük, yardımsevərlik kimi ali dəyərlərin özünə möhkəm dayaqlar tapması nəcib, alicənab, kamil şəxsiyyətlərin milli hədəflərə istiqamətlənən əzmkar fəaliyyəti sayəsində mümkün olur. Bu ali missiyanı əsl vətəndaşa və ali dövlət məmuruna xas məsuliyyətlə üzərinə götürərək şərəflə həyata keçirən Mehriban xanım Əliyeva Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi kursa ictimai rəğbəti daha da gücləndirib.

Cəmiyyətin aztəminatlı təbəqələrinin, xüsusilə məcburi köçkünlərin, İkinci Qarabağ müharibəsi şəhidlərinin ailə üzvlərinin, qazilərin və müharibə veteranlarının problemlərinin həlli, onların hərtərəfli dövlət qayğısı ilə təmin olunmaları istiqamətində apardığı fəal iş Mehriban xanım Əliyevanın fəaliyyətinin insanpərvər mahiyyətini bir daha təsdiqləyib. Yaxından iştirakı ilə idarəetmənin müasir əsasda aparılması, böhran situasiyalarının səmərəli idarə olunması qarşıya qoyulan hədəflərin uğurla reallaşmasını təmin edir. Çoxşaxəli əzmkar fəaliyyətinin cəmiyyətdə rəğbətlə qarşılanması həm də onunla şərtlənir ki, Mehriban xanım Əliyeva fəaliyyətində insan amilini daim önə çəkir, cəmiyyətin mövcud resurslarının bu yöndə səfərbər olunmasına çalışır. Əslində, insan amili, vətəndaşın rifahı və firavanlığı məsələləri onun 2004-cü ildən rəhbərlik etdiyi Heydər Əliyev Fondunun da fəaliyyətinin əsas qayəsində yer alıb. Fond 19 illik fəaliyyəti dövründə reallaşdırdığı layihələrlə insanların ümid və pənah ünvanına çevrilib.

Prezident İlham Əliyev ölkədə yoxsulluğun aradan qaldırılması, insanları qayğılandıran sosial problemlərin həllini hökumət qarşısında mühüm vəzifələrdən biri kimi müəyyənləşdirib. Əlbəttə, minimum əməkhaqqı, pensiya, təqaüd və müavinətlərin hazırkı məbləği qənaətbəxş səviyyədə olmasa da, müntəzəm olaraq artırılır, sosial xərclər dövlət büdcəsinin strukturunda əhəmiyyətli yer tutur. Bununla belə, mövcud problemlərin həllini sırf hökumətin üzərinə qoymaq, orta təbəqənin, qeyri-hökumət təşkilatlarının, vətəndaş cəmiyyəti institutlarını məsuliyyətdən tamamilə kənarlaşdırmaq da düzgün yanaşma olmazdı. Bu mənada Heydər Əliyev Fondunun dövlətin fəaliyyətinə hərtərəfli dəstəyə əsaslanan nəcib, xeyirxah fəaliyyəti digər qurumlar üçün nümunə, örnək sayıla bilər.

Azərbaycanın birinci xanımının bu fikri də maraq doğurur ki, müasir dövrdə xeyriyyəçilik daha geniş məna daşıyaraq cəmiyyətin rifahı naminə təmənnasız könüllü fəaliyyəti əhatə etməlidir. Bu fəaliyyət həm konkret fərdlərə və zəif müdafiə olunan qruplara, həm də ictimai həyatın müxtəlif sahələrinin - təhsilin, elmin, mədəniyyətin, incəsənətin inkişafının dəstəklənməsinə yönəldilə bilər. Mehriban xanım Əliyeva bununla bağlı deyir: "Mənə belə gəlir ki, xeyriyyəçilik fəlsəfəsinin əsası ilk növbədə insanların yaxşılıq etməyə çalışması, başqasının dərdinə şərik olmaq, onun halına yanmaq, altruizm, ehtiyacı olanlara kömək əli uzatmaq istəyi kimi insani keyfiyyətlərin və qabiliyyətlərin fundamental xarakterinin qəbul edilməsidir. Mənəviyyatın ali qanunlarına görə, xeyriyyəçilik fəaliyyətinin əsas motivi şəxsən özün üçün hər hansı dividendlər və ya səmərə gözləmək deyil, məhz insanlara sevgi və təmənnasız olaraq xeyirxah işlər görmək arzusundan ibarət olmalıdır".

Şübhəsiz, cəmiyyətdə iqtisadi cəhətdən imkanlı insanların, iş adamlarının sayının artması sevindiricidir. Fəqət məhz bu cür insanların cəmiyyət qarşısında sosial öhdəliklərini unutmasına, yalnız varlanmaq amalı ilə bütün nəcib təşəbbüslərdən kənarda qalmasına heç bir halda haqq qazandırmaq olmaz. Azərbaycanın birinci xanımı bu həssas məqama özünəməxsus yanaşma tərzi ilə xüsusi diqqət ayırır və cəmiyyətdə xeyriyyəçiliyin gerçək rolunun aydın dərkinə ehtiyac olduğunu bildirir. Təcrübə göstərir ki, yalnız bu halda cəmiyyətdə xeyirxah işlərin dairəsi genişlənir, qarşılıqlı kömək və dəstək sistemi yaranır. Bütün bunlar isə son nəticədə insanların qarşılıqlı münasibətlərinə, onların ovqatına və sosial əhvali-ruhiyyəsinə müsbət təsir göstərir.

Azərbaycanın Birinci vitse-prezidentinin bütün vəzifələrdə qarşıya qoyduğu əsas məqsəd yıxılanı ayağa qaldırmaq, köməksizə əl tutmaq, çarəsizdə ümid yaratmaq, bir sözlə, insanlara səmimi diqqət və qayğı istəyindən qaynaqlanır. Ölkə vətəndaşları onun insanlara diqqət və qayğı nümunələri ilə zəngin olan çoxşaxəli fəaliyyətinə nəzərən xeyirxah əməllərin nə qədər vacib, əhəmiyyətli olduğunu bir daha dərindən dərk edir.

Xüsusi vurğulamaq lazımdır ki, son 19 ildə layiq görüldüyü yüksək mükafat və titullar Azərbaycanın birinci xanımının mədəniyyət, elm, təhsil, səhiyyə, sosial-humanitar, gender bərabərliyi və digər sahələrdə həyata keçirdiyi çoxşaxəli fəaliyyətinin beynəlxalq miqyasda diqqət mərkəzinə çevrildiyini təsdiqləyib. Bu təşəbbüslər Azərbaycan haqqında obyektiv beynəlxalq rəyin formalaşmasına, həmçinin respublikamızın dünyamiqyaslı tədbirlərin təşkilatçısına çevrilməsinə imkan yaradıb. Azərbaycanın birinci xanımının 2006-cı ildə ICESCO-nun xoşməramlı səfiri adına, 2007-ci ildə "Qızıl ürək" və Dünya Səhiyyə Təşkilatının İhsan Doğramacı adına Ailə Sağlamlığı Fondunun mükafatlarına, "Əsrlərin xeyriyyəçiləri" Beynəlxalq Fondunun "Yaqut Xaç" ordeninə, 2009-cu ildə "XXI əsrin böyük qadını" laureatına, 2010-cu ildə isə Fransanın "Fəxri Legion" ordeninə, 2011-ci ildə Krans Montana Forumunun Qızıl medalına, 2012-ci ildə İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin fəxri professoru adına, "Birlik ulduzları" dövlətlərarası mükafatına və digər təltiflərə layiq görülməsi bunun əyani təzahürüdür. O, eyni zamanda Türkiyənin nüfuzlu "Ekovitrin" jurnalı tərəfindən keçirilmiş rəy sorğusunun nəticələrinə əsasən, "İlin birinci xanımı" (First lady) seçilib. Bütün bu mükafatlar dünyada fəaliyyəti ilə böyük nüfuz qazanmış, xüsusi xidmətləri olan insanlara verilir.

Heydər Əliyev Fondunun fəaliyyətinin əsas istiqamətlərindən birini Ulu Öndərin siyasi və mənəvi irsinin, ölməz ideyalarının öyrənilməsi, təbliği təşkil edir. Bir çox tədqiqatçılar bunu fondun mədəniyyət diplomatiyası sahəsindəki novatorluğu kimi də qiymətləndirirlər. Başqa sözlə, fond xalqın mədəni və mənəvi dəyərlərini özündə təcəssüm etdirən bir şəxsiyyəti təbliğ etməklə, əslində, bütünlükdə Azərbaycan xalqının ali dəyərlərini təbliğ edir. Çünki Heydər Əliyev Azərbaycan xalqının bütün mədəni dəyərlərini öz şəxsiyyətində və fəaliyyətində əks etdirən böyük şəxsiyyətdir.

Fond Azərbaycanda mədəniyyət diplomatiyasını mütəşəkkil, sistemli, təşkilatlanmış, müasir dövrün çağırışlarına uyğun, ən əsası, qlobal miqyasda həyata keçirən əlahiddə təşkilatdır. Bu mənada fondun fəaliyyətini bir çoxları Almaniyanın Höte İnstitutu və ya Böyük Britaniyanın Britaniya Şurası kimi təşkilatlarla da müqayisə edirlər. Adıçəkilən qurumlar kimi, Heydər Əliyev Fondu da təkcə Azərbaycanın deyil, Şərq dünyasının mühüm simvollarından birinə, milli dəyərlərinin əsas təbliğatçısına çevrilib.

Heydər Əliyev Fondu mədəniyyət diplomatiyasını milli mədəniyyətin geniş təbliği, ölkəmizin beynəlxalq nüfuzunun artırılması, ölkə həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, xarici ölkələrin təhsil müəssisələri, digər fond və təşkilatları ilə əməkdaşlığın inkişafı, beynəlxalq konfranslar və seminarların təşkili, təhsil mübadilələrinin reallaşdırılması kimi səmərəli vasitələrlə həyata keçirir. Ümumilikdə dünyanın əksər nüfuzlu media orqanlarında fondun reallaşdırdığı layihələrlə bağlı tez-tez dərc olunan materiallar Mehriban xanım Əliyevanın fəaliyyətinin beynəlxalq aləmdə diqqətlə izləndiyini və böyük rəğbətlə qarşılandığını bir daha təsdiq edir.

Milli həqiqətlərimizin dünyaya çatdırılmasında, ölkəmizin tanıdılmasında Azərbaycanın birinci xanımının yüksək təşkilatçılığı ilə ölkəmizdə həyata keçirilən beynəlxalq tədbirlərin də əhəmiyyətini xüsusi vurğulamaq lazımdır. Azərbaycan hələ 2012-ci ildə "Avroviya" musiqi yarışmasını yüksək səviyyədə keçirməklə müəyyən yanlış tərəddüdləri olan ölkələri, sözün həqiqi mənasında, heyrətləndirib, qərəzli, ölkəmizə düşmən mövqeyi bəsləyən şəbəkəni fakt qarşısında qoyub. Sonrakı mərhələdə I Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları, "Formula-1" yarışları zamanı respublikamız nümayiş etdirdiyi yüksək təşkilatçılıq, qonaqpərvərlik nəticəsində Avropanın təkcə iqtisadi deyil, mənəvi-intellektual, mədəni baxımdan zəngin, multikultural ölkəsi olduğunu sübuta yetirib. Şübhəsiz, bu tədbirlərin hər birinin yüksək səviyyədə keçirilməsi dövlət başçısı İlham Əliyevin diqqət və qayğısı ilə yanaşı, Heydər Əliyev Fondunun prezidenti, ICESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın yüksək təşkilatçılığı, müasir idarəetmə üslubu, ən başlıcası, Azərbaycanı dünyaya sivil, inkişaf edən dövlət kimi təqdim etmək məramının nəticəsi idi.

Azərbaycan xalqı 30 illik yurd nisgilindən sonra, nəhayət ki, 2020-ci ildə vətən müharibəsində işğal faktına son qoyaraq tarixi Zəfər qazanıb. Bu, həm də 30 ildən çox müddətdə vətən həsrəti ilə yaşayan insanların nisgilinə, habelə onların ümidsizliyinə son qoyulması olub, Böyük qayıdışa zəmin yaradıb. 44 günlük müharibə zamanı və sonrakı günlərdə Azərbaycanın Birinci vitse-prezidentinin rəsmi sosial şəbəkə hesabları üzərindən paylaşdığı dərin məzmunlu, səmimi fikirlər, eləcə də videogörüntülər cəmiyyətin vətənpərvətlik ruhunda köklənməsi, münaqişə ilə bağlı üzləşdiyimiz gerçəkliklərin dünya ictimaiyyətinə çatdırılması baxımından son dərəcə əhəmiyyətli olub.

Ümumiyyətlə, tarixə çevrilmiş Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin dünyaya çatdırılması, ölkəmizin haqlı mövqeyinin dolğun şəkildə ifadə edilməsi Azərbaycan Prezidenti İlham Əliyevlə yanaşı, birinci xanımın da hər zaman diqqət mərkəzində olub. Mehriban xanım Əliyevanın beynəlxalq tədbirlər çərçivəsində Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş əraziləri, həmin ərazilərdə xalqımıza məxsus tarixi, mədəni və dini abidələrin dağıdılmasına toxunmayan bir çıxışını belə xatırlamaq çətindir.

Heydər Əliyev Fondunun Qarabağla bağlı həqiqətlərin dünya miqyasında təbliği məqsədilə son 19 ildə müxtəlif dillərdə nəşr etdirdiyi kitabların, broşürlərin əhəmiyyətini də xüsusi qeyd etmək lazımdır. Bu istiqamətdə ilk layihə "Qarabağ həqiqətləri" toplusunun hazırlanması olub. Xaricdəki diplomatik nümayəndəliklərimiz, diaspor təşkilatlarımız və digər kanallarla bütün dünyaya yayılmış "Qarabağ həqiqətləri" toplusu "Qarabağın tarixi haqqında məlumat", "Qarabağ münaqişəsinin başlanması", "Xocalı soyqırımı", "Azərbaycana qarşı erməni təcavüzünün nəticələri", "Erməni terror təşkilatlarının Azərbaycana qarşı fəaliyyəti" kitabçalarından ibarətdir. Kitab dünyanın əksər ölkələrində Azərbaycan üçün vacib olan yeni informasiya mənbəyinin əldə olunmasında və xalqımızın haqq səsinin eşidilməsində əvəzsiz rol oynayıb.

Layihənin davamı olaraq fond "Azərbaycan həqiqətləri" filmlər toplusunun hazırlanmasına dəstək verib. Topluya erməni terror təşkilatlarının Azərbaycanda dinc əhaliyə qarşı həyata keçirdikləri soyqırımı aktlarından bəhs edən "Soyqırımı: Bakı", "Soyqırımı: Quba", "Soyqırımı: Şamaxı", "Xocalı soyqırımı", "Qaradağlı soyqırımı", "Ağdaban faciəsi" filmləri daxildir. Topluda həmçinin Ermənistan silahlı qüvvələrinin işğal etdikləri Şuşa və Ağdam şəhərlərində törətdikləri vandalizm aktlarını özündə əks etdirən "Dağıdılmış mədəniyyət beşiyi - Şuşa" və "Ağdam; Qafqazın Xirosiması" filmləri yer alıb.

Azərbaycan və ingilis dillərində hazırlanmış toplular ölkəmizin xaricdəki diaspor təşkilatları, diplomatik missiyaları vasitəsilə bütün dünyada yayılıb. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə birgə layihənin davamı olaraq "Azərbaycana qarşı müharibə: Mədəni irsin hədəfə alınması" kitabı ingilis dilində işıq üzü görüb. Kitaba işğal olunmuş rayonlarımızın hər birində olan mədəni sərvətlərimizin siyahısı, xəritələr, habelə Ermənistan ərazisində və işğal altındakı ərazilərdə tarixi-mədəniyyət abidələrimizin əvvəlki və indiki vəziyyətini əks etdirən videomateriallar əlavə edilib.

İkinci Qarabağ müharibəsindən sonra azad edilmiş ərazilərdə həyata keçirilən bərpa və quruculuq prosesinə Heydər Əliyev Fondu da öz dəstəyini verir. Fond Qarabağda, xüsusilə Şuşa şəhərində tarixi mədəniyyət abidələrinin, dini ziyarətgahların təmiri və bərpasında yaxından iştirak edir. Yeri gəlmişkən, avqustun 23-də Azərbaycan Prezidenti İlham Əliyev, Birinci xanım Mehriban Əliyeva, ölkəmizə dövlət səfərinə gəlmiş Özbəkistan Prezidenti Şavkat Mirziyoyev və xanımı Ziroatxon Mirziyoyeva Şuşaya səfərləri çərçivəsində Saatlı məscidində, Yaradıcılıq mərkəzində, Mehmandarovların malikanə kompleksində, ərazidəki ailə məscidində və bulaqda Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən bərpa və yenidənqurma işləri ilə yaxından tanış olublar.

Bütün bunlar deməyə əsas verir ki, təkcə Azərbaycanda deyil, ölkəmizin sərhədlərindən kənarda da böyük rəğbət qazanan, hər zaman köməyə, yardıma ehtiyac duyanların böyük himayədarı olan Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Ulu Öndərin ideallarını rəhbər tutaraq ümumbəşəri mədəniyyətə, sülhə və əmin-amanlığa sanballı töhfələrini verir.

*Özünün də söylədiyi kimi, başqalarına yaxşılıq, mərhəmət ömrü boyu onun üçün ümdə anlayışlara, ən ülvi insani keyfiyyətlərə çevrilib, eyni zamanda bu xeyirxahlıq missiyasının kökündə təmənnasızlıq dayanıb. Şübhə yoxdur ki, ölkəmizin nüfuzunu yüksəldən bu nəcib missiya bundan sonra da inamla davam etdiriləcək və milli intibah prosesinə təkan verəcəkdir.*

**Qüdrət KƏRİMOV,**
***"Xəzər" QSC-nin sədri, iqtisad elmləri doktoru***

# Vətənə xidmətin mükəmməl örnəyi

Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsi müasir tariximizdə yeni mərhələnin başlanğıcına çevrildi. Çünki indi Azərbaycanın yüksəlişi əvvəlki illərdən fərqli olaraq ərazi bütövlüyümüzün təmin olunduğu bir şəraitdə baş verir. Eyni zamanda Vətən müharibəsinin və bu müharibənin yaratdığı yeni reallıqların müstəvisində, Qarabağ və Şərqi Zəngəzurdakı bərpa və quruculuğun fonunda bütün dünya öz milli maraqlarını qətiyyətli təmin etməyi bacaran Azərbaycan dövlətinin uğurlarına şahidlik etməkdədir.

Belə bir şərəfli dövrdə hər birimizin qarşısında dayanan ən əsas mənəvi öhdəlik əsl vətəndaşlıq mövqeyi və milli təəssübkeşlik nümayiş etdirmək, öz fəaliyyətimizlə cənab Prezident İlham Əliyevin müdrik rəhbərliyi altında qazanılan uğurlara töhfə verməkdir. Əminliklə və qətiyyətlə deyə bilərik ki, respubilkamızın Birinci vitse-prezidenti Mehriban Əliyevanın fəaliyyəti və gördüyü işlər bu baxımdan ən gözəl nümunədir.

Mehriban Əliyeva Prezident İlham Əliyevin ən böyük silahdaşı kimi həm siyasi sferada, həm dövlət idarəçiliyində, həm də ictimai sektorda ortaya qoyduğu nümunəvi fəaliyyətlə nəinki Azərbaycanda, respublikamızın hüdudlarından kənarda da yaxından tanınan siyasi-ictimai xadimdir. Onun rəhbərliyi ilə Heydər Əliyev Fondunun, Azərbaycan Mədəniyyətinin Dostları Fondunun uzun illərdir ki, həyata keçirdikləri layihələr xalqımızın Ulu Öndəri Heydər Əliyevin əbədiyaşar ideyalarının həyata vəsiqə almasına xidmət edir. Məhz Mehriban Əliyevanın ictimai fəaliyyəti ilə bütün dünya Azərbaycan həqiqətləri ilə daha yaxından tanış olub. Heydər Əliyev Fondunun həyata keçirdiyi müxtəlif məzmunlu tədbirlər Ermənistanın işğalçı simasını qətiyyətlə ifşa edib, Xocalı hadisələrinin ayrı-ayrı ölkələrin parlamentləri tərəfindən Ermənistanın törətdiyi soyqırımı cinayəti kimi tanınmasını təmin edib. Bütün bunlar Mehriban Əliyevanı Azərbaycan cəmiyyətində həm də vətənpərvər, milli təəssübkeş kimi tanıdıb.

Mehriban Əliyeva Azərbaycan mədəniyyətinin, təhsilinin, səhiyyəsinin böyük himayədarıdır. Onun təşəbbüsü və Heydər Əliyev Fondunun xətti ilə indiyədək neçə-neçə mədəni və tarixi abidəmiz bərpa edilib, yenidən qurulub. Muğam sənətimizin, xalq musiqimizin qorunması, təbliği, mədəni-tarixi abidələrimizin bərpası, milli mədəniyyətimizin müxtəlif nümunələrinin UNESCO-nun maddi-mədəni irs siyahısına daxil edilməsi də Mehriban Əliyevanın mədəniyyətimiz qarşısındakı xidmətlərinin göstəricisidir. Bəli, Mehriban xanım Əliyeva yalnız Azərbaycan xalqının mədəniyyətinin bütün dünyada əzmkar təbliğatçısı deyil, həm də onun böyük himayədarıdır.

Heydər Əliyev Fondunun dəstəyi ilə inşa olunan yüzlərlə məktəb, uşaq bağçası, uşaq evi isə Mehriban Əliyevanın sosial təşəbbüslərinin təcəssümüdür. İrsi və qan xəstəliklərinin qarşısının alınması, autizm və daundan əziyyət çəkən uşaqların müalicəsi ilə bağlı fond tərəfindən yaradılan tibbi mərkəzlər milli genofondumuzun qorunmasına xidmət edir.

Elə bu nəcib fəaliyyətin nəticəsidir ki, Azərbaycan cəmiyyəti Mehriban Əliyevanı xeyriyyəçi və qayğıkeş insan, Heydər Əliyev Fondunu isə mərhəmət ünvanı kimi tanıyır. Çünki ölkəmizin birinci xanımı daim köməyə ehtiyacı olanların, əziyyət çəkənlərin, kimsəsiz və ahıl vətəndaşların yanındadır. Ümumiyyətlə isə, Mehriban xanımın çoxşaxəli fəaliyyətinin mərkəzində dayanan amillər vətənə xidmətlə yanaşı, həm də insan amilidir. Təsadüfi deyil ki, Mehriban Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən bütün sosial layihələrin məzmunu, qayəsi insanlara dayaq durmaqdan ibarətdir. Koronavirus pandemiyasının tüğyan etdiyi gərgin günlərdə biz bir daha bunun şahidi olduq.

Mehriban Əliyevanın Birinci vitse-prezident kimi də fəaliyyətinin məramı məhz insan amili üzərində formalaşıb. Yaxşı xatırlayırıq ki, 6 il əvvəl Birinci vitse-prezident kimi fəaliyyətə başladıqdan sonra Mehriban Əliyevanın ilk diqqət yetirdiyi məsələlər keçmiş məcburi köçkünlərin yaşayış mənzil şəraitlərinin yaxşılaşdırılması və Aprel döyüşlərində əlil olmuş hərbçilərimizin protezlərlə təmin edilməsi olmuş, bu istiqamətlərdə qısa müddətdə mühüm layihələr həyata keçirilmişdi.

Mehriban Əliyevanın fəaliyyətində diqqəti çəkən əsas məqamlardan biri də ondan ibarətdir ki, onun təşəbbüsləri ilə həyata keçirilən layihələr yalnız Azərbaycanla məhdudlaşmayaraq, ölkəmizin hüdudlarını aşır. Bu mənada Heydər Əliyev Fondunun xətti ilə xarici ölkələrdə keçirilən sosial layihələr, mədəniyyət və xeyriyyə tədbirləri ilə Mehriban Əliyeva Azərbaycanı dünyaya daha yaxından tanıdır. Məsələn, Heydər Əliyev Fondunun dost və qardaş Pakistanda, Vatikan dövlətində, Roma şəhərində, Rusiyanın müxtəlif vilayətlərində həyata keçirdiyi layihələr həm bəşəri irsin qorunmasına, həm də Azərbaycanın beynəlxalq səviyyədə yüksək imicinin formalaşmasına xidmət edir. Bu fəaliyyətinin nəticəsidir ki, Mehriban Əliyeva çoxsaylı beynəlxalq mükafatlara və titullara layiq görülüb.

Bu gün Azərbaycan öz tarixinin şanlı və şərəfli dövrünü yaşayır. Vətən müharibəsində qazanılan zəfərin ardınca işğaldan azad edilmiş torpaqlarımız Prezident İlham Əliyevin əzmi ilə bərpa edilir, yenidən qurulur. Bu prosesdə də hər birimiz hörmətli Mehriban xanım Əliyevanın nümayiş etdirdiyi əsl vətən və xalq təəssübkeşliyinə şahidlik edirik. Mehriban Əliyevanın şəxsi təşəbbüskarlığı ilə Heydər Əliyev Fondu tərəfindən Şuşa şəhərinin tarixi-mədəni abidələrinin, məscidlərinin bərpası istiqamətində çoxsaylı layihələr həyata keçirilib və bu proses davam etməkdədir.

Vətən torpaqlarını işğaldan azad edərkən ağır yaralanan, əlil olan qəhrəman oğullarımızın sağlamlığı da Mehriban xanım Əliyevanın diqqətindədir. Vətən müharibəsinin ilk günlərindən döyüşlərdə yaralanmış hərbçilərimizin müalicəsini şəxsi nəzarətinə götürən Mehriban Əliyevanın dəstəyi və qayğısı ilə neçə-neçə zabit və əsgərimiz əvvəlki sağlamlığına qovuşub, həyata qayıdıb.

Mehriban Əliyevanın fəaliyyəti o qədər genişdir ki, onların hamısını bir yazıda ifadə etmək çətindir. Və bu fəaliyyətin hər bir istiqaməti dövlətə və insanlara xidmətin nümunələridir. Bu gün Mehriban Əliyeva Birinci vitse-prezident kimi dövlət idarəçiliyinə, Azərbaycanın beynəlxalq əlaqələrinin genişlənməsinə, sosial problemlərin həllinə layiqli töhfələr verir, ehtiyacı olanlardan köməyini əsirgəmir. Bu yolda, bütövlükdə dövlətçilik və ictimai fəaliyyətində Mehriban Əliyevaya yeni-yeni uğurlar arzulayır, dövlətçilik və siyasi fəaliyyətində nailiyyətlər diləyirik.

***Cəbi QULİYEV,***
***Milli Məclisin deputatı***



# Yeni "Qarabağnamə"

## Müəllifi Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondudur

*İşıq qüdrətdir - qaranlıqları əridir...*
*İşıq dünyəviliyin yolgöstərənidir...*

İşıqlı insanlar da belədir - işığı nur kimi ömürlərə yayılır, ömürləri xalqın, dövlətin, dövlətçiliyin səyyarəsi olmağa yönəldir. Min illərdi belədir. Zərdüşt Peyğəmbərin yaşam fəlsəfəsi də bu işıqdan yaranır. "Xeyir" ifadəsinin bir yozumu da işıqdı - xeyirli düşüncə işıqdı, xeyirli fikir işıqdı, xeyirli əməl işıqdı; işıqlı adamların düşüncələri qaranlıqları aydınladır, onun xeyirli əməlləri cəmiyyəti işıqlı sabahlara yönəldir, bəşərin dünyaduyumunu durulaşdırır. Belə insanların bu günün hüdudlarını aşan dumduru ömrünün göyqurşağını - işığının qüdrətini necə görməyəsən? Xalq üçün, dövlət üçün, dövlətçilik üçün yaşanılan bu ömrün işığı, ziyası, nuru milyonların ömründədir. Belə insanların həyat fəlsəfəsi "Tanrı verən ömrü sənin üçün yaşayıram, Vətən!" kəlamı ilə ifadə edilməlidir. Edilir. Ediləcək də...

Mehriban xanım Əliyeva İ.M.Seçenov adına Birinci Moskva Tibb İnstitutunu fərqlənmə diplomu ilə bitirib. İxtisası etibarilə həkim olan, bu peşəni insanları yaşatmaq niyyətiylə seçən insanın düşüncələrində, həyat, ömür, yaşam fəlsəfəsində də yaşatma çaları var. Xalq üçün, dövlət üçün, dövlətçilik üçün dediyi hər fikir kəlam qüdrətindədir. "Vətənə ad olmayan illər ömürdən deyil" fikri bəşəri fikirdi, bəşəriyyəti qadalarsız, ağrı-acılarsız yaşatma niyyətinin ifadəsidir. Tolerantlıq budur! "Öz Vətənini sevənlər özgəsinin Vətəninə daş atmaz!" - işıqlı insanlar belə düşünür, belə deyir, dünyəvi düşüncələri bu deyilənlərə yönəldə bilir...

Mehriban xanım Əliyeva Prezident İlham Əliyevin 2017-ci il fevralın 21-də imzaladığı sərəncamla Birinci vitse-prezident təyin edildi. Birinci vitse-prezident hökumətin icraedici strukturunda əhəmiyyətinə görə prezidentdən sonra ikinci məsul şəxsdir. Bu baxımdan Mehriban xanım Əliyevanın dövlətçilik fəaliyyəti bilavasitə dövlətin suverenliyini, sərhədlərinin ciddi mühafizəsini, dövlət orqanlarının, təsisatlarının fəaliyyətinin daha da yüksəldilməsini, bir-birini tamamlamasını və digər işləri əhatələyir.

Milli-mənəvi dəyərlər xalqın tarixinin müəyyən dövrlərində yaranır, ayrılıqda və vəhdətdə min illərlə yaşadıla-yaşadıla qorunur, xalqını sevənlər onları cəfakeşlər kimi qoruyur. Xalqın milli-mənəvi dəyərlərinin bəşəri sərvət kimi qorunmasının cəfakeşi olmasının zəmanəti ilə Birinci vitse-prezident Mehriban xanım Əliyeva qürurla "Mənim xalqım!" deyə bilir.

"Qarabağnamə"lər yazılıb. Hərəsinin öz mündəricəsi var. 2016-cı ilin Aprel döyüşlərindən, İkinci Qarabağ müharibəsindən sonra mənəvi borc kimi yazılan "Qarabağnamə"lərdən birini Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu yazdı. Bu əsər "Hamımız bir Günəşin zərrəsiyik. Bu Günəş Vətəndi!" deyənlərin Qarabağ ünvanlı könül uvertürasıdı. Bu uvertüra şəhidlərin ruhunun, qazilərin səsidi...

Başlanğıc tarixi dəqiq bilinməyən qədim muğamlarımızın bəşəri heyrətini ümumiləşdirmək, Azərbaycanı dünyanın boyu görünən mədəniyyət ünvanlarından biri kimi tanıtmaq (və sevdirmək!) Azərbaycana Azərbaycan boyda tarixi xidmət olardı. Bu haqda düşünmək də, bu düşüncələri gerçəkləşdirmək kimi duyğular da işıqlı niyyət idi və onu işıqlı insan kimi tanınan (və belə də sevilən!) Mehriban xanım Əliyeva gerçəkləşdirdi. Dünyanın ən böyük konsert salonları Azərbaycan muğamının işığını azərbaycançılıq məfkurəsini, türkçülük ideologiyasını böyük sədaqətlə yaşadan insanın sayəsində gördü, onun vətənsevərliyinin işığında dərk etdi. Buna da qüdrət deyirlər.

2005-ci ildən Azərbaycanda Heydər Əliyev Fondunun dəstəyi ilə muğam müsabiqələri təşkil olunur. Bu gərəkli müsabiqə həm muğamın yaşadılması, inkişaf etdirilməsi, həm də elmi-nəzəri əsaslarla daha məsuliyyətlə inkişaf etdirilməsi konsepsiyasını böyük mənəvi coşqu ilə həyata keçirirdi. Müsabiqə iştirakçılarının ifalarına verilən qiymətlər, əslində, muğamlarımızın mahiyyətinin bir daha xatırladılması, xatırladılaraq yaşadılması niyyəti idi.

İkinci Qarabağ müharibəsi başlayanda xalq Birinci vitse-prezident Mehriban xanım Əliyevanın duyğuları tərpədən, ədalətli müharibəmizdə igid oğullarımızı döyüşə uğurlayan kəlamını da əsgəri çağırış bildi: "Qoy Uca Tanrı hər bir azərbaycanlıya müqəddəs Qarabağ torpağını öpməyi nəsib etsin!" Bu, ana duası idi. Ana duası çağırış idi. Ana duası, ana çağırışı Ali Baş Komandanın sərkərdəliyi ilə düşmənin müdafiə sədlərini darmadağın edən, döyüşə-döyüşə mövqe qələbələri qazanan, böyük qələbəyə yaxınlaşan döyüşçülərimizin döyüş əzminin, qələbə ruhunun səngərdaşı oldu. Mehriban xanımın Vətən adından dediyi kəlmələr də döyüşənlərin qəlbindəydi. Bu da qüdrət kimi yaşadıldı...

Azərbaycan Ordusunun böyük zəfəri ölkəmizin siyasi imicini də yüksəltdi, dünya dövlətlərinin ona ehtiramını da artırdı. Zəfərdən sonra Prezident İlham Əliyevin işğaldan azad edilmiş ərazilərə səfərlərində Birinci vitse-prezident Mehriban xanım Əliyeva da olur, dövlət başçısı ilə birlikdə quruculuq işlərinin başlanğıcında, müxtəlif obyektlərin təməlqoyma mərasimlərində iştirak edir. Bünövrənin qoyulmasında bu səviyyədə iştirak sevginin ifadəsidir, sözlə ifadə edilə bilməyən ana xeyir-duasıdır. Tanrı belə xeyir-duaları eşidir. Mehriban xanımın Şuşada yaşadığı duyğuları sezmək çətin deyildi. Qürur vardı o duyğularda.

Zəfərdən sonra Mehriban xanım Əliyevanın təşəbbüsü, Heydər Əliyev Fondunun təşkilatçılığı və dəstəyi ilə ruhumuzun paytaxtında - Şuşada "Xarıbülbül" Musiqi Festivalı keçirildi. Şuşa səs-səs, avaz-avaz dikəldi, Şuşanın başının üstünü almış duman çəkildi, illərin sıxıntısından qurtaran dağların qırışığı açıldı. "Qarabağ şikəstəsi" yaxınların da, uzaqların da düşüncələrinə bir gerçəklik həkk elədi: Azərbaycan deyiləndə ayağa durun! Qüdrət misallı bu bənzərsizlik Birinci vitse-prezident Mehriban xanım Əliyevanın gerçəkləşən təşəbbüsünün görüntüləriydi...

Şəhidlərə ehtiram Vətənə ehtiramdır. Şəhidlər tanınmadan hamının doğması olur. Şəhidlərin sayı qədər, dağıdılan evlərin, söndürülən ocaqların sayı qədər qəhərimiz var. Şəhid ailələrinə dövlət də, dövlət qurumları da, ictimai təşkilatlar da qayğı göstərir. Heydər Əliyev Fondu Mehriban xanım Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə bu qayğını mənəvi borcödəmə kimi yerinə yetirir. Onun şəhid ailələrinə ziyarətləri onlar üçün mənəvi təsəllidir.

Xeyirxahlığı, Vətənə, xalqa, dövlətçiliyə, dövlətə xidməti həyat fəlsəfəsi bilən Mehriban xanım Əliyeva "Heydər Əliyev mükafatı"na, "Heydər Əliyev" ordeninə layiq görülüb. Bu ali mükafat, bu ali təltif xalqın sevgisi ilə yanaşı dayanır...

***Səbinə XASAYEVA,***
***Milli Məclisin deputatı***

# Kökünə bağlı, dövlətinə sədaqətli, xalqına Mehriban xanım

Keçdiyi mənalı ömür yolu, yüksək humanizmi, xeyirxahlığı və nəcibliyi, bənzərsiz ictimai fəaliyyəti ilə nəinki Azərbaycanda, eləcə də dünyada yüksək ehtiram sahibi olan ölkəmizin birinci xanımı, Birinci vitse-prezidenti Mehriban Əliyeva tariximizin şanlı salnaməsinə öz dəst-xəti ilə daxil olan şəxsiyyətlərdəndir.

Xeyirxah əməlləri ilə xalqın sevimlisinə çevrilən birinci xanım Azərbaycan qadınına xas olan ən gözəl xüsusiyyətləri özündə cəmləşdirərək, nəciblik və zəriflik missiyasını şərəflə yerinə yetirir. Bu şərəf Mehriban xanımın Azərbaycan adına bəxş etdiyi sərvətdir, dəyərdir.

Əslində, Azərbaycan qadınının istər birinci xanım olsun, istərsə də adi ev xanımı, fərq etmir, damarları ilə axan qadınlıq qüruru, xanımlıq şərəfi, analıq ləyaqəti onun ən üstün keyfiyyətidir. Allah bu üstünlüyü hər millətə bəxş etmir. Nə xoş ki Tanrı qiyməti, milyonlarla, milyardlarla ölçülməyəcək qədər dəyərli olan həmin sərvəti məhz Azərbaycan qadınlarına bəxş edib. Bu bir həqiqətdir ki, Azərbaycan qadınları tarixboyu müdrik, uzaqgörən, Vətənə, torpağa və ailəsinə sədaqətli olmuş, hər zamanın özünəməxsus sınaqlarından alnıaçıq, başıuca çıxmağı bacarmış, çətin məqamlarda doğru yolu seçmişlər. Bunun bariz nümunəsini e.ə. VI əsrdə yaşayan Əhəməni hökmdarı Kirə qan uddurmuş Tomrisin timsalında, öz ağlı və dərrakəsi ilə İsgəndəri düşünməyə vadar etmiş Bərdə hökmdarı Nüşabənin simasında görürük. Sultan Toğrulun qızı, Atabəylər dövlətinin sonuncu hökmdarı Müzəffərəddin Özbəyin həyat yoldaşı Mehrican xatun şəxsi nüfuzu hesabına Xoy, Səlmas və Urmiyanı öz idarəçiliyində saxlaya bilmişdi. 1225-ci ildə Təbrizli Şəmsəddinlə birlikdə Təbriz, Xoy, Naxçıvan şəhərlərinin işğalçılardan azad olunmasında böyük hünər göstərmişdir.

Adı Azərbaycanın və Şərqin dövlətçilik tarixinə ilk xanım diplomat kimi daxil olan Ağqoyunlu hökmdarı Uzun Həsənin anası Sara Xatun isə ilk birinci xanım statusunda olub. Tarix onu bizə böyük ağıl və mətanət, müdriklik və cəsarət sahibi, istedadlı diplomat kimi tanıdıb. Xarici ölkələrlə aparılan danışıqlarda o zaman bütün Şərqdə yeganə qadın diplomat olan Sara Xatun mühüm rol oynayırdı. Sara Xatun mahir bir diplomat kimi öz ölkəsindən çox-çox uzaqlarda da tanınmışdı. O həm də böyük hərbi sərkərdəlik bacarığına və hərbi intuisiyaya malik qadın idi. Onun uzaqgörən ağlı və çevikliyi dar məqamlarda tez qərar çıxarmaqda əlindən tuturdu. Bir ana olaraq da adı tarix səhifələrinə qızıl hərflərlə yazılıb.

Bugünkü Sara Xatunumuz bizim birinci xanımımız Mehriban xanım Əliyevadır. Tanrı Azərbaycan xalqına 500 il sonra Mehriban xanımın timsalında yeni Sara Xatunu bəxş edib. Hər iki xanım bu millətin baş tacı, şərəf ölçüsüdür. Hər iki qadın bu xalqın bəşəri duyğularla yüklənmiş əsilzadə, kübar, incə ruhlu xanımlarıdır. Hər iki qadın zərafəti, nəcibliyi qan yaddaşında daşıyan ucalıq rəmzidir. Hər iki qadının taleyində Tomris hünəri, Nüşabə uzaqgörənliyi, Mehrican nüfuzu cəmləşib.

Mehriban xanım tariximizdə dövlət və siyasi xadim kimi iz qoyan həmin xanımlarımızın qədim ənənəsini bu gün böyük bacarıq və qabiliyyətlə, həm də yüksək səviyyədə davam etdirən xanım liderdir. Amma onu bu xanımlardan fərqləndirən daha bir üstünlüyü var: Mehriban xanımın fəaliyyəti çoxşaxəlidir. Hər bir işi sevgi ilə görür, hər kəsə qayğı ilə yanaşır və bu sevgini, bu qayğını çox səxavətlə insanlara ötürür.

Məlumdur ki, birinci xanımlar ölkəsinin ictimai-siyasi və sosial həyatında fəal iştirak etməklə yanaşı, dövlətlərarası dostluq, humanitar və mədəni əməkdaşlığı möhkəmləndirən siyasi xadimlərdir. Onlar həm də beynəlxalq sülhü, qadın və uşaq hüquqlarını, ümumbəşəri dəyərlərin qorunmasını müdafiə edən şəxslərdir. Mehriban Əliyeva məhz bu parametrləri şəxsi taleyində və fəaliyyətində daşıyan xanımdır. Onun vətəni, xalqı üçün etdiklərini sadalamağa gərək görmürəm. Bir kitablıq faktı bir yazıya necə sığışdırmaq olar? Zatən son 20 ildə ölkənin birinci xanımı olaraq gördüyü işlər əsas verir ki, hər bir azərbaycanlının yaddaşında, qəlbində bu gözəl xanımın obrazı yaradılsın. Azərbaycan qadınının əsrlərin o tayından boylanan xanım-xatınlığı, Şərq qadınlarına xas əsilzadəliyi, kübarlığı Mehriban xanımın simasından, baxışlarından, xoş təbəssümündən boy göstərir. Azərbaycanın birinci xanımı olaraq onun adı dünyada ən gözəl hesab olunan birinci xanımların siyahısında öncül yerdədir.

Onun özünəməxsus gözəlliyi, zərifliyi, səmimiyyəti var. Ulu Öndərin sağlığında televiziya ekranlarından, fotoobyektivlərdən qaçmağa çalışır, arxa planda görünməyə cəhd edirdi. Bu, onun ədəb-ərkanından, mədəniyyətindən, genetikasından gələn bir əxlaq nümunəsi idi. Amma özünün sirli təbəssümü, utancaq siması, gülər gözləri ilə yaddaşlara hopur, insanların maraq dairəsinə düşürdü. Bu ondan irəli gəlirdi ki, Mehriban xanım tarixi köklər üzərində pərvəriş tapmış bir nəslin, bir gözəl ailənin yetirməsidir. Görkəmli şərqşünas, Azərbaycanda ərəbşünaslıq üzrə ilk qadın filologiya elmləri doktoru, professor Aida İmanquliyevadan tərbiyə almış, babaları Mir Cəlal Paşayev və Nəsir İmanquliyevdən insanlığı öyrənmiş, atası akademik Arif Paşayevdən elmin sirlərini əxz etmişdi. O, Ulu Öndərin gəlini idi, gələcəyin böyük sərkərdəsi, "dəmir yumruq"lu Ali Baş Komandanı, Azərbaycana Zəfər sevincini yaşadacaq Prezident İlham Əliyevin əlindən tuturdu. Zəriflik nümunəsi olan, Azərbaycan qadınına xas ideal keyfiyyətləri, ziyalılığı, insanlara sevgisi ilə böyük nüfuz qazanmış akademik Zərifə Əliyevanın ocağından hərarət alaraq ondan da həyat dərsi almışdı. Ötən əsrin 80-ci illərində Ulu Öndərin şəxsi mühafizəsinin rəisi olmuş Aleksandr İvanovun söylədiyi bu fikirlər dediklərimi təsdiq edir: "Çox sonralar mən Zərifə xanımın bir çox məziyyətlərini Mehriban xanımın timsalında gördüm. Düz deyiblər ki, gəlin ocağa çəkər". Deməli, birinci xanım hər iki ocaqda gördüklərini, öyrəndiklərini qəlbinin yaddaşına köçürüb...

"Hər bir uğur qazanmış kişinin arxasında bir qadın dayanır" fikrini dünyanın hər yerində təsdiq edirlər. Lakin bu fikir yarımçıqdır, çünki hər bir uğur qazanmış qadının arxasında da ona hərtərəfli dəstək olan kişi, bütövlükdə ailə, mənəvi dəyərlər, milli varlığa bağlılıq dayanır. Həmin qadınlar özünəinamlı, güclü, eyni zamanda öz ocağının qoruyucusu olur, hər zaman ailə dəyərlərinin mizan-tərəzisini diqqətdə saxlayırlar. Və ən maraqlısı odur ki, bunlar onun ictimai xadim olmağına, cəmiyyətdə yüksək mövqe tutmağına mane olmur. Əksinə, hər iki missiya bir-birini tamamlayır - İlham və Mehriban Əliyevlərin ailəsində olduğu kimi. Azərbaycanın birinci xanımı həmin qoruyuculuq missiyasının daşıyıcısı olmaqla yanaşı, həm də Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyəti Fondunun prezidenti, Yeni Azərbaycan Partiyası Sədrinin birinci müavini, ICESCO-nun xoşməramlı səfiridir. Mehriban xanım Əliyevanın tarixi abidələrin, müqəddəs dini məkanların bərpası, abadlaşdırılması üzrə həyata keçirdiyi layihələr, başqa-başqa ölkələrdə inşa etdirdiyi məktəblər, ehtiyacı olan icmalara uzatdığı kömək əli, ICESCO-nun sülhməramlı səfiri qismində yerinə yetirdiyi missiya xarici ölkələrdə yaşayan insanlarda Azərbaycan qadınının şəxsiyyətinə böyük rəğbət yaradır.

Onun cəmiyyətdə tutduğu mövqe, ictimai-siyasi hadisələrə münasibəti, aldığı qərarlar, verdiyi tövsiyə və məsləhətlər İlham Əliyevin fəaliyyəti ilə həmahəngdir. Dünyada yayılmış bir aforizmi Prezidentin ən sadiq məsləkdaşı olan Mehriban Əliyevanın ünvanına çəkinmədən söyləmək olar: birinci xanım prezident üçün ən yaxşı partiyadır. Məhz buna görə də Prezident Birinci vitse-prezidentlik kürsüsünə öz məsləkdaşını layiq gördü. 44 günlük Vətən müharibəsində Ali Baş Komandanın Zəfər müjdəsini ilk olaraq sosial şəbəkə hesablarında paylaşması, Prezidentlə birlikdə hospitallarda müalicə olunan hərbçiləri ziyarət etməsi, şəhid analarının yanında olarkən göz yaşlarını gizlətməyə çalışması, qələbədən sonra dəfələrlə işğaldan azad olunmuş rayonlara səfəri xanım Əliyevanın həm vətənpərvər, cəsarətli, güclü, eyni zamanda mərhəmətli və şəfqətli olmasını göstərir, həm də bu təyinatın çox doğru olduğunu sübut edir. Bir dəfə İlham Əliyev birinci xanımın Birinci vitse-prezident kimi fəaliyyəti haqqında xarici jurnalistin verdiyi sualı belə cavablandırdı: "Onun azərbaycanlılar arasında güclü dəstəyi var. Siz küçədə istənilən şəxsdən soruşa, vətəndaşların onu necə sevdiyini və dəstəklədiyini görə bilərsiniz. O, tamamilə sosial və humanitar məsələlərlə məşğuldur və on minlərlə insana yardım edir. Lakin o, bunu hər hansı bir piarsız, reklamsız və elansız edir. Beləliklə, o, xalqımızın qürur duyduğu bir şəxsdir".

Bu bir tarixi həqiqətdir ki, vətəni, xalqı üçün çalışan, təmənnasız xeyirxahlığı və humanistliyi həyat amalına çevirən şəxslərin ideyaları, xoş əməlləri gələcək nəsillər üçün nümunəyə çevrilir. Özlərindən sonra qoyub getdikləri iz nəsillər dəyişdikcə hər dəfə yenilənir. Çünki həmin iz böyükdür, genişdir, silinməzdir. Xanım Mehriban Əliyeva - bizim zamanın Sara Xatunu da məhz belə iz sahibidir.

***Züleyxa ƏLİYEVA.***
***"Azərbaycan"***

Tarixboyu dünyanın ictimai fikir mənzərəsini zənginləşdirmiş müdriklərimizi düşündürən ən mühüm məsələlərdən biri insanın mahiyyəti, bu dünyadakı missiyası, ümumən, insan həyatının mənası olub. Onların mövzuya yanaşmaları da müxtəlifdir. Hər fikir adamının baxışında kamil insanın portreti fərqli rakurslardan öz əksini tapır. Amma əsl insan haqqında düşüncələrdə üst-üstə düşən xeyli ortaq qənaətlər də var. Bunlardan ən mühümü insan və onun əməlləridir. Məhz əməllər hər bir kəsin ömür tarixinə, həyat və şəxsiyyətinin məzmununa çevrilir.



# Xeyirxah əməlləri ilə ucalan şəxsiyyət

Azərbaycanın Birinci vitse-prezidenti, yaşadığımız regionun ən nüfuzlu ictimai təşkilatı olan Heydər Əliyev Fondunun rəhbəri ötən onilliklər ərzində dünyanın ən mötəbər təşkilatlarının ali mükafatlarına layiq görülmüş, ən böyük mükafatı isə Azərbaycan xalqının və ölkə hüdudlarından kənarda da onu tanıyan insanların böyük sevgisini qazanan Mehriban xanım Əliyeva da məhz xeyirxah əməlləri üzərində ucalmış şəxsiyyətdir. Milyonların ona sevgi və ehtiramı ölkənin birinci xanımının insanlar üçün böyük faydalar yaratmış xeyirli əməllərinin layiqli mükafatıdır. Onun həyata keçirdiyi ali məqsədlərdir, yüksək amallardır. Bunlar o dəyərlərdir ki, tarixin heç bir dönəmində dəyişmir, məzmununa xələl gətirmir. Dünyanı yaşadan, gələcəyə ümidi, inamı sarsılmaz edən belə dəyərli insanların haqq yolunda apardıqları qətiyyətli fəaliyyəti və hər addımda ümumxalq dəstəyi ilə əhatə olunmasıdır.

Əsl şəxsiyyətlər üçün gələcəyi hiss etmək qabiliyyəti çox mühüm və xarakterikdir. Mehriban xanım da zamanı duymağı bacaran bütün öncül şəxsiyyətlərə xas yüksək fəhmlə gələcək barədə mücərrəd qaydada deyil, konkret əmələ yönəlmiş formada düşünür. Yaratdığı nümunələrlə milyonlarla adama sabaha aparan yolları göstərir.

## İnsanlara sevgi, insanların sevgisi

Mehriban xanım Əliyevanın adı uzun illərdir ki, köməyə ehtiyacı olan insanların ümid yeri kimi çəkilir. Kiməsə kömək anlarında bu ad xatırlanır və hər kəsdə belə bir əminlik yaranır ki, ümidi boşa çıxmayacaq. Bu əminlik birinci xanımın uzun illər ərzində kömək göstərdiyi, çətin vəziyyətdən çıxmasına dəstək olduğu, ümidlərinin gerçəyə çevrildiyi onminlərlə insanın rəyindən, minnətdarlıq duyğularından formalaşıb.

Türk xalqlarının mifik təfəkküründə dara düşənlərin imdadına yetişən, son ümid yeri kimi onlara kömək göstərən, çətinlikdən çıxmalarına yardım edən parlaq obrazlar var. Bu obrazları insanların işıqlı arzuları, ən çətin anlarda belə yenə də vəziyyətin müsbətə doğru dəyişəcəyinə itməyən gümanları, onları motivasiya edən mənəvi gücləri yaradıb. Mehriban xanım Əliyeva bu obrazların real həyatdakı təcəssümüdür.

Maraqlısı budur ki, Mehriban xanımın indiyə qədər məşğul olduğu sahələrə, bu sahələrin hər birində apardığı işlərə nəzər salanda onu həmin istiqamətlərdə yaranan ən çətin və gərəkli anlarda, nələrisə dəyişmək zərurəti ortaya çıxan məqamlarda gəldiyini görürük.

Mehriban xanım Azərbaycanın ictimai həyatında ilk dəfə ötən əsrin 90-cı illərinin ortalarında Azərbaycan Mədəniyyətinin Dostları Fondunun və "Azərbaycan İrs" jurnalının rəhbəri kimi göründü. Onun fəaliyyətə məhz bu müstəvidə başlaması sırf təsadüf təsiri bağışlaya bilər. Amma o dövrün tarixini müasir reallıqlar kontekstində nəzərdən keçirdikdə Mehriban xanımın həmin illərdə məhz mədəniyyətimizin hamisi, ona bütün dünyada dostlar qazandırmaq üçün ardıcıl fəaliyyətə başlaması əsla nə təəccüb doğurur, nə də təsadüfi görünür.

O dövrlər Azərbaycanın müstəqillik yollarında ilk kövrək addımlarını atdığı çağlar idi. Azərbaycan dünyaya açılmış, beynəlxalq aləmə inteqrasiya yolunu tutmuşdu. Dünyanın bizi olduğumuz kimi görüb qəbul etməsindən ötrü tanınmağa, özümüzü təqdim etməyimizə ehtiyacımız vardı. Onda dünya bizi daha çox təbii sərvətlərimizə görə tanıyırdı. Hər bir xalqın əsas tanıtım dəyəri olan mədəniyyətimizə gəlincə isə, uzun illər imperiya tərkibində yaşamağımızın formalaşdırdığı təsirlər bu sahədə hələ də ortadan qalxmamışdı. Azərbaycan mədəniyyəti haqqında təsəvvürlər bir çox hallarda ümumi sovet mədəniyyəti stereotiplərindən uzaq getmirdi. Bəzi istisnaları nəzərə almasaq, dünya ictimaiyyəti xalqımızın mədəni dəyərləri, şəxsiyyətləri haqqında kifayət qədər məlumatlı deyildi.

Ulu Öndər Heydər Əliyev dünyanın Azərbaycan xalqını öz dəyərləri işığında görüb qiymətləndirməsi üçün bütün mümkün işləri aparır, dövlətimizin iqtisadi imkanlarının o qədər yüksək səviyyədə olmadığı vaxtlarda belə bu sahəyə diqqət və qayğısını əsirgəmirdi. Çünki zəmanəsinin ən parlaq şəxsiyyətlərindən biri kimi Ümummilli Lider mədəniyyət diplomatiyasının gücünü yaxşı bilirdi. Xüsusilə Ermənistanın və onun havadarlarının ətrafımızda yaratdıqları informasiya blokadası çağında, özlərini, guya, sivil xalq, bizi isə mədəniyyətdən uzaq toplum kimi təqdim etməyə çalışdıqları çətin vaxtlarda Azərbaycan və xalqımız haqqında düzgün təsəvvürün yaradılmasında mədəniyyətin nə qədər mühüm rol oynadığını düzgün dəyərləndirirdi. Bu istiqamətdə vəzifələr müəyyənləşdirir, lazımi addımlar atırdı. Amma milli mədəniyyətin dünyada təbliği o qədər miqyaslı bir işdir ki, təkcə müvafiq dövlət qurumlarının fəaliyyəti burada kifayət edə bilməzdi. Belə bir məqamda Mehriban xanım Azərbaycan Mədəniyyətinin Dostları Fondu və "Azərbaycan İrs" jurnalını yaradaraq mədəniyyətimizin dünyada təbliğinə başladı. Ulu Öndərin müəyyənləşdirdiyi vəzifələrin layiqincə yerinə yetirilməsinə ictimai dəstək göstərdi.

Daha çox siyasi mövzuların populyar olduğu o illərdə Azərbaycan ictimaiyyəti Mehriban xanım Əliyevanın gördüyü işlər haqda o qədər də məlumatlı deyildi. Əsas kommunikasiyalar ölkə hüdudlarından kənara hesablanmışdı və Azərbaycan mədəniyyəti ilə bağlı xarici kommunikasiyalar zamanla öz effektini verirdi. Bu gün dünya ictimaiyyətinin milli mədəniyyətimiz haqqında bildiyi bir çox həqiqətlərdə, mədəni sərvətlərimizin dünyada tanınmasında, öz layiqli qiymətini almasında, xalqımızın bütün əsrlər boyu bəşər mədəniyyətinə layiqli töhfələr vermiş mədəni xalq kimi təqdim edilməsində Mehriban xanımın çox böyük əməyi var.

Birinci xanım deyir: "Bu gün biz müasir texnika və qloballaşma əsrində yaşayırıq. Fikrimcə, zəmanənin ən böyük təzadlarından biri ondan ibarətdir ki, əldə edilən tərəqqi, kommunikasiya imkanları insanların birləşməsinə, daha sıx ünsiyyət qurmasına şərait yaratsa da, gerçək həyatda biganəlik, insanlar arasında uçurum yaradır. Bəzən nəinki bəşəriyyətin səsini eşitmirik, hətta qonşu - qonşunu eşitmir, qardaş-qardaşa kömək əlini uzatmır. Bu gün dünyanın qarşılaşdığı ən ağrılı problemlərdən biri mənəvi ideallarının ucuzlaşması, onların saxta ideallarla əvəz edilməsidir".

Mehriban xanım Əliyeva öz fəaliyyəti ilə dünyanı bu qlobal təsirdən qorumağa da çalışır. Əsl dəyərlərə sahib çıxır, onların dünyanın hər yerində öz yerini tutması üçün böyük fədakarlıqlar göstərir. Tarixin bütün dövrlərində insanı ümumbəşəri dəyərlər ruhunda tərbiyə edən başlıca güc mədəniyyətdir. İnsan mədəniyyətin təsiri ilə inkişaf axınına qoşulur, özünü ifadə edir, zamanın axarında möhkəm dayana bilir.

Azərbaycan Prezidenti İlham Əliyev, Birinci vitse-prezident Mehriban xanım Əliyeva bütün dünyada mədəniyyətlərarası dialoq ideyasının, tolerantlığın, multikulturalizmin fəal təşəbbüskarlarındandır. Onlar bu ideyaların bütün dünyada genişlənməsinə, bərqərar olmasına ona görə bu qədər əmək sərf edirlər ki, bəşəriyyət üçün başqa bir alternativ yoxdur. Dialoqun, anlaşmanın, tolerantlığın, multikulturalizmin əksi mədəniyyətlərin toqquşmasıdır. Milyonlarla insanın acı çəkməsidir. Fərdlərin dini, milli mənsubiyyətinə görə sıxışdırılmasıdır, ayrı-seçkiliyə məruz qoyulmasıdır. Toplumların ən yaxşı halda özünə qapanmasıdır. Beləliklə, bəşəriyyətin inkişaf yolundan, ali məqsədlərindən uzaq düşməsidir. Bunun baş verməməsi, dünyanın gələcək naminə bir araya gəlib problemlər üçün uyğun həllər tapması isə Prezident İlham Əliyev, Birinci vitse-prezident Mehriban xanım Əliyeva kimi parlaq şəxsiyyətlərin missiyasıdır. Ona görə də Azərbaycan silsilə beynəlxalq tədbirlərin, qlobal humanitar forumların, müxtəlif mədəniyyət tədbirlərinin mərkəzinə çevrilib. Ölkəmiz bütün dünyada sivilizasiyalararası dialoq, multikulturalizm, sülh və tolerantlıq ünvanı kimi tanınır.

Eyni missiyanın davamını biz Mehriban xanımın 2001-ci ildə sədr seçildiyi Azərbaycan Gimnastika Federasiyasının fəaliyyətində də görürük. Gimnastika, xüsusilə onun bədii gimnastika növü gənc nəsil üçün ən faydalı idman növlərindən olan, amma buna rəğmən Azərbaycanda o qədər də maraq göstərilməyən, təbii ki, buna görə çox ciddi çətinlikləri olan sahələrdən idi. Mehriban xanım Əliyevanın gəlişi ilə bu sahədə vəziyyət büsbütün dəyişdi. Gənclər arasında gimnastikaya maraq artdı. Azərbaycan bu idman növü üzrə də beynəlxalq nüfuzlu yarışlarda təmsil olunmağa başladı. Ölkəmizdə gimnastika idman növünün inkişaf etdirilməsi üçün mükəmməl infrastruktur, maddi-texniki baza formalaşdırıldı. Azərbaycan bu sahə üzrə bir çox idman yarışlarına evsahibliyi edən ölkə kimi böyük nüfuz qazandı.

## Birinci xanım

2003-cü ildən Mehriban xanım Əliyeva ilk dəfə məhz onun üzərinə düşən daha bir çətin tarixi missiyanı uğurla yerinə yetirdi. Azərbaycan cəmiyyətində "birinci xanım" institutu haqqında müəyyən təsəvvürlər mövcud olsa da, bu təsəvvürlər səthi idi. Azərbaycanda belə bir institutun necə çalışa biləcəyinə dair aydın fikirlər, müəyyən ənənələr yox idi. Çünki Mehriban xanıma qədər ölkəmizdə bu institut çalışmamışdı. Bu statusun ənənələri mövcud deyildi. Bir sıra inkişaf etmiş xarici ölkələrdə uzunmüddətli ənənələri olan birinci xanım institutunun Azərbaycanda necə tətbiq oluna biləcəyi, özünü nə dərəcədə doğruldacağı maraqlı görünürdü. Eyni zamanda bunun bir ənənə kimi formalaşması kifayət qədər də çətin gəlirdi. Çünki mədəniyyətlər, münasibətlər fərqlidir. Söhbət milli dövlətçilik ənənələrinin tərkib hissəsinə çevrilən bir dəyərdən gedirsə, onu başqalarından olduğu kimi götürüb tətbiq etmək o qədər də özünü doğrultmazdı.

Mehriban xanım Əliyeva bütün məsələlərdə olduğu kimi bu işdə də kimisə təkrarlamadı. Məhz özü oldu, özü kimi davrandı. Azərbaycanın birinci xanımı kimi heç kimə bənzəməyən ictimai obrazı ilə insanların dərin sevgisini qazandı. Azərbaycan nümunəsində ölkənin birinci xanımı obrazının mükəmməl meyarlarını yaratdı. Gördüyü işlərlə, formalaşdırdığı ictimai dəyərlərlə, təlqin etdiyi prinsiplərlə başqaları üçün də nümunə oldu. Azərbaycan Prezidentinin həyata keçirdiyi siyasətə xalqın rəğbətini, dəstəyini daha da artırdı. Xalq və hakimiyyət arasındakı bağlılığı möhkəmləndirdi. Vətəndaşlarla qurulan kommunikasiyalarda səmimiyyəti, doğmalığı, qarşılıqlı inam və güvəni gücləndirdi. Azərbaycan Prezidentinin idarəçilik üslubu, qarşıya qoyduğu milli hədəflər, həyata keçirdiyi mütərəqqi dəyişikliklər, həm də bu doğmalıq mühitində vətəndaşların dərin rəğbətini, sarsılmaz dəstəyini qazandı. Cəmiyyətimizdə milli vəhdət təmin olundu.

Beləliklə, Mehriban xanım müstəqil dövlətçilik tariximizdə ilk dəfə bu ənənələrin də əsasını qoydu. Azərbaycanda birinci xanım institutunun çox orijinal, funksional, hamı tərəfindən rəğbətlə qarşılanan yetərincə uğurlu bir modelini formalaşdırdı. Həmişə xalq arasında olması ilə, sıravi vətəndaşların, ziyalıların, gənclərin, uşaqların, könüllülərin əhatəsində görünməsi ilə, müxtəlif layihələrdə onlarla birgə iştirakı ilə göstərdi ki, bu institut cəmiyyətə faydalar yaratmaqdan ötrü mövcuddur.

Azərbaycan cəmiyyətində çoxları ilk dəfə məhz Mehriban xanımın gördüyü işlərin mahiyyətindən anlamağa başladı ki, birinci xanımın yerinə yetirdiyi ictimai missiya protokol qaydalarında nəzərə çarpdığından xeyli əhatəlidir. Birinci xanımın vəzifəsi müxtəlif tədbirlərdən, səfər və görüşlərdən, fotolarda, videogörüntülərdə dövlət rəhbərinin yanında olması ilə məhdudlaşmır. Birinci xanım ölkənin, cəmiyyətin inkişafı məqsədilə həyata keçirilən işlərdə, yerinə yetirilən layihələrdə də hər zaman dövlət rəhbərinin yanındadır. Onun ən sadiq, fədakar silahdaşıdır.

Mehriban xanım Əliyevanın təşəbbüskarı olduğu, rəhbərlik etdiyi layihələrin hər birinin böyük uğur qazanması da bununla bağlıdır. O, gördüyü bütün işləri Azərbaycan dövlətinə, xalqına fayda yaratmaqdan ötrü yerinə yetirir. Bütün bu layihələri dövlətimizi tarixinin ən qüdrətli mərhələsinə gətirib çatdırmış Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi inkişaf siyasətinə dəstək məqsədilə həyata keçirir. Ona görə bu işlərin hər birində böyük sevgi, həssaslıq, diqqət var və onların uğurla nəticələnməsinin əsasında da bu durur.

## Tarixi irsin davamı

2004-cü ilin 10 mayında Ümummilli Lider Heydər Əliyevin anadan olmasının növbəti ildönümü günü cəmiyyətə təqdim edilən Heydər Əliyev Fondunun fəaliyyətə başlaması da Mehriban xanım Əliyevanın fəaliyyətində bir ilk idi. Buna qədər də Azərbaycanda müxtəlif ictimai təşkilatlar yaradılmış, müəyyən səviyyələrdə fəaliyyət göstərmiş, faydalı layihələr reallaşdırılmışdı. Ulu Öndərin ideyaları işığında, onun mənəvi irsinin yaşadılması məramı ilə böyük bir yola çıxmış fond isə miqyasca, mahiyyətcə daha fərqli, öz adına layiq olmalı idi. Mehriban xanım Əliyeva bu böyük vəzifəni də uğurla yerinə yetirdi və əslində, həm Azərbaycan vətəndaşları, həm dünya ictimaiyyəti onu Heydər Əliyev Fondunun rəhbəri kimi çoxşaxəli fəaliyyətindən daha yaxından tanımağa başladı. Bir-birinin ardınca yerinə yetirilən son dərəcə parlaq layihələrlə Mehriban xanım qısa müddətdə bu fondu Cənubi Qafqaz regionunun ən böyük və ən nüfuzlu təşkilatına çevirməyə müyəssər oldu. Ümummilli Liderin adını daşıyan fond Ulu Öndər Heydər Əliyevin tarixi missiyasını bu gün də uğurla davam etdirir və Azərbaycanın dövlət siyasətinin bütün prioritet sahələrinə dəyərli töhfələr verir.

Milli dövlətçilik tariximizin yeni dövründə ölkədə dövlət-cəmiyyət tərəfdaşlığının yeni nümunəsinin formalaşmasında, vətəndaşları narahat edən sosial problemlərin çevik şəkildə öz həllini tapmasında, mədəni sərvətlərimizin qorunması, inkişaf etdirilməsi və dünyada təbliğində, təhsil, səhiyyə və s. bu kimi müstəsna əhəmiyyətə malik sahələrin yenilənməsində Heydər Əliyev Fondunun müstəsna rolu var.

Fond Mehriban xanım Əliyevanın irəli sürdüyü və şəxsən rəhbərlik etdiyi layihələrlə Azərbaycan Prezidentinin "neft kapitalını insan kapitalına çevirməli" prioritetinin reallaşmasından ötrü müstəsna dərəcədə böyük nəticələr əldə edib. İndiyə qədər Azərbaycanın evsahibliyi etdiyi və ölkəmizi dünyaya daha yaxından tanıdan bir sıra möhtəşəm beynəlxalq tədbirlərin təşkilat komitəsinə rəhbərliyi ilə də adını tarixə yazıb. Hər birimiz o günləri yaxşı xatırlayırıq. Mehriban xanım 2012-ci ildə "Avroviziya-2012" Beynəlxalq Mahnı Müsabiqəsini, 2015-ci ildə I Avropa Oyunlarını, 2017-ci ildə IV İslam Həmrəylik Oyunlarını ölkəmizdə nəinki yüksək səviyyədə təşkil etdi, eyni zamanda bu möhtəşəm silsilə tədbirlərin yeni təşkilati standartlarını yaratdı. Belə geniş əhatə dairəsinə malik beynəlxalq səviyyəli tədbirlərin keçirilməsində böyük təcrübəsi olmayan Azərbaycanda bu tədbirlərin müasir meyarlarını formalaşdırdı.

Təsadüfi deyil ki, bu gün də dünyanın başqa-başqa ölkələrində təşkil edilən belə silsilə tədbirləri məhz Azərbaycanda keçirilmiş oxşarları ilə müqayisə edirik. Mehriban xanımın yaratdığı meyarların davamını bu tədbirlərdə tapırıq. Bu meyarlar həmişə yaşayacaq, daim inkişaf etdiriləcək və bütün dünyanın böyük maraqla izlədiyi bu tədbirlərə daim xüsusi dəyər qatacaq. Çünki onlarda Mehriban xanımın da böyük sevgisi, fədakar əməyi, məsuliyyəti var.

## Könül işi

Onun üçün ən böyük siyasət, vəzifə görülən işlərin xoş nəticələri, tarixdə rəğbətlə xatırlanan əməllər, insanların həyatına gətirilən faydalardır. Özünün də qeyd etdiyi kimi, dərk edilmiş məsuliyyətidir. Azərbaycan Milli Məclisinin deputatı kimi millətə vəkilliyin əsl örnəyini yaratdığı illərdə də, bu gün Azərbaycan Respublikasının Birinci vitse-prezidenti ali statusunda da Mehriban xanımın daşıdığı vəzifəyə yanaşması belədir. Bu gün dövlətimizin rəhbəri İlham Əliyevin reallaşdırdığı sosial siyasətin uğurla həyata keçirilməsində, humanitar sahədə görülən işlərdə Mehriban xanım Əliyevanın çox böyük rolu var. O, bütün layihələrə vəzifə öhdəliyindən də çox könül işi kimi yanaşır. İnsanlara sevgini, qayğını, onlar üçün nəsə xeyirli bir iş görməyi bütün bu vəzifələrin mərkəzinə qoyur. Müxtəlif xəstəliklərdən əziyyət çəkən körpələr üçün tikilmiş müalicə müəssisələri də, kimsəsiz gənclərin ev-eşik sahibi olması üçün inşa olunmuş yaşayış binaları da, bütün ölkə boyu ucaldılmış yeni işıqlı məktəblər də, ahıllara qayğı da, Milli Məclisin deputatı olduğu vaxtlarda irəli sürdüyü amnistiya təşəbbüsləri ilə minlərlə məhbusun azadlığa qovuşması da, Azərbaycanda və dünyanın müxtəlif ölkələrində bərpa olunan tarixi abidələr də, mədəniyyətimizin dünyada təbliği və başqa belə saysız-hesabsız nümunələr də Mehriban xanımın qəlbindəki insan sevgisinin həyatda real əməllərlə təcəssümüdür.

Bütün bunlarla Mehriban xanım cəmiyyətimiz üçün yeni dəyərlər yaradır. İnsanlara humanizm mesajları ötürür, mərhəmətli olmağı, başqalarının ağrı-acısına, kədərinə şərik çıxmağı, xoş günlərin sevincini paylaşmağı, bir-birimizi qorumağı, qayğısına qalmağı, milli-mənəvi dəyərlərimizə sahib çıxmağı həyatımızın ana məqsədi kimi hamımıza nişan verir. Birinci vitse-prezident hər zaman hər kəsə vətəndaş olmağın meyarlarını anladır. İnsanlara vətəndaş məsuliyyəti aşılayır. Ona olan ümumxalq sevgisi bu vətəndaşlıq dərslərinin, dövlətçilik tərbiyəsinin təsir gücünü təmin edir. İnsanlarımız öz davranışlarında onun tövsiyələrini nəzərə alırlar. Çünki ona inanırlar. Bilirlər ki, əgər bunu Mehriban xanım deyirsə, deməli, insanların faydasınadır.

44 günlük Vətən savaşında əldə etdiyimiz tarixi qələbənin müəllifi olan Azərbaycan gəncliyinin yetişdirilməsində, bütün dünyanın qələbəmizi qəbul etməsində, tarixi zəfərimizin Qarabağda, Şərqi Zəngəzurda aparılan bərpa-quruculuq tədbirləri ilə daha da möhkəmləndirilməsində Azərbaycan Prezidentinin ən yaxın silahdaşı kimi Mehriban xanımın böyük əməyi, xidmətləri var. Onun rəhbərliyi ilə Heydər Əliyev Fondu bu gün azad yurdlarımızdakı tarixi abidələrimizi yenidən həyata qaytarır. Erməni vandallarının 30 il ərzində viran etdikləri doğma məkanlarda yenidən mədəniyyət çırağı yandırır. Xalqımızın bu torpaqların köksündəki nişanələrini əbədiləşdirir. Mehriban xanımın rəhbərliyi, təşkilatçılığı ilə həyata keçirilən mədəniyyət layihələri bu torpaqlarda daimi sülhə qapı açır.

Mehriban xanım Əliyeva kimi şəxsiyyətlərin ömrü də bir tarixdir. Bu ömrün hər ili bu tarixin yeni bir şərəf salnaməsidir, növbəti zirvəsidir. Biz də Mehriban xanımı ömrünün daha bir zirvəsində təbrik edir, Azərbaycanın xoşbəxt gələcəyi naminə fədakar fəaliyyətində yeni-yeni uğurlar arzulayırıq.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***





# Mehriban Əliyevanın DOST töhfəsi

## Birinci vitse-prezidentin təşəbbüsü ilə yaradılan DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzində həssas qrupa daxil olan şəxslərə xidmət göstərilir

*Müasir dövrdə bəşəriyyətin ən çox ehtiyac duyduğu xeyirxahlıq və mərhəmət nümunəsini yarada bilən, yüksək şəxsi keyfiyyətləri və nəcibliyi, mənalı və bənzərsiz sosial-siyasi fəaliyyəti ilə tariximizdə iz qoyan şəxsiyyətlərdən biri də Mehriban xanım Əliyevadır.*

Yüksək humanizmi və xeyirxahlığı ilə xalqımızın sevimlisinə çevrilən Birinci vitse-prezident Mehriban Əliyeva Azərbaycan qadınına xas olan ən gözəl xüsusiyyətləri özündə cəmləşdirən böyük şəxsiyyətdir. Ölkəmizin birinci xanımı bütün sahələrdə olduğu kimi, həssas qrupa aid olan vətəndaşlarımızın da rifah halının yaxşılaşdırılması sahəsində ideyaları, təşəbbüsləri və xoş əməlləri ilə gələcək nəsillər üçün əsl örnək yaradıb. O, bu kateqoriyadan olan vətəndaşlara həmişə həssaslıqla yanaşıb.

Fiziki məhdudiyyətli, aztəminatlı, eləcə də şəhid ailələri və qazilərin sosial müdafiəsi ilə bağlı həyata keçirilən genişmiqyaslı tədbirlərin əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulub. İnsan amilini daim diqqətdə saxlayan görkəmli dövlət xadiminin rəhbərliyi dövründə əlillərin, aztəminatlı ailələrin və şəhid yaxınlarının sosial müdafiəsinə xidmət edən tədbirlərin intensiv olaraq həyata keçirilməsi ənənəsi bu gün də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən uğurla davam etdirilir.

Birinci vitse-prezidentin təşəbbüsü ilə reallaşdırılan böyük layihələr kifayət qədərdir desək, yanılmarıq. Onlardan biri də DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzidir. Bu mərkəz ölkənin yaradıcı potensialının artırılmasına kömək etməyi, sosial vəziyyəti aşağı olanların rifah halını yaxşılaşdırmağı, fiziki məhdudiyyətli şəxslərin cəmiyyətə inteqrasiyasını, eləcə də sağlam həyat tərzini təbliğ etməyi, yaradıcı uşaqların və gənclərin potensialını ortaya çıxarmağı öz fəaliyyətində prioritet məsələlər kimi görür.

### Əminə Ərdoğanın marağına səbəb olan mərkəz

2021-ci il oktyabrın 22-də fəaliyyətə başlayan bu mərkəzin açılış mərasimində Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iştirak ediblər. Mehriban Əliyevanın növbəti nəciblik nümunələrindən olan DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzində həssas qrupa daxil olan şəhid ailələrinin üzvlərinə, müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslər və onların övladlarına, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlara, aztəminatlı ailələrə və əlilliyi olan şəxslərə xidmət göstərilir.

Bu il iyunun 13-də Bakıda səfərdə olan Türkiyə Respublikasının birinci xanımı Əminə Ərdoğanın Birinci vitse-prezident Mehriban Əliyeva ilə birlikdə məhz DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzini ziyarət etməsi də təsadüfi deyildi. Qonaqlar mərkəzdəki audio-səsyazma, floristika və landşaft dizaynı, metal və ağac üzərində oyma, xalçaçılıq, toxuma və tikmə, keramika, musiqi, təsviri sənət studiyalarında keçirilən təlimlərlə, o cümlədən kitabxana ilə tanış olublar. Azərbaycan və Türkiyənin birinci xanımları mərkəzin təlimçiləri və təlim alanlarının, inklüziv kamera orkestrinin ifasında musiqi nömrələrini dinləyib, benefisiarların əl işlərindən ibarət sərgi ilə tanış olub, onlarla şəkil çəkdiriblər. Sonda qonaqlara hədiyyələr təqdim olunub.

Əlbəttə ki, mərkəzin çoxşaxəli fəaliyyət istiqaməti, orada təlim alanların müsbət aurası və xoş əhvalı bir daha onu deməyə əsas verir ki, xeyirxahlığına, insanlara diqqət və qayğısına görə xalqımızın sevgisini və dərin hörmətini qazanmış Mehriban xanım Əliyevanın ölkəmizin sosial həyatındakı əvəzsiz rolu danılmazdır.

Bu mərkəzdə təlim keçən həssas insanların qazandığı həyat təcrübəsi, peşə bacarıqları və ən əsası gördükləri xoş münasibət də təsdiq edir ki, Birinci vitse-prezidentin fəaliyyətində ən mühüm istiqamətlərdən birini şəhid ailələri, Qarabağ müharibəsi əlilləri və həssas kateqoriyaya aid olan digər vətəndaşlarımızla bağlı məsələlər təşkil edir. Təsadüfi deyil ki, valideyn himayəsindən məhrum olan uşaqların mənəvi anası deyəndə ilk ağla gələn də məhz ölkəmizin birinci xanımı olur. Mehriban Əliyeva şəhid ailələrinin, fiziki məhdudiyyətli şəxslərin, kimsəsiz uşaqların ən böyük qayğıkeşi və himayədarıdır. Onun öz mənalı ömür yolunu təmənnasız olaraq xalqımızın xoşbəxt və firavan yaşayışına həsr etməsi diqqətdən yayına bilməz.

### Mehriban Əliyevanın xalqa layiqli və təmənnasız xidməti

DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin fəaliyyətə başlaması insanların xoşbəxtliyi naminə gecə-gündüz çalışmağı və təmənnasız xeyirxahlığı həyat amalına çevirən birinci xanımın düşünülmüş dəyərli təşəbbüslərindən biridir.

Burada əsas məqsəd həssas qrupdan olan şəxslərin yaradıcılıq potensialının artırılması və onların sosial-psixoloji durumuna dəstək verməkdir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan, Cənubi Qafqazda bu tipli ilk unikal məkan hesab edilən mərkəzə həssas qrupa daxil olan 6 yaşdan yuxarı şəxslər qəbul edilirlər. Hazırda mərkəzdə bu ilin birinci yarım ilinə olan məlumata əsasən, 200-ə yaxın benefisiar təlim alır.

Mərkəzdə müxtəlif fəaliyyət istiqamətləri üzrə təlim alan şəxslərin 12 nəfəri şəhid və qazi ailəsi üzvü, 128-i fiziki məhdudiyyətli, 30-u aztəminatlı, 25-i isə valideyn himayəsindən məhrum olmuş şəxslərdir. Benefisiarlarla fəaliyyət planının aparılması beynəlxalq standartlara, bərpa və psixososial reabilitasiya prinsiplərinə istiqamətləndirilmiş model olan "CARe (Reabilitasiyaya kompleks yanaşma) metodologiyası"na əsaslanır.











### Dostcanlı, inklüziv və yaradıcı mühit

Biz də DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin fəaliyyət istiqamətləri, təlimçilərin, xüsusilə də təlim alanların mərkəz barədə düşüncə və duyğularını öz dillərindən eşitmək üçün bu məkana üz tutduq.

Burada təlim alanların kollektivlə yaxınlığı, onların bir ailə kimi bir-birilərinə dəstəyi elə məkana daxil olan kimi hiss edilirdi. DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzində hər kəs - həm öyrənən, həm də öyrədən yaradıcı və dostcanlı təəssüratı yaradırdı. Təlimçilərin və benefisiarların sözlərinə görə, həssas əhali qrupunun məhz bu xüsusiyyətlərə malik olan unikal bir məkanda bir araya gəlməsi Mehriban Əliyevanın təşəbbüsü ilə yaradılmış bu mərkəzin əsas ideyasını təşkil edir.

Burada müxtəlif növ rəqslər, təsviri incəsənət, dulusçuluq, musiqi, dərzilik, modelyerlik, xalçaçılıq, bədii oyma, floristika, bağçılıq və landşaft dizaynı, fotoqrafiya sənəti, kulinariya daxil olmaqla, ümumilikdə 14 istiqamət üzrə təlimlər keçirilir. Bu mərkəzdə təlimlər 6 aydan 24 ayadək davam edir. Onların daha sonra işlə təmin ola bilmələri üçün müvafiq istiqamətlər üzrə diplom və ya sertifikatlar verilir.

Mərkəzə yaradıcı potensialını ortaya çıxarmaq, xüsusilə də bədii oyma sənətinin sirlərinə yiyələnmək üçün üz tutanlardan biri də İbrahimdir. Onun yaşının az olmasına baxmayaraq, artıq sərbəst şəkildə taxta üzərində oyma işi ilə məşğul ola və özünəməxsus əsərlər yarada bilir.

Bədii oyma sənəti üzrə təlimçi Asif Qasımov qeyd edir ki, bu sənətdə uğurlu olmaq üçün yaradıcı düşünmə bacarığı və rəssamlıq qabiliyyəti olmalıdır. Həmçinin o bildirir ki, bədii oymaya maraq əvvəlki illərlə müqayisədə daha da artıb. Özü də fiziki məhdudiyyətli olan Asif benefisiarlarla işləməkdən məmnundur. O, həssas təlim alanlara oyma sənətinin detallarını öyrədə bilmək üçün fərdi yanaşmanı üstün tutur. Sözsüz ki, bu mənada onun peşəkarlığı və təcrübəsi də öz sözünü deyir.

A.Qasımovun dediyinə görə, mərkəzin benefisiarlarının cəmiyyətə inteqrasiyasını gücləndirmək üçün paralel olaraq multidissiplinar qrupla da iş aparılır: "Bu xüsusilə daha həssas təlim alanlar üçün çox faydalıdır. Mərkəzdə benefisiarlara peşə bacarıqlarından əlavə, sosial-pedaqoji-psixoloji dəstək də verilir".

Keramika təlimləri tədris edilən otaqda benefisiarlar, adətən, musiqi sədaları altında çalışırlar. Təlimçilərin sözlərinə görə, bu sənət xəyal dünyaları geniş, baxış bucaqları fərqli olan autizm, daun və asperger sindromlu insanlar üçün də uyğundur. Təlim alanlar burada 3D rəsmlər, dekorativ pannolar, mozaikalar, vazalar, qablar, heykəllər və digər müxtəlif əşyalar hazırlayırlar.

Təlim alan 12 yaşlı Könülün sözlərinə görə, burada gildən müxtəlif əşyalar düzəltmək onun üçün çox maraqlıdır. Gillə işləmək onu dincəldir və daha yaradıcı düşünməsinə səbəb olur. Könül deyir ki, gələcəkdə dulusçuluq və keramika sənəti üzrə təlimçi kimi də fəaliyyət göstərə bilər.

Ümumiyyətlə, benefisiarların mütləq əksəriyyəti eyni zamanda bir neçə sosial xidmət növlərindən yararlanır və ayrı-ayrı sahələr üzrə təlimlərə qoşulurlar. Onların dediklərinə görə, burada öyrəndikləri bacarıqlarla gələcəkdə hətta öz şəxsi kiçik bizneslərini qura və sosial vəziyyətlərini yaxşılaşdıra bilərlər. Bu mərkəz həssas əhali qrupuna daxil olan insanlar üçün, doğrudan da, unikal məkandır.

Mərkəzin digər vacib fəaliyyətlərindən biri də odur ki, burada benefisiarlarla paralel olaraq, onların valideynləri ilə də işlər aparılır. Valideynlərə qrup psixoterapiyası, uşaqların problemli davranışının korreksiyası təlimləri, övladı ilə düzgün davranış qaydaları və onların mərkəzin nizam-intizam sisteminə uyğunlaşdırılması, övladının xəstəliyi və ya əlilliyi barədə geniş maarifləndirilmə təlimləri, "Valideyn dəstək proqramı" çərçivəsində təlimlər keçirilir. Valideynlərin sözlərinə görə, bu dəstək proqramları və psixoloji konsultasiyalar hesabına onların həyatı daha da asanlaşıb və övladları ilə əvvəlkindən daha rahat ünsiyyət qura bilirlər.

Onu da qeyd etmək lazımdır ki, burada "Könüllü DOST" proqramı da tətbiq edilir. "İnklüziv DOST" könüllü altproqramı çərçivəsində indiyə qədər 83 nəfər mərkəzdə fəaliyyətə cəlb edilib.

### Gələcək nəsillər üçün əvəzolunmaz nümunə

Benefisiarlar onlara yaradılan belə qayğıkeş mühitdən razılıqlarını ifadə edir və buna görə Mehriban xanım Əliyevaya dərin minnətdarlıqlarını bildirirlər. Təlim alanların sözlərinə görə, bu mərkəz onlar üçün hətta ikinci ailə və əsas ümid yeridir. Bu unikal şəraiti yaratdığına, onların müxtəlif fiziki, ictimai-iqtisadi və sosial məhdudiyyətlərini nəcib formada aradan qaldırdığına görə birinci xanıma təşəkkür edir, onun bu təşəbbüsünü yüksək qiymətləndirirlər.

Bu bir daha sübut edir ki, Mehriban Əliyevanın xalqın sevimlisinə çevrilməsinin əsas səbəblərindən biri də məhz genişmiqyaslı layihələr reallaşdırarkən onun humanizm və insanpərvərlik ideallarını rəhbər tutmasıdır. Əsasında mərhəmət, şəfqət, xeyirxahlıq və bu kimi ali duyğu və dəyərlər dayandığı DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi də Mehriban Əliyevanın bu ideyalarına sadiqdir.

Birinci xanımın fəaliyyət dairəsi çoxşaxəlidir və həyatımızın bütün sahələrinə dərindən nüfuz edib. Mehriban Əliyeva həyata keçirdiyi bütün nəcib işləri ilə həm qadın, həm ana, həm də əvəzsiz dövlət xadimi kimi xalqımızın dərin məhəbbətinə layiqdir və o, gələcək nəsillər üçün əvəzolunmaz nümunədir.

***Nəzrin QARDAŞXANOVA,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***

# Möhtəşəm quruculuğun böyük hamisi

## Mehriban xanım Əliyevanın rəhbərliyi ilə tarixi yaddaşımız olan abidələrin bərpası uğurla davam edir



*Xalqımızın əsrlərin qovuşağından qaynaqlanan tarixi-mədəni irsinə, abidələrə, məbədlərə, sirli-soraqlı qalalara, məscid və mədrəsələrə, yerli memarlıq abidələrinə, milli adət-ənənələrimizə həmişəyaşarlıq bəxş edən, habelə xeyirxahlığı, imkansızlara, kimsəsizlərə, yaşamaq eşqi ilə üzünü xeyriyyəçilərə tutan xəstələrə, vətən və xalq qarşısında xidməti olanlara yardım ilə dünyada böyük hörmət və nüfuz qazanan Heydər Əliyev Fondu xalqımızın Ümummilli Lideri Heydər Əliyevin ideyaları əsasında formalaşıb. Bəşəri və müqəddəs missiya daşıyan bu fonda Mehriban xanım Əliyeva rəhbərlik edir.*

Hazırda respublikamızın ərazisində 6300-dən artıq tarix və mədəniyyət abidəsi mövcuddur. Çıxışlarının birində "Biz tarixi keçmişimizə nəzər salarkən ulu babalarımızın yaratdığı və indiyə qədər yaşayan abidələrlə, qalalarla, şəhərlərlə, heykəllərlə, yollarla - yaradılan hər bir şeylə fəxr edir və bunları yaradanları daim xatırlayır, onlara öz minnətdarlığımızı bildiririk" deyən Ümummilli Lider Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə bu abidələrin mühafizə, bərpa, konservasiya, tədqiqat və təbliğat işlərinin təkmilləşdirilməsini bir vəzifə olaraq qarşıya qoymuşdur.

Ulu Öndərin xalqımızın xoşbəxt gələcəyi və ölkəmizin müstəqilliyi uğrunda nələr düşündüyünü, nələr hiss etdiyini, nələr planladığını Prezidentimiz İlham Əliyev qədər Mehriban Əliyeva da bilirdi.

Heydər Əliyevin milli dövlətçilik ideyalarının həyata keçirilməsi, ölkəmizin gələcəyi ilə bağlı arzularının reallığa çevrilməsi missiyası Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla həyata keçirilir.

Bu irsi Mehriban xanım Əliyeva da Ulu Öndərin ideyaları işığında formalaşdırdığı Heydər Əliyev Fondu tərəfindən yaşadır və inkişaf etdirir. Azərbaycanın tarixi-mədəni abidələrlə, qalalar, məscidlər, məbədlər və s. ilə zəngin ərazilərindən biri də Ermənistan silahlı birləşmələrinin 30 ilə yaxın işğal altında saxladığı Qarabağ və Şərqi Zəngəzur bölgəsi olmuşdur.

Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin "dəmir yumruğ"u və şanlı Azərbaycan Ordusunun qəhrəmanlığı sayəsində bu ərazilər 2020-ci il noyabrın 8-dən erməni işğalından azad olunub. Görünən odur ki, ərazilərimiz işğal altında olanda burada ermənilər vandalizm və tarixi abidələrimizə qarşı soyqırımı siyasəti həyata keçiriblər. Qarabağ və ona bitişik rayonlarda 13 dünya əhəmiyyətli - 6 memarlıq və 7 arxeoloji, 292 ölkə, 330 yerli əhəmiyyətli memarlıq, arxeoloji, bağ, park, monumental və xatirə abidələri, sənət nümunələri məhv edilib. Həmçinin bu ərazilərdə 40 mindən artıq əşyanın toplandığı 22 muzey, yüzlərlə mədəni-maarif müəssisəsi qəsdən dağıdılıb. Vandallar 30 illik işğal dövründə məscidlərimizi, ziyarətgahlarımızı, qəbiristanlıqlarımızı tar-mar ediblər. Tariximizə iddia edə bilmədikləri məqamlarda yer adlarımızı, toponimlərimizi dəyişdirib, uydurma adlar qoyublar. Xalqımızın tarixi yaddaşını yox etmək, qədim Azərbaycan torpaqlarında türk-müsəlman mədəniyyətinin izlərini silmək üçün hər cür vəhşiliyə əl atıblar.

Tarixi-mədəni irsin, milli-mənəvi dəyərlərin qorunması, həmçinin dini ziyarətgahların, maddi-mədəniyyət abidələrinin bərpası və mühafizəsi Azərbaycan Prezidenti və Heydər Əliyev Fondu tərəfindən xüsusi diqqət mərkəzində saxlanılır. Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş bu siyasət işğaldan azad olunmuş torpaqlarımızda da uğurla davam etdirilir. Bu gün qətiyyətlə demək olar ki, 30 ilə yaxın erməni əsirliyində qalmış Qarabağ və Şərqi Zəngəzurdakı dini-mədəni abidələrimiz üçün intibah mərhələsi başlayıb.

Dövlət başçısının müvafiq fərman və sərəncamlarına, eləcə də Heydər Əliyev Fondunun layihələrinə əsasən, aidiyyəti şirkət və qurumlar ötən müddətdə bir sıra tarixi abidələrin bərpa və konservasiyasını həyata keçiriblər, hal-hazırda da bu istiqamətdə işlər davam etdirilir. Tikinti, quruculuq və bərpa işləri gündən-günə yeni vüsət alır.

29 il işğal altında olan və üç il əvvəl düşməndən azad edilən ölkəmizin mədəniyyət beşiyi, "Qafqazın konservatoriyası" hesab edilən Şuşa şəhərinin ərazisi qədim abidələrlə zəngin olmuşdur. Təəssüf ki, 1992-ci il mayın 8-də Şuşa düşmən tərəfindən işğal ediləndən sonra şəhərdə tarixi-mədəniyyət abidələri yerlə yeksan edilmişdir. İşğalın davam etdiyi 29 il ərzində burada memarlıq abidəsi sayılan 170-dən çox yaşayış binası, 160-dək mədəniyyət və tarixi abidə, 22 ümumtəhsil məktəbi, 7 uşaq bağçası, 8 mədəniyyət evi, 14 klub, 2 kinoteatr, 3 muzey dağıdılmış, məbəd və məscidlər təhqir edilmiş, 20 kitabxana yandırılmışdır.

Heydər Əliyev Fondunun prezidenti, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın dəstəyi ilə Azərbaycan musiqi mədəniyyətinin inkişafında böyük xidmətlər göstərmiş, professional vokal məktəbinin təşəkkülü və təkamülündə mühüm rol oynamış Xalq artisti Bülbülün Şuşa şəhərindəki ev-muzeyi əsaslı bərpa edilmiş, muzeyin həyətində büstü qoyulmuşdur. Bu müqəddəs məkanın açılış mərasimində Prezident İlham Əliyevin, eləcə də birinci xanım Mehriban Əliyevanın iştirakı, habelə musiqi mədəniyyətimizə olan diqqət və qayğıları ictimai rəydə rəğbətlə qarşılanmışdır.

Şuşada bərpa olunan tarixi-mədəni abidələr sırasında Ulu Öndər Heydər Əliyevin qədirbilənliyi və şəxsi təşəbbüsü ilə ucaldılmış görkəmli Azərbaycan şairi və ictimai xadim Molla Pənah Vaqifin məqbərəsinin xüsusi özəlliyi var. Xatırladaq ki, 1967-ci ildə Heydər Əliyev Şuşada olarkən Vaqifin məzarını ziyarət etmək istəmiş, lakin məzarı tapa bilməmişdir. Onun göstərişi ilə məzar tapılmış və Heydər Əliyev yaxşı vəziyyətdə olmayan məzarı ziyarət etmişdir. Ulu Öndər Vaqifə layiq bir görkəmdə abidə inşa olunması üçün tapşırıqlar vermişdir. Vaqifin məzarı üzərində 1980-1981-ci illərdə abidə və türbə tikilmişdir. Burada M.P.Vaqifin Şuşa həyatını əks etdirən 80-ə yaxın eksponat sərgilənmişdir. 1982-ci ilin yanvar ayında Heydər Əliyevin iştirakı ilə məqbərənin təntənəli açılışı olmuşdur.

Ulu Öndər Şuşada şairin məqbərəsi ilə yanaşı, Şuşa Poeziya Evinin də açılışında və orada keçirilən Vaqif Poeziya Günlərində iştirak etmişdir. Təəssüf ki, bundan 10 il sonra, 1992-ci il mayın 8-də Şuşa erməni silahlı birləşmələri tərəfindən işğala məruz qalmış və məqbərə erməni vandalları tərəfindən dağıdılmışdır.

2020-ci ildə 44 günlük Vətən müharibəsində Müzəffər Azərbaycan Ordusunun şanlı qələbəsindən sonra, 39 il əvvəl məqbərənin açıldığı gündə - 2021-ci il yanvarın 14-də Şuşa şəhərinə səfəri zamanı Vaqif türbəsini ziyarət edən Prezident İlham Əliyevin tapşırığı ilə burada təmir-bərpa və yenidənqurma işlərinə başlanıldı. Bu işlər Heydər Əliyev Fondunun rəhbəri, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın şəxsi nəzarətində oldu. 2021-ci ilin mart ayından başlayaraq türbə ilkin mərhələdə konstruktiv müayinədən keçirilərək, tələb olunan hissələr üzrə gücləndirmə tədbirləri araşdırıldı və bu çərçivədə işçi layihələr hazırlandı. İşçi layihələr əsasında xarici mütəxəssislər tərəfindən təyin edilən xüsusi kimyəvi materiallarla bərpa işləri yerinə yetirildi, korroziyaya qarşı əlavə tədbirlər görüldü. Eyni zamanda abidənin dam örtüyü yenidən quruldu.

2021-ci il avqustun 29-da Şuşada görkəmli Azərbaycan şairi və ictimai xadim Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin təmir-bərpa və yenidənqurma işlərindən sonra dövlət səviyyəsində açılışı oldu. Bir gün sonra - 2021-ci il avqustun 30-da Şuşada Vaqif Poeziya Günlərinin açılış mərasimində çıxış edən Prezident İlham Əliyev vurğuladı ki, Vaqifin məqbərəsi işğal edilmiş torpaqlardakı bütün digər tarixi abidələrimiz kimi erməni vandalizminə məruz qalıb, bu gün isə məqbərə tam bərpa edilib və ikinci açılışı olub.

İşğaldan azad edilən ərazilərdə erməni vandalizminə məruz qalan tarix-memarlıq abidələrindən biri də Qarabağ xanlığının banisi Pənahəli xanın sarayının yerləşdiyi İmarət kompleksidir. Burada Qarabağ xanlığının əsasını qoymuş Pənahəli xanın və xanlıqda müxtəlif illərdə hakimiyyətdə olmuş İbrahimxəlil xanın və onun oğlu Mehdiqulu xanın qəbirüstü türbələri, həmçinin Mehdiqulu xanın qızı Xurşidbanu Natəvanın məzarları olub. Lakin Ağdam şəhəri işğal olunduqdan sonra İbrahimxəlil xanın türbəsi və Xurşidbanu Natəvanın qəbirüstü abidəsi də ermənilər tərəfindən dağıdılıb.

Prezident İlham Əliyevin müvafiq tapşırığı və Heydər Əliyev Fondunun layihəsi ilə bu kompleksin bərpası işlərinə başlanılıb. Pənahəli xanın sarayının yerləşdiyi İmarət kompleksi üçün ilkin konsepsiya layihəsi İtaliyanın "ArtCloud Network International s.c.r.l." şirkəti tərəfindən hazırlanıb. İlkin konsepsiyaya əsasən, kompleks Pənahəli xanın sarayı, məqbərələr, kassa, məlumat mərkəzi və Qarabağ atları parkından ibarət olacaq. Pənahəli xanın sarayı bərpa edilərək interaktiv muzey kimi fəaliyyət göstərəcək.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ötən il oktyabrın 4-də Ağdamda Pənahəli xanın sarayı və İmarət kompleksində görüləcək işlərlə tanışlıqdan sonra Heydər Əliyev Fondunun dəstəyi ilə yüksək səviyyədə bərpa edilən XIX əsr Azərbaycan romantik şeirinin görkəmli nümayəndəsi, şair, rəssam, xan qızı Xurşidbanu Natəvanın qəbirüstü abidəsinin açılışı olmuşdur.

Bölgədə işğal zamanı dağıdılmış və məhv edilmiş müqəddəs ünvanlardan biri də Yuxarı Gövhər ağa məscidi olmuşdur ki, qəbul edilmiş layihələrə əsasən, Heydər Əliyev Fondunun rəhbərliyi və "Paşa Holdinq"in maliyyə dəstəyi ilə məsciddə bərpa işləri yüksək səviyyədə həyata keçirilib. Bu məscid ölkə əhəmiyyətli tarixi-mədəniyyət abidələri siyahısındadır. Tikilinin müəllifi məşhur memar Kərbəlayi Səfixan Qarabağidir. Bu, memarın ən yaxşı əsərləri sırasına daxildir. Məscidin minarələrinin ornamentləri və otaqların divar rəsmləri Şuşa şəhərində yaşayıb-yaratmış şair, rəssam və xəttat Mir Möhsün Nəvvab Qarabaği tərəfindən işlənib.

Məscidin daşları ilkin layihəyə uyğun olaraq dəyişdirilib. Konservasiya və bərpa işləri ilkin memarlıq üslubuna uyğun olaraq Azərbaycan, İtaliya və Türkiyə şirkətlərinin konsorsiumu tərəfindən və "Paşa Holdinq"in maliyyə dəstəyi ilə həyata keçirilib.

Şuşada Qarabağın tarixini özündə yaşadan yerli memarlıq abidələrindən biri də Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işlərindən sonra istifadəyə verilən Mehmandarovların malikanə kompleksidir.

Zadəgan malikanəsinin qonaq otağı milliliyi nümayiş etdirir. Burada Şuşanın tanınmış zadəgan nəsilləri - Mehmandarovlara, onlarla qohumluq əlaqəsi olan Rüstəmbəyovlara, Vəzirovlara, Qacarlara aid foto və məlumatlar yer alıb. Malikanədəki otaqları milli əşyalarla yanaşı, Avropasayağı məişət əşyaları da bəzəyir.

Xatırladaq ki, Mehmandarovlar ailəsinə məxsus kompleksə böyük və kiçik yaşayış binaları, ailə məscidi və bulaq daxildir. Malikanə kompleksi, ailə məscidi və ərazidəki bulaqda təmir-bərpa işlərinə 2021-ci ilin oktyabrından başlanılıb. Evin və məscidin dam örtükləri orijinala uyğun quraşdırılıb, tavanlar bərpa olunub və rənglənib, qapı və pəncərələr qoyulub və digər işlər görülüb. Bərpa işləri zamanı Mehmandarovların malikanə kompleksinə daxil olan bulaq istifadəyə verilib.

Fondun dəstəyi ilə bərpa və quruculuq işləri sırasında Şuşa şəhərində XIX əsrin sonlarında Qarabağ memarlıq məktəbinə xas olan üslubda inşa edilən yaşayış binasında görülən işlər də diqqətçəkəndir. İşğal zamanı dağıdılmış və istifadəyə yararsız hala salınmış üç yaşayış kompleksini özündə birləşdirən bu tikilidə binaların təməllərinin və divarlarının bərkidilməsi işləri aparılıb.

"Qarabağın döyünən ürəyi", "musiqi və incəsənət beşiyi" adlandırılan qədim Şuşanın hər bir daşında, hər bir abidəsində Azərbaycanın milli mədəniyyətinin notları həkk olunub. Qısa zaman kəsiyində türk dünyasının mədəniyyət paytaxtı kimi tanınan Şuşaya milli ruh qayıdıb. Əvvəllər olduğu kimi, Cıdır düzündə, Vaqif məqbərəsinin önündə mədəni kütləvi tədbirlərin yenidən keçirilməsinə başlanılıb. İşğaldan azad olunandan sonra bu şəhərdə şahidi və iştirakçısı olduğumuz bir-birindən dəyərli beynəlxalq tədbirlər, simpoziumlar, görüşlər, rəngarəng musiqi festivalları dediklərimizə bariz nümunədir.

Görünən odur ki, Heydər Əliyev Fondunun rəhbəri, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqət və qayğısı sayəsində Şuşanı cənnətməkana çevirmək üçün təxirəsalınmaz tədbirlər həyata keçirilmiş və keçirilməkdədir. Erməni vandalları tərəfindən dağıdılmış və məhv edilmiş bir sıra tarixi abidələrə, heykəllərə, yerli memarlıq abidəsi hesab edilən binalara ikinci həyat verilir. Şuşada, Füzulidə, Laçında yeni mədəniyyət ocaqlarının təməli qoyulub.

Birinci vitse-prezident Mehriban Əliyevanın tapşırığına əsasən, Heydər Əliyev Fondu Qarabağ ərazisində ermənilər tərəfindən dağıdılan, Azərbaycan xalqının milli sərvəti olan dini abidələrin, məscidlərin bərpası üzrə layihələrin icrasına da başlayıb. Yerli və xarici mütəxəssislərin iştirakı ilə bölgədəki ziyarətgahlarımızın bərpası, konservasiyası və yenidən qurulması, 32 ildən sonra Şuşada, Cıdır düzündə Heydər Əliyev Fondu tərəfindən təşkil olunan "Xarıbülbül" Musiqi Festivalı, fondun təşəbbüsü ilə Azərbaycan bəstəkarlıq məktəbinin görkəmli nümayəndələrinin əsərlərinin notlarından ibarət "Əbədi imzalar" toplusunun, "Qarabağın mədəni irsi" adlı nəşrlər toplusunun hazırlanması Azərbaycan xalqının mənəvi, tarixi, mədəni irsinin təşviqi və qorunması işinə dəyərli töhfələrdir.

Heydər Əliyev Fondunun layihələri sırasında əsas istiqamətlərdən biri də Qarabağda tədris-tərbiyə müəssisələrinin yaradılmasıdır. Məhz bu məqsədlə fond bütün imkanlarından istifadə etməklə məktəb tikintisinə daha çox diqqət ayırır. Fondun dəstəyi ilə inşa edilmiş müasir tipli məktəblər, xəstəxana, poliklinika, uşaq bağçaları, dini inanc yerlərimiz və s. möhtəşəmliyi ilə göz oxşayır. Artıq Füzuliyə, Ağalıya, Laçına, Zabuxa qayıdış başlayıb, güman ki, gələn ilin əvvəllərində şuşalılar da öz doğma yurd-yuvalarına dönəcəklər. Beləliklə, bu möhtəşəm şəhər Azərbaycanın və türk dünyasının mədəniyyət paytaxtı missiyasını uğurla yerinə yetirəcək.

***Rəhman SALMANLI, "Azərbaycan"***

# Azadlığın təntənə günü







# LAÇIN Azərbaycandır!



31 illik ayrılıqdan sonra Laçına ilk dəfə səfər edəndə Laçının əzəmətli dağlarını, başı ağ buludlara dirənən şiş qayalarını, gurultu ilə axıb gələn suları nəğmə deyən Laçın çaylarını, ürəyə sərinlik gətirən şırıl-şırıl axan buz bulaqlarını, gözəlliyindən göz doymayan yaşıl ormanlarını, adamı valeh edən əlvan çiçəklərini, barlı-bərəkətli bağlarını, ağ buludların arasından məğrurcasına bizə yol göstərən üçrəngli Zəfər bayrağımızı gördükdə ürəyimdən bir hiss keçdi: bu əzəmətli dağların zirvəsinə qalxıb gücüm çatdıqca, səsim yetdikcə qışqırıb "Bura Vətəndir" deyim.

Min illərin tarixindən soraq verən qədim abidələrin, adını xalqımızın qəhrəmanlıq tarixinə yazan coşqun təbiətli övladların vətəni Laçın.

Bir zamanlar hirsin-hikkənin qurbanı olub düşmənə əsir düşüb, dərdi sinəmizdə dağlar boyda olan Laçın. Sənə nə əlimiz çatırdı, nə ünümüz yetirdi... Nə də sənə baxıb ürəklə "Vətəndir" deyə bilirdik. Axı biz vətəni namus bildiyimiz üçün ona ana deyirik. Necə deyərdik ki, anamız Laçın sinəsi dağlıdır, bağrı qanlıdır. Necə deyərdik ki, Laçın dağları 30 ildir başını qara buludların arasından çıxarmır. Bağışla, Laçın, biz vaxtında sənin qədrini, qiymətini düşmən bildiyi qədər bilsəydik, yerinin, yurdunun qiymətini verə bilsəydik, canımızdan keçərdik, səndən keçməzdik. Əsir düşməyin nə qədər "sakit" keçmişdisə, qayıdışın möhtəşəm oldu. Sən Azərbaycan diplomatiyasının qələbəsi, qələbəmizin zirvəsi oldun. Sinən övlad qanı ilə bir də boyanmasın deyə, Azərbaycan Prezidenti, Müzzəfər Ali Baş Komandan səni döyüşsüz geri qaytardı. Aldı yağı düşməndən! Birdəfəlik azad etdi! Yaralı sinənə məlhəm olsun deyə, öz əli ilə bir daha enməyəcək müqəddəs bayrağı başın üstünə özü qaldırdı. İndi sən cənnətin yerdə gözlə görünən, dillə təsvir olunan rəmzisən. Yurd həsrətinin, vətən sevgisinin, vətənə sahiblik hissinin simvolusan... Erməniyə gözdağısan. Erməninin sinəndə açdığı yaraları Azərbaycan Prezidenti öz əlləri ilə sarıyır, sağaldır...

Düşmənlə üz-üzə, göz-gözə durmusan. Gündə bir boy böyüyürsən, gündə bir yol gözəlləşirsən. Tikildikcə, qurulduqca, yenidən doğulduqca düşmənə dərd olursan. İndi dünyada sənin adını bilməyən az siyasət adamı tapılar. Düşmən səni BMT-də də tanıdıb. Adın dünyanın beynəlxalq təşkilatlarında qətiyyətimizin, düzgün siyasətimizin, prinsipiallığımızın simvolu kimi çəkilir. Düşmən bütün məkrini, niyyətini Laçın yolu üzərində qurmağa çalışır. Amma bütün həmlələri səni quran, səni gözəlləşdirən, sənə həyat verən Azərbaycan Prezidenti tərəfindən dəf edilir.

Müdriklər doğru deyib ki, "Vətən sərhəddən başlanır". Sərhədində sərhədçilərimiz nəzarət-buraxılış məntəqəsi yaradıb. İndi hər istəyən yolundan yol alıb keçə, pis niyyətini həyata keçirə bilmir. Adın düşmənin canına vəlvələ salıb. Cinayətkarlar, əli qanımıza bulaşmış terrorçular adın çəkiləndə qaçıb gizlənirlər. Bilirlər ki, daha Laçından rahat keçə bilməyəcəklər. Anlayırlar ki, bir gün əməllərinin toruna düşəcəklər. Laçın nəzarət-buraxılış məntəqəsi düşmənin gözündə "sirat" körpüsünə dönüb...

Qəhrəmanlıq igidə, mərdə xas xüsusiyyətdir. Yalnız xalqının, millətinin qəhrəman oğulları, yurdun sahibləri torpağı vətən edə bilir. Dövlət başçısı səni yenidən vətən etdi. Dağıntılar altında qalmış, yandırılıb xarabazara çevrilmiş, uçurdulub viran qalmış Laçını yenidən bərpa edib həyat verdi. İndi dünyanın ən məşhur və ən çox səyahət etmiş səyyahını bu şəhərə gətirsən, Avropanın ən gözəl kurort şəhərlərindən birində olduğunu deyər. Bu şəhəri ilk dəfə görən qəti inanmaz ki, bura bir il bundan öncə düşməndən azad edilən Laçındır. Dağların yamacında məskən salmış möcüzələr adası Laçın.

İnsan zəkası ilə təbiətin yaratdığı gözəllik harmoniyası. Azərbaycan vətəndaşının torpağa bağlılığının, vətən sevgisinin, dövlətimizin iqtisadi gücünün, qüdrətinin simvolu Laçın. Artıq laçınlıların yurd həsrətinə son qoyulub. Mayın 27-dən illərdir vətən həsrətli laçınlıların doğma yurda qayıdışına start verilib. Mayın 27-də dövlət başçısı, Qarabağın xilaskarı, Müzəffər Azərbaycan Ordusunun Ali Baş Komandanı Laçına qayıdan 20 ailənin 97 nəfər üzvü ilə görüşüb, onları doğma yurdlarına qayıtmaları münasibətilə təbrik edərək, sakinlərə evlərinin açarlarını təqdim edib. Bu qısa zamanda Laçına 10 köç karvanı yola salınıb. Artıq 191 laçınlı ailəsinin 793 üzvü öz işıqlarını doğma Laçında yandırırlar. Laçının qaranlıqları aydınlığa çıxır.

Təbii ki, Laçına qayıdış bununla bitmir. Tezliklə ürəyi Vətən həsrəti çəkən digər laçınlıların da nisgilinə son qoyulacaq. Hazırda düşmənlə sərhəddə yerləşən Zabux kəndində də sürətlə təmir-bərpa, abadlıq, quruculuq işləri aparılır. Tezliklə indiyə kimi Bakı və Sumqayıt şəhərlərində məskunlaşmış 20 ailənin 88 üzvü mərhələli şəkildə doğma yurdlarına, Zabuxa qayıdacaqlar. Bu məqsədlə avqustun 7-də Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi Laçın rayonunun Zabux kəndinə birinci mərhələdə köçürüləcək ailələr arasında püşkatma da keçirib...

Avqustun 26-sı xalqımız üçün, xüsusilə laçınlılar üçün xüsusi əhəmiyyətli gündür. Xatırladaq ki, Prezident İlham Əliyevin sərəncamı ilə Qarabağ və Şərqi Zəngəzurdakı şəhərlərimizin işğaldan azad edildiyi tarixlər "Şəhər günü" kimi təsis edilib. Bundan sonra vətənsevər Azərbaycan xalqı hər il bu xüsusi günləri sevinclə, qürurla qeyd edəcək. 26 avqust xalqımızın mübarizə və qəhrəmanlıq tarixində xüsusi əhəmiyyəti ilə seçilən Laçın şəhəri günüdür. Harada yaşamalarından asılı olmayarq bütün laçınlılar və vətənsevərlər bu günü böyük bayram sevinci ilə qeyd edəcəklər.

Laçın şəhəri qələbəmizin qibləsidir. Biz Laçında möhkəmləndikcə düşmən zəifləyir. Laçında hər gün evlərdə yanan işıqların sayı artdıqca düşmənin qəlbinə qaranlıq çökür. Laçında gedən abadlıq, quruculuq işləri düşmənə dərd olur. Biz böyüdükcə düşmən kiçilir... Biz təkcə Laçında yox, ümumiyyətlə, işğaldan azad olunmuş rayonlarımızda düşmənin viran etdikləri kəndləri, şəhərləri yenidən qurmuruq, həm də düşmənin dağıtdığı yerlərin təbiətini, onun flora və faunasını bərpa edirik.

Laçın bir təbiət gözəlidir. Havası, suyu dərdlərə dərmandır. İllərdir Laçını xarabazara çevirən düşmən bu gözəl diyarın təbiətinə də ciddi ziyan vurmuşdur. Azərbaycan Prezidenti İlham Əliyev mayın 28-də Laçına səfəri zamanı Şərqi Qafqaz turlarını və şahin quşlarını təbiətə, həmçinin işğaldan azad olunmuş ərazilərdə su ekosisteminin bərpası məqsədilə müxtəlif növ balıqları Həkəri çayına buraxıb.

Bu gün laçınlı sahibkarlar öz fəaliyyətlərini doğma torpaqlarında könül rahatlığı ilə həyata keçirirlər. Təbii yem bazası ilə zəngin olan otlaqlar qoyun, quzu, mal-qara ilə doludur. Arıçılar da dillər əzbəri olan Laçın balını yığıb yığışdıra bilmirlər.

## Laçın bir təbiət gözəlidir

O, Laçın haqqında o qədər həvəslə, maraqla danışır ki, adam sözünü kəsmədən sakitcə qulaq asmaq istəyir. Hərdən yumruğunu düyünləyib, dişlərini bir-birinə qıcayır, hərdən də gözlərinin dolduğu anlar olur. Sanki ürəyi ilə danışırmış kimi, astadan pıçıltı ilə "Bu vətəni sevməmək olmaz", "Bu vətən o qədər gözəldir ki, onu sevməmək günahdır" kəlmələrini təkrarlayır:



- Laçın bir təbiət gözəlidir. Sanki Tanrı əvvəlcədən bu gözələ düşmənlərimizin "göz qoyacaqlarını" bilib buranı hündür dağlarla, keçilməz qayalıqlarla əhatə edib. Laçını bütövlükdə təbii istehkam da adlandırmaq olar. Yeri gəlmişkən, peşəkar bir hərbçi kimi söhbətə buradan başlamaq istəyirəm. Nə yaxşı ki, Müzəffər Ali Baş Komandan Laçını müharibəsiz, diplomatik yolla geri aldı. İnanın itkimiz çox olacaqdı. Bu dağların hər qarışı təbii istehkamlar, mağaralardır. 30 il bu yerlərdə möhkəmlənmiş düşməni buradan çıxarmaq üçün nələrdən keçməli olduğumuzu təsəvvür etmək çətindir. Bu uğura, bu qələbəyə görə Laçının ən yüksək zirvəsində dövlətimizin başçısının Laçın dağları kimi əzəmətli abidəsi ucaldılsa, yenə az olar.

Həmsöhbətimiz 1975-ci ildə Laçın rayonunun Hacılar kəndində anadan olmuş, 2018-ci ildən Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin Naxçıvanda yerləşən motoatıcı briqadasının komandiri, polkovnik İbrahimov Şəhadət Əlövsət oğludur.

- Orta təhsilimi doğulduğum Hacılar kəndində almışam. Atam həmişə bizə Laçının qəhrəman oğulları Sultan və Xosrov bəy Sultanov qardaşlarından söhbət açardı. Onların ermənilərə qarşı döyüşlərdə göstərdiyi qəhrəmanlıqlardan bəhs edərdi. Həmişə də deyərdi ki, "bu söhbət hələ bitməyib. Ermənilər fürsət gözləyirlər". 1990-cı illərdə ermənilərin gözlədiyi fürsət əllərinə düşdü. 1992-ci ilin 18 iyununda təpədən-dırnağa kimi silahlanmış düşmən Laçına hücuma keçmişdi. İnsanlarda xof yaratmaq üçün evləri yandırır, qadın, uşaq bilmədən qarşılarına çıxanı məhv edirdilər. Çoxuşaqlı ailə idik. Atam nə edəcəyini bilmirdi. Bizim, bacılarımın düşmən əlinə düşəcəyindən ehtiyat etsə də, son anacan döyüşdü. Onda 17 yaşım vardı. Laçından çıxmamaq, Laçının işğal olunmaması üçün canımızdan keçməyə hazırdıq. Ailəmizlə birlikdə hər şeyi etsək də, Laçını qoruya bilmədik. Atam kənddən çıxanda dediyi sözlər ömürlük yaddaşıma həkk olundu: "Biz mütləq bu torpaqlara bir də qayıdacağıq". Elə həmin gün son və qəti qərarımı verdim ki, mən hərbçi olacağam.

1993-cü ildə Lacın Rayon Hərbi Komissarlığından həqiqi hərbi xidmətə çağırılan Şəhadət İbrahimov 859 və 703 saylı hərbi hissələrin tərkibində Ağdam, Ağdərə, Tərtər, Goranboy rayonlarının müdafiəsi uğrunda aparılan döyüş əməliyyatlarında iştirak edib. İçindəki peşəkar hərbçi olmaq arzusu onu 1994-cü ildə Bakı Ali Ümumqoşun Komandanlıq Məktəbinə gətirib. 1998-ci ildə həmin məktəbi motoatıcı ixtisası üzrə bitirdikdən sonra gənc leytenant xidmətə başlayıb. Verilən hərbi tapşırıqları qüsursuz yerinə yetirən gənc zabit bu illərdə taqım komandirliyindən briqada komandiri vəzifəsinədək yüksəlib. Polkovnik Şəhadət İbrahimov deyir ki, hərbçinin bir vəzifəsi var - vətəni şərəflə qorumaq. Lazım gələrsə, Vətən üçün canından keçməyi bacarmaq. Qalanları əmrdir. Sözsüz ki, yüksək komandanlığın əmrləri sözsüz icra olunmalıdır. Şükür Allaha ki, hələlik qüsursuz olaraq vətənə xidmət edirik.

Şəhadət daha çox hərbi biliklərə yiyələnmək məqsədilə 2014-cü ildə Azərbaycan Silahlı Qüvvələrinin Hərbi Akademiyasına daxil olub. 2016-cı ildə akademiyanı müvəffəqiyyətlə bitirərək magistr dərəcəsi ilə məzun olub.

Xidmət müddətində Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə "Hərbi xidmətlərə görə" medalı, "Qüsursuz xidmətə görə" 3-cü, 2-ci və 1-ci dərəcəli, "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü və 2-ci dərəcəli medalları, Azərbaycan Ordusunun yaranmasının 10, 90, 95, 100 illik medalları, 2003-cü ildə yubiley döş nişanı, 2019-cu ildə "Azərbaycan Respublikası Silahlı Qüvvələri veteranı" medalı ilə təltif olunub. Şəhadət İbrahimov hərbi sənətin sirlərinə daha yaxşı bələd olmaq məqsədilə 1998-ci, 2014-cü, 2016-cı illərdə Azərbaycan-Türkiyə, 2018-ci ildə Türkiyə-Azərbaycan təlimlərində iştirak edib, Türkiyə Silahlı Qüvvələrində ixtisasartırma kurslarında olub.

Şəhadət İbrahimov deyir ki, bütün peşələr maraqlıdır. Amma hərbi sənətin özünəməxsusluğu var. Başqa peşə sahibləri ali təhsil alan kimi öyrəndiklərini praktikada tətbiq etməyə çalışırlar. Amma hərbçilər bunun üçün bəzən illərlə gözləməli olurlar: "1992-ci il Laçının işğalının bir səbəbi hakimiyyət uğrunda siyasi savaşın olması idisə, digər tərəfdən peşəkar ordunun, vahid mərkəzdən idarə olunan komandanlığın olmaması idi. Biz düşməni məğlub etmək üçün illərlə gözlədik. Hərbdə tələsik qərar verən uduzur. O adamlar qalib olur ki, ən çətin anda ən doğru qərarı verə bilirlər. Cənab Ali Baş Komandan da orduya lazım olduğu zamanda əmr verdi. Həmin gün yadıma atamın bir zamanlar Laçını tərk edərkən dediyi "biz mütləq bu torpaqlara bir də qayıdacağıq" sözləri düşdü. Vətən müharibəsi zamanı təcrübəli bir hərbçi, Laçına yaxşı bələd olan, onun hər daşına, hər cığırına bələd olan bir adam kimi üzərimə düşən işi gördüm".

Bu gün Böyük qayıdışa start verilib. Laçınlılar doğma yurdlarına qayıdırlar. Laçına qayıtmaq həsrəti ilə yaşayanlar sırasında polkovnik Şəhadət İbrahimovun atası, Laçını son anda tərk edənlərdən olan Əlövsət kişi, anası Siyatel xanım, oğlanları İbrahim, İsmayıl, Əlövsət də var...

Şəhadət deyir ki, 26 avqust laçınlıların milli bayramıdır. Bizə bu günü yaşadan, bu xoşbəxtliyi bəxş edən Ali Baş Komandanımıza "Yaşa, var ol!" deyirəm.

## Laçın mənim sevincimdir

Vətən! Doğulub boya-başa çatdığımız torpaq, doğma yurd, el-oba! İllərlə suyuna, havasına, gözəlliyinə həsrət qaldığımız ana torpaq. 29 il düşmən əsarətində qalan Vətəndən ayrı düşəndə hələ uşaq idim. Onu görmədən, amma Vətən haqqında valideynlərimin söhbətlərini dinləyərək, qəlbimin ən dərin yerində hiss edərək, onu görmək arzusu ilə yaşayaraq böyüdüm... Şükür ki, vətənimizə qovuşduq.



Sözünün ardını gətirə bilmir. Gözlərində mirvari kimi yaş gilələnir...

Həmsöhbətimiz 1987-ci ildə Kəlbəcər rayonunun Nəcəfalılar kəndində doğulub, uşaqlığını Laçın rayonunun Qozlu kəndində yaşamış Aytac Abbasovadır. Aytac xanım deyir ki, uşaqlığımı qorxulu kino kimi xatırlayıram. Hər tərəfdən tüstü qalxırdı, atəş səsi gəlirdi. Anam məni sinəsinə sıxıb qaçırdı. Hara gedəcəyimizi bilmirdik. Anam arabir qayaların arasında gizlənir, mənə deyirdi ki, səsini çıxarma, hər şey yaxşı olacaq. Şükür ki, gec də olsa, bu günü gördük. Ağlaya-ağlaya tərk etdiyimiz Laçına gülə-gülə qayıtdıq... Bütün həyatımız boyu bizə bu sevinci yaşadan Prezidentimizə borcluyuq.

Öyrənirik ki, Aytac Abbasova ADPU-nun Filologiya fakültəsini bitirdikdən sonra BSU-nun magistr, 2011-2015-ci illərdə AMEA-nın Folklor İnstitutunda doktorantura pilləsini başa vurub. 2013-cü ildən Laçın rayonunun Qozlu kənd orta məktəbində müəllim kimi fəaliyyətə başlayan Aytac Abbasova 2015-ci ildən həmin məktəbin direktoru kimi fəaliyyət göstərir.

Aytac xanım deyir ki, uşaqlığımı və gəncliyimi məcburi köçkünlükdə keçirməyim, yurd həsrətli, yurd arzulu olmağım mənə vətəni daha çox sevməyi öyrətdi: "Hərbçi ailəsində böyümüşəm. Atam Abbasov Hicran Birinci Qarabağ müharibəsinin döyüşçüsü olub. Ömrünü vətənə xidmətə həsr edib.

Bilirsiniz, mənim ürəyimdəki vətən arzusundan başqa, dilimdə olan bir vətən nəğməsi də var idi. Bu nəğməni hərə bir cür oxuyur. Sonsuz arzularla doğma torpağa dikilmiş bütün gözlər, hələ balaca uşaqlarımızın ürkək qəlbləri ancaq bu nəğməni zümzümə edir: "Ay Laçın, can Laçın! Mən sənə qurban Laçın!"

Aytac müəllim deyir ki, bir pedaqoq olaraq gəldiyim qənaət budur ki, bütün hisslərin ən safı vətən sevgisidir. İnsanı zirvəyə aparan yol vətəndən keçir. Şagirdlərimizə aşılamaq istədiyimiz hiss budur. Vətənimizin başı çox bəlalar çəkib. Ancaq igid, yenilməz oğullarımız öz ağıl və cəsarəti ilə sinəsini düşmənə sipər etdilər. Odlar yurdu özünəlayiq ər oğullar yetirmiş, cəsur, qeyrətli qızlar, qadınlar tərbiyə etmişdir. Elə igidlər ki, əsrlər keçsə də, onların adı xalqımızın qan yaddaşında əbədi iz buraxmış, bu günümüzə qədər xatirələrdən silinməmişdir. Şagirdlərimizə tarixi qəhrəmanlarımızla yanaşı, torpaqlarımızı düşmən işğalından azad edərkən canlarını fəda etmiş qəhrəmanlarımızdan - Mübarizdən, general Polad Həşimovdan, şəhidlik zirvəsinə ucalarkən vətən nəğməsi oxuyan Xudayardan, Cəbrayıldan və minlərlə igid oğullarımızdan danışırıq.

Aytac Abbasova deyir ki, 32 ildən sonra işğaldan azad olan Laçınımızı ziyarət etdim. Çox möhtəşəm hiss idi. Onu ifadə etməkdə acizəm. Laçında dövlətimizin gücünü, qüdrətini görüb azərbaycanlı olduğumla fəxr etdim. Laçın arzuladığımızdan da gözəl olubdur, daha ecazkar və daha füsunkardır. Laçınlılar bu gün öz yurdlarında, ev-eşiklərində yaşayır, yaradırlar.

Aytac xanım filologiya üzrə fəlsəfə doktorudur. "Kəlbəcər folklorunun regional xüsusiyyətləri" adlı monoqrafiyanın müəllifidir. Qarabağ folklorunun toplanması və araşdırılması istiqamətində elmi araşdırmalarını davam etdirir.

Aytac müəllim deyir ki, çalışıram vətənimin gələcək vətəndaşları olan şagirdlərimə yüksək səviyyədə vətənpərvərlik hissi aşılayım. Çalışdığım ümumtəhsil müəssisəsi məcburi köçkün məktəbidir. Laçın rayonu Qozlu kəndində fəaliyyət göstərmiş və sakinləri ilə birgə məcburi köçkünlük həyatı yaşamış təhsil ocağıdır. Hər əlamətdar gündə çıxışımın sonunda "İnşallah, tezliklə Laçına qayıdacayıq. Və bu tədbiri Laçında bundan da möhtəşəm qeyd edəcəyik" deyərək yüzlərlə şagirdin, körpə fidan balaların "amin" səsi ilə ümidlərimizi gücləndirdik.

Bizi vətənə qovuşduranlar - qəhrəman şəhidərimiz, igid qazilərimiz, düşməni hər sahədə yerində oturdan "dəmir yumruq"lu Müzəffər Ali Baş Komandanımız, əsrimizin sərkərdəsi cənab Prezidentimiz, biz sizlərə tarixboyu borcluyuq!

Azadlığın daimi olsun, qartal yuvası, qartal baxışlı Laçın!

Həmişə həsrətdən, kədərdən ağlayan gözlər bu gün sevincdən bulaq kimi qaynayıb göz yaşı axıdır...

***Hazırladı:***
***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# Daşaltıda nəşinin qalıqları tapılan Nofəl Qurbanov torpağa tapşırılıb





Otuz bir il əvvəl Şuşada - Daşaltı uğrunda gedən döyüşlərdə şəhid olan Nofəl Qurbanov paytaxtın Sabunçu rayonunun Bakıxanov qəsəbəsində yerləşən Şəhidlər xiyabanında torpağa tapşırılıb.



AZƏRTAC xəbər verir ki, dəfn mərasimində şəhidin ailə üzvləri, yaxınları ilə yanaşı, hökumət və ictimaiyyət nümayəndələri, rayon sakinləri, qazilər, şəhid ailələri, döyüş yoldaşları, media nümayəndələri iştirak ediblər.

Dəfn zamanı şəhidlərimizin ruhuna dualar oxunub və "Şəhidlər ölməz, Vətən bölünməz" şüarı səsləndirilib.

Şəhid Nofəl Qurbanov əsgəri ənənələrə uyğun olaraq yaylım atəşi və Azərbaycan Respublikasının Dövlət Himninin sədaları altında torpağa tapşırılıb.

Şəhidin nəşinin büküldüyü üçrəngli Azərbaycan bayrağı böyük qardaşı Namiq Qurbanova təqdim olunub.

Namiq Qurbanov jurnalistlərə müsahibəsində qardaşı Nofəllə bağlı xatirələrini bölüşüb: "Nofəl beş qardaşın ortancılı idi. Çox istiqanlı, mehriban, qorxmaz oğul idi. Onun iki dostu Qanlı Yanvar hadisələri zamanı şəhid oldu. Bundan sonra Nofəl yerə-göyə sığmırdı. Birinci Qarabağ müharibəsi başlayanda 1991-ci ildə könüllü olaraq döyüşlərə qatıldı. İyirmi yaşı yenicə tamam olmuşdu. Lakin daxilində yaşından böyük qəzəb, intiqam hissi var idi. Deyirdi, bizim analarımız, bacılarımız, körpələrimiz düşmənin hədəfinə çevrilib, mən burada qala bilmərəm. Yaşlı atamız belə onu yolundan döndərə bilmədi. Ona dedik ki, nə zaman çağırsalar, gedərsən. Lakin o, razılaşmadı. 1991-ci ilin dekabrında Şuşa rayonunun Malıbəyli və Quşçular kəndlərinin azadlığı uğrunda döyüşlərə qatıldı. Onunla son görüşümüz 1992-ci il yanvarın ortalarında oldu. Həmin zamanlar evə gəlmişdi. Beş gündən sonra yenidən döyüş bölgəsinə qayıtdı və Daşaltı əməliyyatında iştirak etdi. Elə o zaman da itkin düşdü. Ona şəhid itkin statusu verilmişdi. Çox şükür ki, 31 ildən sonra Nofəlin nəşi bizə verildi və uzun illərdən sonra gözlərimiz yollardan çəkildi. Nofələ deyiləsi o qədər sözümüz var idi ki... Bu gündən sonra onun məzarının üstündə dərdləşə, təskinlik tapa biləcəyik".

Şəhidin döyüş yoldaşı Mübariz Səadətovun sözlərinə görə, Nofəl yaşca onlardan çox kiçik olduğuna görə ona kiçik qardaş deyirmişlər. Daşaltı əməliyyatından danışan M.Səadətov deyib: "Daşaltı əməliyyatına 1992-ci il yanvarın 26-sı axşam girdik. Döyüş istədiyimiz kimi yekunlaşmadı. Hərə müxtəlif istiqamətlərə səpələndiyindən döyüş yoldaşlarımızın bəzilərini tapa bilmədik. Onu bilirdik ki, döyüşə yollanan bir tağım, yəni 25 nəfər geriyə salamat qayıtmadı. Daşaltıda 110 nəfərə yaxın silahdaşımız itkin düşdü. Sağ qalanları isə Allahın möcüzəsi xilas etdi. Duman, qar olmasa idi, yəqin ki, oradan salamat çıxan olmayacaqdı. 31 il idi ki, itkinlərimizin yolunu gözləyirdik. Biz səngər qardaşımız Nofəli adına layiq şəkildə dəfn etdik. Arzu edirəm ki, digər itkin qardaşlarımızdan da xəbər gəlsin".

Qeyd edək ki, 1971-ci il dekabrın 3-də Bakıda anadan olan Nofəl Qurbanov 1992-ci il yanvarın 26-da Daşaltı əməliyyatı zamanı şəhidlik zirvəsinə ucalıb.

# Ermənistandakı hasilat mədənlərinin kosmik monitorinqinə dair hesabat təqdim edilib

**Avqustun 25-də Ermənistan Respublikası ərazisindəki hasilat mədənlərinin kosmik monitorinqinə dair hesabatın təqdimat mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, hesabatda Ermənistan ərazisində istismar olunan mədənlərin Ermənistanın, transsərhəd çaylar vasitəsilə Azərbaycanın, o cümlədən digər qonşu ölkələrin ekologiyasına ziyan vurması barədə ətraflı məlumat qeyd olunub.

Hesabatı təqdim edən "Sudan İstifadə Sahəsində Mütəxəssislər" İctimai Birliyinin sədri Amin Məmmədov Qafan, Voskedzor, Arcut, Yuxarı Vardanidzor, Meqhasar, Azatek, Armanis, Qaraberd, Meqradzor, Hankasar, Şamlux, Sotk, Amulsar, Aqarak, Tequt, Qaracan, Aygedzor, Liçk, Mqart, Sofi Binay, Dastakert, Razdan, Tuxmanuk, Mərcan və Liçqvay-Tey mədənlərindən çıxarılan polimetalın, qızılın, gümüşün, molibdenin, sinkin ətraf mühitə ciddi zərər vurduğunu, ekoloji fəsadlar yaratdığını diqqətə çatdırıb. Qeyd olunub ki, Ermənistanda mədən sənayesinə yatırılan investisiyanın həcmi artsa da, bu proses ekoloji vəziyyətin sürətli şəkildə məhvi ilə müşayiət olunur. Mədən sənayesində davam edən fəaliyyət region ölkələrinin ekoloji durumuna təsirsiz ötüşmür. Mədənlərin bir çoxunun su mənbələrinin yaxınlığında yerləşməsi ətraf mühit üçün zərərli hesab edilən kimyəvi tullantıların çaylara axıdılmasına gətirib çıxarır.

Bildirilib ki, transsərhəd su axınları hesabına Azərbaycanın yerüstü su ehtiyatlarının təxminən 70 faizi qonşu ölkələrdə formalaşıb. Ermənistan coğrafi baxımdan Azərbaycandan keçən çayların hövzəsində yerləşdiyinə görə onun ərazisində həyata keçirilən mədən sənayesi üzrə hər hansı bir tədbir mütləq ekoloji baxımdan ölkəmizə təsir edir. Ermənistan Espo Konvensiyasının üzvü kimi ölkə ərazisində aparılan mədən fəaliyyəti barədə məsləhətləşməli və bir çox halda Azərbaycanın razılığını almalıdır. Razılıq əldə ediləndən sonra hansısa fəaliyyət həyata keçirilməlidir.

Amin Məmmədov qeyd edib ki, bu mədənlərdə ətrafa yayılan tozlar və emal prosesində istifadə olunan kimyəvi maddələr həm hava yolu ilə, həm də su ilə respublikamızın ekologiyası üçün böyük təhlükə yaradır.

Digər çıxış edənlər bildiriblər ki, Ermənistan ərazisindəki hasilat mədənlərinin kosmik monitorinqinin nəticələri bu yataqların ölkəmiz üçün çox zərərli olduğunu göstərir. Qeyd olunub ki, faydalı ehtiyatların istismarı gəlirli sahə olsa da, ətraf mühitə mənfi təsir göstərir. Aktiv istismar zamanı emal mərhələləri çoxsaylı ekoloji problemlərlə müşayiət olunur. Bu tip ərazilərin monitorinqində kosmik metodlar geniş istifadə olunur. Hazırda müxtəlif peyklər Yer səthinin mütəmadi olaraq müxtəlif diapazonlarda təsvirlərinin əldə olunmasını təmin edir. Peyk təsvirlərinin geniş əhatə dairəsi, istənilən ərazi üçün məlumatların operativ əldə olunması, həmin məlumatların obyektivliyi kimi xüsusiyyətləri onları ətraf mühitin monitorinqində əvəzolunmaz vasitəyə çevirir. Müxtəlif dövrlərdə əldə olunmuş təsvirlərin müqayisəli təhlili ərazidə baş verən dəyişikliklərin aşkarlanmasına, dəyişmə dinamikasının və tendensiyasının müəyyən edilməsinə imkan verir.

Tədbir sual-cavab formatında davam edib.

Qeyd edək ki, sözügedən hesabat "Environmental Protection First" QHT koalisiyası tərəfindən Azərbaycan Respublikasının Kosmik Agentliyinin dəstəyi ilə hazırlanıb. Təqdimatda dövlət qurumlarının, beynəlxalq təşkilatların və səfirliklərin, QHT və media qurumlarının təmsilçiləri iştirak ediblər.

# Sərsəng su anbarında yaranmış vəziyyətlə bağlı birgə bəyanat yayılıb

**Sərsəng su anbarında yaranmış vəziyyətlə bağlı Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi və Dövlət Su Ehtiyatları Agentliyi birgə bəyanat yayıblar. AZƏRTAC bəyanatı təqdim edir.**

Otuz ildən artıqdır ki, 1976-cı ildə Tərtərçayın üzərində yaradılmış və hazırda Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki Sərsəng su anbarı Ermənistan və onun himayə etdiyi qüvvələr tərəfindən məqsədyönlü şəkildə ekoloji və sosial-iqtisadi terror vasitəsi kimi istifadə olunur. Qəza vəziyyətində olan su anbarı aşağı hissədə yerləşən yaşayış məntəqələri, təsərrüfatlar və infrastruktur obyektləri üçün ciddi təhlükələr yaradır. Bununla əlaqədar Avropa Şurası Parlament Assambleyası tərəfindən qəbul olunmuş 2016-cı il 26 yanvar tarixli 2085 nömrəli qətnamədə Ermənistanın hərəkətləri Azərbaycan vətəndaşları üçün humanitar və ekoloji problemlərin yaradılmasına yönəlmiş ekoloji təcavüz kimi qiymətləndirilib.

Sənəddə xüsusilə vurğulanır ki, Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərində yerləşən Sərsəng su anbarının düzgün idarə olunmaması çoxsaylı insan tələfatı və yeni humanitar böhrana səbəb ola biləcək böyük fəlakətə gətirib çıxara bilər. Eyni zamanda assambleya Ermənistan hakimiyyətini su resurslarından siyasi təsir və ya təzyiq vasitəsi kimi istifadə etməyi dayandırmağa çağırıb.

Ümumi su tutumu 560 milyon kubmetr olan Sərsəng su anbarının düzgün və öz təyinatı üzrə idarə olunmaması, su ehtiyatlarından uğursuz, səmərəsiz istifadə edilməsi ətraf mühit və insan sağlamlığına, ümumilikdə regionun ekosisteminə ciddi mənfi təsir göstərməkdə, sosial-iqtisadi fəsadlar törətməkdə davam edir.

Belə ki, su anbarının idarə olunması zamanı ekoloji, o cümlədən iqlim amillərinin nəzərə alınmaması su səviyyəsinin aşağı düşməsi ilə ekoloji risklərin daha da kəskinləşməsinə səbəb olur. Bu vəziyyət su anbarının fauna və florasına mənfi təsir göstərir, bitki örtüyünün məhv olmasına, balıq ehtiyatlarının azalmasına, quşların təbii yaşayış areallarının itirilməsinə, ətrafdakı meşə ərazilərinin qurumasına, eroziya proseslərinin güclənməsinə, səhralaşmaya və ümumilikdə ekosistemin tarazlığının pozulmasına gətirib çıxarır.

Ermənistan və onun himayə etdiyi qüvvələr ekoloji təcavüzlə yanaşı, böyük kənd təsərrüfatı potensialı və münbit torpaq ehtiyatlarına malik Tərtər, Ağdam, Bərdə, Goranboy, Yevlax və Ağcabədi rayonlarının ərazilərinə suvarma tələb olunan mövsümlərdə su anbarından qərəzli şəkildə suyun verilməsinə mane olaraq Azərbaycanın iqtisadiyyatına külli miqdarda ziyan vurmuş və vurmaqda davam edir. Sərsəng su anbarının öz təyinatı üzrə istifadə olunmaması nəticəsində yaranan su çatışmazlığı səbəbindən həmin rayonların ərazisində 100 min hektar əkin sahəsi aktiv kənd təsərrüfatı dövriyyəsinə cəlb edilə bilmir. Eyni zamanda əhalinin içməli suya olan tələbatının ödənilməsi və qismən suvarılmanın aparılması məqsədilə yeraltı sulardan intensiv istifadə edilməsi təbii resursların tarazlığının pozulmasına səbəb olub.

Ermənistanı himayə etdiyi qüvvələr vasitəsilə sözügedən rayonların əhalisinin Birləşmiş Millətlər Təşkilatının dayanıqlı inkişaf məqsədlərindən biri kimi "Təhlükəsiz və təmiz suya əlçatanlıq" təməl insan hüquqlarının pozulmasına, regionun ekosisteminin deqradasiyasına, fauna və floranın itirilməsinə səbəb olan hərəkətlərindən əl çəkməyə çağırırıq.

# Mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən 2023-cü ilin sentyabr ayında şəhər və rayonlarda keçiriləcək vətəndaşların qəbulu cədvəli

| S/n | Qəbulu keçirən mərkəzi icra hakimiyyəti orqanı və idarəetmə qurumunun rəhbəri | Qəbulun keçirildiyi şəhər, rayon | Əhatə olunan şəhər və rayonlar | Qəbulun keçirildiyi gün |
|---|---|---|---|---|
| 1. | **Baş prokuror** Kamran Əliyev | **Şabran** | Şabran, Siyəzən, Xızı | **01** |
| 2. | **Gənclər və idman naziri** Fərid Qayıbov | **Şabran** | Şabran, Xaçmaz | **06** |
| 3. | **Rəqəmsal inkişaf və nəqliyyat naziri** Rəşad Nəbiyev | **Astara** | Astara, Lənkəran, Lerik, Masallı, Cəlilabad, Yardımlı | **11** |
| 4. | **Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi** Mürsəl İbrahimov | **Naxçıvan** | Naxçıvan, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur | **12** |
| 5. | **Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri** Bahar Muradova | **Tərtər** | Tərtər, Bərdə | **13** |
| 6. | **Ədliyyə naziri** Fikrət Məmmədov | **Naxçıvan** | Naxçıvan, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur | **14** |
| 7. | **Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri** Anar Quliyev | **Cəlilabad** | Cəlilabad, Biləsuvar, Cəbrayıl | **14** |
| 8. | **Ekologiya və təbii sərvətlər naziri** Muxtar Babayev | **Ağcabədi** | Ağcabədi, Ağdam, Laçın | **15** |
| 9. | **Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri** Zaur Mikayılov | **Quba** | Quba, Qusar | **15** |
| 10. | **"Azərişıq" ASC-nin sədri** Vüqar Əhmədov | **Göygöl** | Göygöl, Daşkəsən | **15** |
| 11. | **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri** Mübariz Qurbanlı | **Ucar** | Ucar, Kürdəmir, Göyçay, Zərdab | **19** |
| 12. | **Energetika naziri** Pərviz Şahbazov | **Füzuli (Horadiz şəhəri)** | Füzuli, Beyləqan, Xocavənd | **22** |
| 13. | **Əmək və əhalinin sosial müdafiəsi naziri** Sahil Babayev | **Mingəçevir** | Mingəçevir, Yevlax | **22** |
| 14. | **İqtisadiyyat naziri** Mikayıl Cabbarov | **Astara** | Astara, Lənkəran, Lerik | **22** |
| 15. | **Kənd təsərrüfatı naziri** Məcnun Məmmədov | **Şəki** | Şəki, Qax | **22** |
| 16. | **Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədri** Saleh Məmmədov | **Masallı** | Masallı, Yardımlı | **22** |
| 17. | **Qida Təhlükəsizliyi Agentliyinin sədri** Qoşqar Təhməzli | **Naxçıvan** | Naxçıvan, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur | **22** |
| 18. | **"Azəristiliktəchizat" ASC-nin sədrinin vəzifəsini müvəqqəti icra edən** İlham Mirzəliyev | **Biləsuvar** | Biləsuvar, Cəlilabad, Cəbrayıl | **22** |
| 19. | **"Azəriqaz" İstehsalat Birliyinin baş direktoru** Ruslan Əliyev | **Kürdəmir** | Kürdəmir, Ucar, Zərdab | **22** |
| 20. | **Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri** Rövşən Rzayev | **Şirvan** | Şirvan, Hacıqabul | **27** |
| 21. | **Daxili işlər naziri** Vilayət Eyvazov | **Masallı** | Masallı, Lənkəran, Astara, Lerik, Yardımlı | **28** |
| 22. | **Mədəniyyət naziri** Adil Kərimli | **Mingəçevir** | Mingəçevir, Yevlax | **28** |
| 23. | **Elm və təhsil naziri** Emin Əmrullayev | **İmişli** | İmişli, Beyləqan, Saatlı, Sabirabad, Xocavənd | **29** |
| 24. | **Fövqəladə hallar naziri** Kəmaləddin Heydərov | **Göygöl** | Göygöl, Daşkəsən | **29** |
| 25. | **Dövlət Gömrük Komitəsinin sədri** Şahin Bağırov | **Yevlax** | Yevlax, Mingəçevir | **29** |
| 26. | **İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri** Zaur Əliyev | **Sabirabad** | Sabirabad, Saatlı, İmişli, Hacıqabul | **29** |

Vətəndaşların qəbulu müəyyən edilmiş günlərdə saat 10:00-da başlayır.

# Prezidentin göstərişi ilə bölgələrdə vətəndaşların qəbulu keçirilir

Energetika naziri Pərviz Şahbazovun və nazirliyin müvafiq struktur bölmə rəhbərlərinin iştirakı ilə Gədəbəy rayon Heydər Əliyev Mərkəzində vətəndaşların müraciətlərinə baxılıb.

Nazirlikdən bildiriblər ki, təşkil edilmiş qəbulda vətəndaşların elektrik enerjisi təchizatı, şəbəkəyə qoşulma, qazlaşdırma, işlə təminat və digər məzmunlu müraciətləri dinlənilib, qaldırılan məsələlərin qanunvericiliyin tələblərinə uyğun həll edilməsi üçün lazımi tapşırıqlar verilib.

Qəbulda Gəncə şəhəri və Gədəbəy rayonundan olan vətəndaşlar iştirak ediblər.

* * *

Dövlət Gömrük Komitəsinin (DGK) sədri Şahin Bağırov Oğuz şəhərindəki Olimpiya İdman Kompleksində Oğuz və Qəbələ rayonlarından olan vətəndaşları qəbul edib.

Komitədən AZƏRTAC-a bildiriblər ki, DGK-nın müvafiq strukturlarının rəhbərlərinin iştirakı ilə keçirilən qəbulda Oğuz və Qəbələ rayonları sakinlərinin müraciətləri dinlənilib.

Vətəndaşların müraciətləri əsasən işə qəbul, idxal-ixrac əməliyyatları və digər gömrük məsələləri ilə bağlı olub.

Qəbul zamanı hər bir vətəndaşın müraciəti diqqətlə dinlənilib və qaldırılan məsələlərin bir qismi yerindəcə həllini tapıb, araşdırılması tələb olunan bəzi müraciətlərlə bağlı müvafiq tədbirlər görülməsi üçün aidiyyəti strukturların rəhbərlərinə tapşırıqlar verilib.

* * *

Avqustun 25-də baş prokuror Kamran Əliyev Qax Rayon Prokurorluğunun inzibati binasında Qax, Şəki, Balakən, Zaqatala və digər rayonlardan olan vətəndaşlarla görüşüb.

Görüşdə iştirak edən 25 vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, mülki xarakterli mübahisələr, habelə sosial problemlərlə bağlı qaldırdığı məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün Kamran Əliyev müvafiq göstərişlər verib.

Sonra baş prokuror əməkdaşlarla görüşlər keçirərək onlara konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdıqlarını diqqətə çatdırıb.

# İlahiyyat İnstitutunda Laçın Şəhəri Günü ilə əlaqədar tədbir keçirilib

Azərbaycan İlahiyyat İnstitutunda (Aİİ) 26 Avqust - Laçın Şəhəri Günü ilə əlaqədar tədbir keçirilib. Tədbirdə Aİİ-nin tələbələri və əməkdaşları iştirak ediblər. Əvvəlcə vətənimizin ərazi bütövlüyü uğrunda şəhid olanların ruhları birdəqiqəlik ehtiram sükutu ilə yad edilib.



Aİİ-nin rektoru dosent Aqil Şirinov Prezident İlham Əliyevin sərəncamı ilə yeni təsis olunan Laçın Şəhəri Günü münasibətilə hamını təbrik edib. Ermənistanın təcavüzü nəticəsində 30 ilə yaxın müddətdə işğal altında qalmış tarixi torpaqlarımızın cənab Prezident İlham Əliyevin uğurlu siyasəti və qəhrəman əsgərlərimizin səyi nəticəsində 44 günlük Vətən müharibəsində işğaldan azad olunduğunu xüsusi vurğulayan ali təhsil müəssisəsinin rəhbəri şəhidlərimizə rəhmət diləyib, qazilərimizə cansağlığı arzulayıb. Zəfərə aparan hər bir günün Azərbaycan tarixinə qızıl hərflərlə yazıldığnı söyləyən A.Şirinov Prezidentin sərəncamı ilə işğaldan azad olunmuş ərazilər üzrə şəhər günlərinin təsis edilməsinin mühüm bir hadisə olduğunu vurğulayıb.

Rektor daha sonra qeyd edib ki, işğal dövründə ermənilər tərəfindən şəhərlərimiz, kəndlərimiz, qəsəbələrimiz viran qoyulub, mədəni irsimizə böyük zərbə vurulub, tarixi-mədəni və dini abidələrimiz, məscidlərimiz yerlə yeksan edilib. Ərazilərimizin görünməmiş vandalizmə məruz qaldığını təəssüflə deyən rektor hazırda Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulduğunu, torpaqlarımızın minalardan təmizləndiyini, genişmiqyaslı bərpa və yenidənqurma işlərinin sürətlə aparıldığını bildirib.

Rektor A.Şirinov Laçın və Füzuli şəhərlərinə, Zəngilan rayonunun Ağalı, Tərtər rayonunun Talış, Laçın rayonunun Zabux kəndlərinə keçmiş məcburi köçkünlərin qayıdışının artıq başladığını və bu köçün davam etdiyini diqqətə çatdırıb.

Aİİ rəhbəri Laçın şəhərinin yaranması, onun əlverişli coğrafi mövqedə yerləşməsi, tarixboyu bu ərazidə insanların məskunlaşması barədə ətraflı məlumat verib. O, həmçinin Laçının tarixi şəxsiyyətləri barədə də söz açıb, onların Azərbaycanın sosial-iqtisadi, mədəni inkişafına töhfələrini vurğulayıb.

*"Azərbaycan"*


# OXUCULARIN NƏZƏRİNƏ!

## "AZƏRBAYCAN" *qəzetinə*

*abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |




**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# BMT-nin Azərbaycandakı ofisinin rəhbəri ADAU-da olmuşdur

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Azərbaycandakı Tərəfdaşlıq və Əlaqələndirmə Ofisinin rəhbəri Muhammad Nasar Hayatın rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycan Dövlət Aqrar Universitetində olmuşdur.



Universitetin rektor vəzifəsini icra edən Zəfər Qurbanov ADAU-nun maddi-texniki bazası, beynəlxalq əlaqələri və ikili diplom proqramları haqqında qonaqlara ətraflı məlumat vermişdir. Diqqətə çatdırmışdır ki, bu il universitetin 100-dən çox tələbəsi Erasmus+ proqramı çərçivəsində təhsil almaq üçün Avropanın müxtəlif ölkələrinə göndərilmişdir. FAO ilə birgə həyata keçirilən layihələr barədə məlumat verən Z.Qurbanov mövcud əməkdaşlığın daha sıx şəkildə davam etdirilməsinin vacibliyinə toxunmuşdur.

Muhammad Nasar Hayat Azərbaycan Dövlət Aqrar Universitetində olmaqdan məmnun olduğunu bildirmiş və demişdir ki, bu, onun ali təhsil ocağına ilk səfəri olmasına baxmayaraq, təəssüratları yüksək səviyyədədir.

Görüş çərçivəsində əməkdaşlıq perspektivləri, mütəxəssis mübadiləsi və birgə layihələrin həyata keçirilməsi məsələləri də müzakirə edilmişdir. Görüşdən sonra qonaqlar universitetin müasir laboratoriyalarına, tələbə parkına, tələbə evlərinə və heyvandarlıq təsərrüfatlarına baş çəkmişlər.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# BİLDİRİŞ

"Azərenerji" ASC tərəfindən 06.02.2023-cü il və 17.02.2023-cü il tarixlərdə elan edilmiş

- **330/110/10 kV-luq "Ələt Azad İqtisadi Zona" Yarımstansiyanın tikintisi, "Qobu" Elektrik Stansiyasının 330 kV- luq Açıq Paylayıcı Qurğuda və "Cənub" Elektrik Stansiyasının 330 kV-luq Qapalı Paylayıcı Qurğuda genişlənmə tədbirlərinin icrası, yeni xətt üçün əlavə 330 kV-luq yuvaların quraşdırılması işlərinin satın alınması;**
- **330 kV-luq "Qobu Elektrik Stansiyası - Ələt AİZ Yarımstansiyası" Elektrik Veriliş Xəttinin tikintisi işlərinin satın alınması;**
- **330 kV-luq "Cənub Elektrik Stansiyası - Ələt AİZ Yarımstansiyası" Elektrik Veriliş Xəttinin tikintisi işlərinin satın alınması məqsədi ilə müsabiqələrin müddəti podratçının sorğusuna əsasən uzadılır.**

İddiaçıların tenderdə iştirak etmək üçün sənədlərinin son təqdim olunma tarixi (tender təklifi və bank təminatı istisna olmaqla) 03 oktyabr 2023-cü il saat 15:00-dək uzadılır.

Bank təminatının və tender təklifinin son təqdim olunma tarixi 11 oktyabr 2023-cü il saat 15:00-dək uzadılır.

İddiaçıların tender təkliflərinin açılışı 12 oktyabr 2023-cü il saat 15:00 tarixinə keçirilir. Tender təklifləri Bakı şəhəri, Ə.Əlizadə küçəsi 10 ünvanda (onlayn qaydada) açılacaqdır.

***Tender komissiyası***

# Hərbi attaşelərə "N" hərbi hissəsində ordumuzun arsenalındakı pilotsuz uçuş aparatları göstərilib





Müdafiə nazirinin təsdiq etdiyi illik fəaliyyət planına əsasən, xarici ölkələrin Azərbaycanda akkreditə olunmuş hərbi attaşeləri üçün Hərbi Hava Qüvvələrinin "N" hərbi hissəsinə tanışlıq səfəri təşkil olunub.



Nazirlikdən AZƏRTAC-a verilən məlumata görə, iyirmi iki dövlətin hərbi attaşelik aparatının nümayəndələrinə hərbi hissənin əsas fəaliyyət istiqamətləri barədə brifinq təqdim olunub, Vətən müharibəsi zamanı PUA-ların tətbiqi ilə bağlı videoçarxlar nümayiş etdirilib, sonra onları maraqlandıran suallar cavablandırılıb.

Səfər çərçivəsində qonaqlara Azərbaycan Ordusunun arsenalında yer alan bəzi pilotsuz uçuş aparatları əyani olaraq göstərilib, onların taktiki-texniki xüsusiyyətləri barədə məlumat verilib.

Sonda qarşılıqlı hədiyyələr təqdim olunub.

# Məhkəmə-Hüquq Şurasının və məhkəmələrin adından saxta sənədlər hazırlayan şəxs ifşa edilib

Vətəndaş S.Cabbarova tərəf olduğu mülki işlə bağlı Məhkəmə-Hüquq Şurasına müraciət edərək Zöhrab Lətif oğlu Paşayevin ona qarşı qanunsuz əməllərə yol verdiyini, məhkəmədə işinin həllinə kömək göstərilməsi müqabilində ondan xeyli miqdarda pul vəsaiti aldığını, habelə həmin şəxsin ona Məhkəmə-Hüquq Şurasının və Bakı Apellyasiya Məhkəməsinin adından tərtib olunmuş məktublar verdiyini bildirib. Göstərilən halların araşdırılması üçün müvafiq müraciət və təqdim edilmiş sənədlər Məhkəmə-Hüquq Şurasının Aparatı tərəfindən hüquq-mühafizə orqanlarına göndərilib.

AZƏRTAC xəbər verir ki, bu barədə Məhkəmə-Hüquq Şurası və Dövlət Təhlükəsizliyi Xidməti məlumat yayıb.

Dövlət Təhlükəsizliyi Xidmətində aparılmış araşdırmalar zamanı Azərbaycan Respublikası vətəndaşı, əvvəllər Cinayət Məcəlləsinin 178.2.2-ci, 178.2.4-cü (dələduzluq, təkrar və xeyli miqdarda ziyan vurmaqla törədildikdə), 310-cu (özbaşına özünün vəzifəli şəxs kimi təqdim edilməsi) və 320.1-ci (rəsmi sənədləri qanunsuz hazırlama) maddələri ilə məhkum edilmiş və məhkumluğu ödənilməmiş Zöhrab Paşayevin 2022-ci ilin noyabrından etibarən yenidən özünü vəzifəli şəxs kimi təqdim etməklə ayrı-ayrı vətəndaşlara məhkəmə işlərinin həllinə, adlarına əmlakların rəsmiləşdirilməsinə kömək edəcəyi barədə yalan vədlər verməsi, onların inamını qazanmaq məqsədilə xüsusi qaydada QR kodlar hazırlayıb yerləşdirməklə Məhkəmə-Hüquq Şurasının, məhkəmələrin və digər dövlət orqanlarının adından saxta sənədlər düzəldərək təqdim etməsi və bununla da vətəndaşların pul vəsaitlərini etibardan sui-istifadə etmə və aldatma yolu ilə ələ keçirməsinə əsaslı şübhələr müəyyənləşdirilib.

Başlanılmış cinayət işi üzrə Zöhrab Paşayev Cinayət Məcəlləsinin 178.2.2-ci, 178.2.4-cü, 310-cu və 320.1-ci maddələri ilə cinayət məsuliyyətinə cəlb olunub.

Bildirilib ki, bundan sonra da Məhkəmə-Hüquq Şurasının, məhkəmələrin, habelə hakimlərin adından istifadə edərək qanunsuz əməllərə yol verən şəxslər barəsində müvafiq tədbirlər görülməsi üçün zəruri addımlar atılacaq.

Eyni zamanda vətəndaşlara tövsiyə edilir ki, hüquqi yardımın göstərilməsi ilə bağlı yalnız qanunvericiliklə müəyyən olunmuş qaydada həmin fəaliyyətlə peşəkar qaydada məşğul olan şəxslərə və ya qurumlara müraciət etsinlər.

# Bakıda və Abşeron yarımadasının bəzi yerlərində arabir yağış yağacağı gözlənilir

Azərbaycanda avqustun 26-na gözlənilən hava proqnozu açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasının bəzi yerlərində arabir yağış yağacağı gözlənilir. Gecə yarımadanın bəzi yerlərində leysan xarakterli olacağı, şimşək çaxacağı ehtimalı var. Səhər tədricən kəsiləcək. Mülayim şimal-şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 20-24°, gündüz 26-29° isti olacağı ehtimal edilir. Atmosfer təzyiqi 761 millimetr civə sütunu, nisbi rütubət gecə 75-85, gündüz 50-60 faiz təşkil edəcək.




Abşeron çimərliklərində şimal-şərq küləyi əsəcək. Dəniz suyunun temperaturu şimal çimərliklərində - Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zuğulbada 25-26°, cənub çimərliklərində - Türkan, Hövsan, Sahil, Şıxda 26-27° isti olacaq.

# Ermənistan silahlı qüvvələrinə məxsus kvadrokopter məhv edilib

Avqustun 25-i saat 13:35 radələrində Ermənistan silahlı qüvvələrinə məxsus kvadrokopter Azərbaycan Ordusunun Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunun Heydərabad yaşayış məntəqəsi istiqamətində yerləşən mövqeləri üzərində uçuşlar həyata keçirməyə cəhd göstərib. Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib. Bölmələrimizin sayıqlığı nəticəsində kvadrokopter aşkar edilərək atıcı silahlardan açılan atəşlə məhv edilib.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti
Tiraj 5458
Sifariş 2118
Qiyməti 40 qəpik